RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 61 (9806) 20 mart 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## "Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm"

### Prezident İlham Əliyev Sahibə Qafarovaya "Şərəf" ordenini təqdim edib







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 19-da Sahibə Qafarovanı qəbul edib və ona "Şərəf" ordenini təqdim edib.** AZƏRTAC **xəbər verir ki, Sahibə Qafarovanı salamlayan Prezident İlham Əliyev dedi:**

- Hörmətli Sahibə xanım, sizi yubileyiniz münasibətilə təbrik edirəm. Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Siz uzun illərdir Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız. Milli Məclisin deputatı kimi 15 il və Milli Məclisin Sədri kimi 5 ildir uğurlu fəaliyyət göstərirsiniz. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm, həm seçicilərlə daim təmasda olursunuz, eyni zamanda ölkəmizin milli maraqlarını beynəlxalq arenada müdafiə edirsiniz və öz işinizlə ölkəmizin ümumi inkişafına dəyərli töhfə verirsiniz. Bu yubiley günündə mənim sərəncamımla siz "Şərəf" ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim.

Prezident İlham Əliyev "Şərəf" ordenini Sahibə Qafarovaya təqdim etdi.

**Sahibə QAFAROVA:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Təbrik edirəm.

**Sahibə QAFAROVA dedi:**

- Çox sağ olun, çox minnətdaram. Möhtərəm cənab Prezident, icazə versəniz, mən bir neçə söz deyərdim.

Möhtərəm cənab Prezident, bu yüksək təltifə görə dərin və səmimi minnətdarlığımı bildirmək istərdim. Onu da qeyd etmək istərdim ki, mən bu yüksək təltifi Azərbaycan Respublikası Milli Məclisinin işinin qiymətləndirilməsi kimi dəyərləndirirəm. Əmin etmək istəyirəm, möhtərəm cənab Prezident, həm Milli Məclisin bir üzvü kimi, həm Milli Məclisin Sədri kimi, ümumiyyətlə, Milli Məclis adından demək istərdim ki, bizim hər birimiz Sizin apardığınız siyasətə həmişə parlament səviyyəsində dəstək olacağıq. Xalqın təmsilçiləri olaraq bütün Milli Məclis xalqın rifahı üçün parlament səviyyəsində əlindən gələni edəcək. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə çox minnətdaram. Mən ömür boyu işləmişəm ki, cəmiyyətimizə həmişə hansısa bir xeyir gəlsin. Mən əminliklə demək istəyirəm ki, bundan sonra da işlədiyim zaman Milli Məclisin Sədri kimi, bir insan kimi, Azərbaycan vətəndaşı kimi həmişə əlimdən gələni edəcəyəm ki, işlədiyim yerdə öz vəzifəmi yerinə yetirim. Mən Sizə çox minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təşəkkür edirəm.



## Son 5 ilin Novruzu

### Əsrlərlə yaşı olan bu bayramı indi xüsusi ovqatla qeyd edirik

Təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərə, xoş arzulara yol açır, əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadır, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllərə əsaslanır.

Artıq beşinci ildir ki, Novruzu insanlarımız böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qarşılayırlar. İndi gözəl məkanımız olan Qarabağda da bayram tonqalları çatılır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müzəffər ordumuzun gücü ilə işğaldan azad etdiyi əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır. Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır.

Hər zaman olduğu kimi, bu gün də xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilərək dünyada təbliği, ulularımızdan miras qalmış misilsiz sərvət kimi gələcək nəsillərə ötürülməsi Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas prioritetlərindəndir. Ümummilli Lider Heydər Əliyevin tarixi köklər üzərində milli inkişaf ideyalarını bu sahədə də uğurla davam etdirən dövlətimizin rəhbəri çıxışlarında, siyasi qərarlarında mənəvi dəyərlərin Azərbaycan cəmiyyətindəki mühüm rolunu daim aktuallaşdırır, onların müasir dövrün tələblərinə uyğun yaşadılmasını təmin edir. Xalqımızın mənəvi dünyasında və həyatında xüsusi yer tutan Novruz bayramı da cənab İlham Əliyevin xüsusi önəm verdiyi əsas milli-mənəvi dəyərlərimizdəndir.

→ 10

## Prezident İlham Əliyev Novruz bayramı münasibətilə paylaşım edib




Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə sosial media hesablarında paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Hörmətli həmvətənlər!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhvali-ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıram".

## S.Ə.Qafarovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük xidmətlərinə görə Sahibə Əli qızı Qafarova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2025-ci il*

## Azərbaycan Ordusunun mövqeləri Basarkeçər istiqamətindən atəşə tutulub

Martın 19-u saat 14:15 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan atəşə tutub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

## Azərbaycanın qlobal sülhün gücləndirilməsi sahəsindəki diplomatiyası yüksək qiymətləndirilib



COP29-un məlumatında qeyd olunur ki, Azərbaycan sədrliyi Bakı mərkəzi ətrafında yaradılmış birgə tərəfdaşlıq platforması vasitəsilə şəbəkəni dəstəkləməyə, iqlimə, münaqişəyə, humanitar ehtiyaclara həssas ölkələrin milli potensiallarını gücləndirməyə və "Yaşıl Dünya üçün Həmrəylik" prinsipinə əsaslanaraq birgə fəaliyyətin təşviqinə bundan sonra da davam edəcək.

→ 12

## Tariximizin qanlı səhifəsi - 31 Mart Azərbaycanlıların Soyqırımı Günü

1917-ci ilin fevral inqilabı çar hökumətinin süqutu ilə nəticələndi. Həmin ilin oktyabrında Rusiyada yenidən inqilab baş verdu. Bolşeviklər hakimiyyəti ələ keçirdilər. Lakin yeni hökumətin bir sıra məsələlərdə mövqeyi çarizmlə müqayisədə qətiyyən dəyişməmişdi. Odur ki, erməni daşnakları bu dəfə bolşevik adı ilə köhnə planlarını həyata keçirməyə başladılar. Onlardan biri də Stepan Şaumyan idi. Bolşevik hökumətinin rəhbəri V.İ.Leninin fövqəladə Zaqafqaziya komissarı vəzifəsinə təyinatı ilə Bakıya gələn S.Şaumyan hakimiyyəti ələ keçirdi. "Daşnaksütyun" partiyasının çoxdan qurduğu azərbaycanlılara qarşı soyqırımı planını Bakıda həyata keçirənlərə indi də o, rəhbərlik edirdi. Hələlik isə S.Şaumyan genişmiqyaslı qətliamlara hazırlıq görürdü.

→ 14

## Maskalar yırtılır, həqiqətlər üzə çıxır

### Dünya erməniliyinin əsas ruporuna çevrilən "Azadlıq radiosu" və "Amerikanın səsi", eləcə də USAID layiq olduqları cəzaları alırlar




→ 6

## Ermənistan sülh prosesinə təxribatla cavab verir

Ermənistan Azərbaycan ərazilərini davamlı atəşə tutmağa başlayıb. Bu isə Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığı vaxtda baş verir. Xarici işlər naziri Ceyhun Bayramov martın 13-də jurnalistlərə müsahibəsində sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesinin yekunlaşdığını bildirmişdi. "Biz bir neçə dəfə açıqlama vermişdik ki, son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik", - deyə nazir demişdi.

Ermənistanın kütləvi informasiya vasitələri də bu ölkənin Xarici İşlər Nazirliyinə istinad edərək sülh sazişi mətninin son iki bəndinin razılaşdırıldığı ilə bağlı məlumatlar yayıblar.

→ 12

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD, 114-VIIQD və 115-VIIQD nömrəli qanunları) 308-2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 308-2. Dövlət satınalmaları haqqında qanunvericiliyi pozma**

308-2.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.2. Satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutması, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda -

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.4. Bu Məcəllənin 308-2.1-308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

308-2.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

308-2.4.2. təkrar törədildikdə;

308-2.4.3. külli miqdarda ziyan vurduqda;

308-2.4.4. hədə-qorxu tətbiq olunmaqla törədildikdə -

cinayət nəticəsində vurulmuş ziyanın üç misli miqdarında cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

1. Bu Məcəllənin 308-2.1-308-2.3-cü maddələrində "xeyli miqdar" dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, bu Məcəllənin 308-2.4.3-cü maddəsində "külli miqdar" dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 308-2-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362, № 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD və 115-VIIQD nömrəli, 29 dekabr tarixli 118-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 38.1-ci maddənin ikinci cümləsinə "mübarizə haqqında," sözlərindən sonra "dövlət satınalmaları haqqında," sözləri əlavə edilsin;

2.2. 445-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 445-1. Dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması**

445-1.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsinə görə -

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.2. Satınalan təşkilat tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutmasına görə -

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

445-1.3. Müşahidə şurasının (direktorlar şurasının) tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla təsdiq edilən kommersiya hüquqi şəxsləri tərəfindən "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məlumatların və elanların özlərinin rəsmi internet səhifələrində yerləşdirilməməsinə görə -

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.4. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, açıq tender və ya ikimərhələli tenderdən yayınmaq və (və ya) təchizatçılar arasında rəqabəti məhdudlaşdırmaq məqsədilə eyni xüsusiyyətli (xarakterli, növlü, tipli) və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma predmetlərinin təsnifat kodları üzrə eyni sinifdə olan oxşar satınalma predmetinin ayrı-ayrı hissələrə (müqavilələrə) bölünməsinə görə -

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.5. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalma komissiyası tərəfindən təchizatçıların satınalmalarda iştirakının məhdudlaşdırılmasına, habelə onlar arasında ayrı-seçkilik yaradan tələblərin, meyarların və prosedurların müəyyənləşdirilməsinə görə -

vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

445-1.6. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsinə görə -

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.7. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətlərdə:

445-1.7.1. satınalan təşkilatın qalib təchizatçının təklifini aksept etməməsinə və ya satınalma müqaviləsini imzalamamasına;

445-1.7.2. satınalan təşkilat tərəfindən satınalma müqaviləsi üzrə ödəmələrin (o cümlədən avans ödənişinin) aparılmamasına;

445-1.7.3. satınalan təşkilat tərəfindən təchizatçıların şikayətlərinin və müraciətlərinin araşdırılaraq müvafiq qərarın qəbul edilməməsinə və həmin qərarın şikayət edən və ya müraciət edən təchizatçıya göndərilməməsinə görə -

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.8. Satınalma müqaviləsinin icrasına başlanılması üçün müvafiq dövlət orqanlarından (qurumlarından) razılıq (müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icazələr istisna olmaqla) alınması tələb olunduğu təqdirdə, satınalan təşkilat tərəfindən belə icazələrin müqavilə imzalanana qədər əldə olunmasının təmin edilməməsinə görə -

vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

445-1.9. Nəzarət orqanının satınalma predmetinə (onun icrasına) baxış keçirə bilməsi üçün satınalan təşkilat tərəfindən lazımi şərait yaradılmamasına görə -

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

445-1.10. Satınalmaların həyata keçirilməsi zamanı satınalan təşkilat tərəfindən nəzarət orqanının qanuni tələblərinin və ya qərarlarının yerinə yetirilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:**

1. Bu Məcəllənin 445-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

2. Bu Məcəllənin 445-1-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 28 fevral 2025-ci il*

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 17-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189, № 12 (II kitab), maddələr 1330, 1350; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli, 27 dekabr tarixli 114-VIIQD və 115-VIIQD nömrəli qanunları) 228-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"Maddə 228. **Qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə**

228.1. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə -

iki ilədək müddətə islah işləri və ya iki ildən üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.2. Bu Məcəllənin 228.1-ci maddəsində nəzərdə tutulmuş əməllər:

228.2.1. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə tərəfindən törədildikdə;

228.2.2. təkrar törədildikdə;

228.2.3. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə -

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.3. Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələri və qurğuları satma -

dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.4. Bu Məcəllənin 228.3-cü maddəsində nəzərdə tutulmuş əməllər:

228.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;

228.4.2. şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə;

228.4.3. təkrar törədildikdə;

228.4.4. mediadan, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədildikdə -

beş ildən on bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

228.5. Qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə halları istisna olmaqla -

üç yüz iyirmi saatdan dörd yüz saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə göstərilən əşyaları könüllü surətdə təhvil verən şəxs, əgər onun əməllərində başqa cinayət əməlinin tərkibi yoxdursa, cinayət məsuliyyətindən azad edilir.".

**Maddə 2.** "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 137 (Cild I); 2024, № 5 (I kitab), maddə 488; Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 119-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 7-ci maddənin II hissəsinə "mülki silah" sözlərindən sonra "(odlu silah istisna olmaqla)" sözləri və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasında iyirmi bir yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ vardır.";

2.2. 18-ci maddənin I hissəsinin 3-cü bəndində "üçüncü" sözü "dördüncü" sözü ilə əvəz edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 7 mart 2025-ci il*

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 308-2.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası inzibati Xətalar Məcəlləsinin 445-1.2-ci, 445-1.3-cü (hər iki halda) və 445-1.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 445-1.3-cü maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 445-1.2-ci və 445-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "və 137.2-ci" sözləri ", 137.2-ci və 308-2.2-ci" sözləri ilə əvəz edilsin;

3.2. 2.1-1-ci bənddə "maddəsində" sözü "və 308-2.2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1-ci bənddə "429.0.2," rəqəmlərindən sonra "445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4," sözləri əlavə edilsin;

4.2. 4.2-ci bənd 4.2-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.2-ci bənd əlavə edilsin:

"4.2. həmin Məcəllənin 445-1.3-cü maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

4.3. 4.3-1-ci bəndə "363.2-ci," sözlərindən sonra "445-1.2-ci, 445-1.4-cü," sözləri əlavə edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 mart 2025-ci il*

# "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında süni intellektin inkişafının sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" (bundan sonra - Strategiya) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət orqanlarında (qurumlarında) süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirsin, o cümlədən dövlət orqanlarında (qurumlarında) süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.

4. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçirilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 mart 2025-ci il*

## "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" 2009-cu il 24 iyun tarixli 116 nömrəli, "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2014-cü il 20 fevral tarixli 111 nömrəli, "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2015-ci il 4 may tarixli 516 nömrəli, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və "Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" 2016-cı il 28 aprel tarixli 888 nömrəli və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 597 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 3 fevral tarixli 318 nömrəli və 12 fevral tarixli 327 nömrəli fərmanları) 1-ci hissəsində "5332" rəqəmləri "5402" rəqəmləri ilə, "409" rəqəmləri "459" rəqəmləri ilə, "260" rəqəmləri "280" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2025-ci il*

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin aprel ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Kürdəmir | Kürdəmir, Ucar, Zərdab, Ağsu | 01 |
| 2. | **Mədəniyyət naziri** Adil Kərimli | Saatlı | Saatlı, Sabirabad, İmişli, Beyləqan, Hacıqabul | 03 |
| 3. | **Ədliyyə naziri** Fərid Əhmədov | Şəki | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | 04 |
| 4. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Zərdab | Zərdab, Göyçay, Kürdəmir, Ucar | 08 |
| 5. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Şəki | Şəki, Oğuz, Qəbələ, Qax, Zaqatala, Balakən | 9 |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Şəki | Şəki, Qax | 10 |
| 7. | **Baş prokuror** Kamran Əliyev | Yevlax | Yevlax, Mingəçevir, Ağdam, Goranboy, Naftalan, Tərtər | 11 |
| 8. | **Energetika naziri** Pərviz Şahbazov | Ucar | Ucar, Zərdab, Kürdəmir, Göyçay, Ağdaş | 11 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın | 11 |
| 10. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Astara | Astara, Lənkəran, Lerik | 11 |
| 11. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Şəmkir | Şəmkir, Gədəbəy | 11 |
| 12. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | Oğuz | Oğuz, Qəbələ | 11 |
| 13. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Sabirabad | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | 17 |
| 14. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Sabirabad | Sabirabad, Saatlı, İmişli, Beyləqan, Xocavənd | 18 |
| 15. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Tovuz | Tovuz, Şəmkir, Ağstafa, Qazax, Gədəbəy | 18 |
| 16. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Ucar | Ucar, Zərdab, Kürdəmir, Ağdaş, Göyçay | 18 |
| 17. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Bərdə | Bərdə, Tərtər | 18 |
| 18. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 21 |
| 19. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir | 21 |
| 20. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Yevlax | Yevlax, Ağdaş | 21 |
| 21. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Oğuz | Oğuz, Şəki, Qəbələ | 23 |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | Ağstafa | Ağstafa, Qazax | 25 |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Gəncə | Gəncə, Samux, Daşkəsən | 25 |
| 24. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Ağcabədi | Ağcabədi, Ağdam, Laçın | 25 |
| 25. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Ağsu | Ağsu, İsmayıllı, Qobustan, Şamaxı | 25 |
| 26. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | Neftçala | Neftçala, Salyan | 29 |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

## "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 iyul tarixli 154 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 aprel tarixli 222 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 4, maddə 297 (Cild I); 2024, № 4, maddə 378, № 5 (I kitab), maddələr 517, 529, № 8, maddə 943) ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında Əsasnamə"nin 3.5-ci bəndində (hər iki halda) və 3.9-cu bəndinin birinci cümləsində "internet portalında" sözləri "rəsmi internet saytında" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 72-ci hissəsində "Direktorlar Şurasının" sözləri "İdarə Heyətinin" sözləri ilə əvəz edilsin və həmin hissədən "icraçı direktor," sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1096 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissə üzrə:

3.1.1. 2.3-cü bəndə "internet saytında" sözlərindən əvvəl "rəsmi" sözü əlavə olunsun və həmin bənddə "internet portalında (bundan sonra - portal)" sözləri "rəsmi internet saytında" sözləri ilə əvəz edilsin;

3.1.2. 2.4-cü bəndin birinci cümləsində "Mərkəzin portalında, dövlət orqanının" sözləri "dövlət orqanının və Mərkəzin rəsmi" sözləri ilə əvəz edilsin;

3.1.3. 2.6-cı bənddə "internet saytında və Mərkəzin portalında" sözləri "və Mərkəzin rəsmi internet saytında" sözləri ilə əvəz edilsin;

3.2. 4.1-ci bəndin birinci cümləsində "internet saytı və Mərkəzin portalı" sözləri "və Mərkəzin rəsmi internet saytı" sözləri ilə əvəz edilsin;

3.3. 5.8-ci bənddə "internet saytında və Mərkəzin portalında" sözləri "və Mərkəzin rəsmi internet saytında" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 mart tarixli 348 nömrəli Fərmanı) ilə təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 29.1-ci bəndində "Direktorlar Şurasının" sözləri "İdarə Heyətinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 mart 2025-ci il*

## Ceyhun Bayramov Britaniyanın Dövlət katibi ilə regional vəziyyəti müzakirə edib

**Martın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə Dövlət katibi Devid Ləmmi arasında telefon danışığı baş tutub.**




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, mövcud regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Britaniya naziri Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. İki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

Ceyhun Bayramov bölgədəki mövcud vəziyyət və sülh prosesi barədə məlumat verərək, sülh sazişinin mətni üzrə danışıqların yekunlaşmasına baxmayaraq, sazişin imzalanması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılması məqsədilə müvafiq düzəlişin edilməsinin vacib olduğu vurğulanıb. Bununla yanaşı, ATƏT-in artıq aktual olmayan Minsk qrupu və digər aidiyyəti strukturlarının ləğvinin də vacibliyi diqqətə çatdırılıb.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Azərbaycan-Bəhreyn əməkdaşlığının perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Bəhreyn Krallığının xarici işlər naziri Abdullətif bin Rəşid əl-Zayani arasında telefon danışığı olub.**




AZƏRTAC xəbər verir ki, telefon danışığı zamanı iki ölkə arasında mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyi, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazirlər qarşıdan gələn Novruz və Ramazan bayramları münasibətilə bir-birilərini ürəkdən təbrik edib, ən xoş arzularını çatdırıblar.

Azərbaycan-Bəhreyn əməkdaşlığının müxtəlif, o cümlədən iqtisadi, ticarət, enerji təhlükəsizliyi, mədəni istiqamətlər üzrə hazırkı durumu və perspektivləri, regional və beynəlxalq təşkilatlar, eləcə də BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Azərbaycanın Bəhreynin "Manama Dialoqu" təşəbbüsündə fəal iştirakı, o cümlədən təhlükəsizlik problemlərinin müzakirəsi baxımından bu platformanın əhəmiyyəti xüsusi qeyd edilib.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması ilə bağlı bəzi məsələlər haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 77** **Bakı şəhəri, 13 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 90 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinin və süni torpaq sahəsinin icarə haqqının hesablanması Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmaqla Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə sahilboyu yerləşən şəhər və rayonların zonalar üzrə bölgüsünü və həmin zona bölgüsü əsasında ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin kağız üzərində və elektron formada qrafik təsvirini (xəritəsini) təsdiq etsin;

2.2. Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə birlikdə mütəmadi aparılan monitorinqlər nəticəsində şəhərsalma və ərazi planlaşdırılması sənədlərində edilmiş dəyişikliklər nəzərə alınmaqla, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılacaq su fondu torpaq sahələrinin və süni torpaq sahələrinin icarə haqlarının real vəziyyətə uyğunlaşdırılması üçün sahilboyu yerləşən şəhər və rayonlar üzrə müəyyən edilmiş zonalar əsasında icarə haqqının məbləğinə (bazis qiymətinə) və qiymətləndirmə zonalarının sərhədlərinə yenidən baxsın və zərurət yarandıqda Azərbaycan Respublikasının Nazirlər Kabinetinə razılaşdırılmış təklif təqdim etsin;

2.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının, hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli Qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşları"nın təsdiq edilməsi, "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 sentyabr tarixli 269-12 nömrəli qərarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 avqust tarixli 322-11 nömrəli qərarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 13 aprel tarixli 149-11 nömrəli Qərarında dəyişikliklər edilməsi barədə" 2019-cu il 25 iyun tarixli 279 nömrəli Qərarının ləğv edilməsi barədə" 2019-cu il 25 iyul tarixli 324 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və xüsusi rütbəsi olan əməkdaşlarının hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi barədə" 2008-ci il 24 iyun tarixli 145-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 78** **Bakı şəhəri, 14 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 310 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədiləAzərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 sentyabr tarixli 407 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1561 (Cild I); 2024, № 6 (II kitab), maddə 738) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi);

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin büdcədən maliyyələşdirilən qurumlarında çalışan dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur, məxfi).*

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tövsiyə olunsun ki, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri barədə müvafiq qərar qəbul etsin.

4. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin vəzifə (tarif) maaşlarının məbləğlərinin müəyyən edilməsi haqqında" 2018-ci il 12 aprel tarixli 146-9 nömrəli və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan işçilərinin vəzifə maaşlarına xüsusi rütbəyə görə əlavə haqqın məbləği"nin təsdiq edilməsi haqqında" 2010-cu il 4 iyun tarixli 106-6 nömrəli qərarlarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 79** **Bakı şəhəri, 14 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 27 yanvar tarixli 300 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 10 sentyabr tarixli 403 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1557 (Cild I); 2024, № 2, maddə 238) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur, məxfi).*

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının, dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 80** **Bakı şəhəri, 14 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 308 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin *(1 nömrəli əlavə)*.*

2. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" təsdiq edilsin *(2 nömrəli əlavə)*.*

3. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının xüsusi rütbəyə görə maaşlarının məbləğləri" təsdiq edilsin *(3 nömrəli əlavə)*.*

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin dövlət büdcəsindən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının artırılması ilə əlaqədar cari ilin sonunadək tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2025-ci ilin dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirsin.

5. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla, bu Qərarın əlavəsində nəzərdə tutulmayan vəzifələr üzrə aylıq vəzifə (tarif) maaşlarını müəyyən etsin.

6. Bu Qərarın 5-ci hissəsində qeyd olunmuş tədbirin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və icra prosesində müəyyən ediləcək digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla, yeni mühafizə xidməti tariflərinin təsdiq edilməsi ilə bağlı müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

7. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin büdcədən maliyyələşən qurumlarının xüsusi rütbəsi olan əməkdaşlarının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğlərini müəyyən etsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 387 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1541 (Cild I) 1-ci, 2-ci və 3-cü hissələri ləğv edilsin.

9. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

---

*Əlavələr dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğlərinin təsdiq edilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləği"nin təsdiq edilməsi barədə" 2012-ci il 11 may tarixli 112-12 nömrəli və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının təsdiq edilməsi və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 321-16 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" 2018-ci il 27 aprel tarixli 179-14 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 81** **Bakı şəhəri, 14 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 297 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 sentyabr tarixli 390 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1544 (Cild I); 2024, № 1, maddə 103) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur, məxfi);*

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur, məxfi).*

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Dəmiryol nəqliyyatında qatarların hərəkətinə və manevr işinə dair Təlimat"ın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 76** **Bakı şəhəri, 12 mart 2025-ci il**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamında dəyişikliklər edilməsi və Səhmdar Cəmiyyətinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 18 sentyabr tarixli 622 nömrəli Fərmanının 2.1-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dəmiryol nəqliyyatında qatarların hərəkətinə və manevr işinə dair Təlimat" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının və dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının və hərbi qulluqçularının hərbi rütbəyə görə maaşlarının məbləğləri"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 107 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 86** **Bakı şəhəri, 18 mart 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanının 6-cı hissəsinin, "Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 296 nömrəli Fərmanının 3-cü hissəsinin və "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında" 2025-ci il 27 yanvar tarixli 305 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 107 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının (Agentliyin rəhbərliyinə aid olan hərbi qulluqçular istisna olmaqla) aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*;

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri" yeni redaksiyada təsdiq edilsin (əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan vəsaitin ödənilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsini təmin etsin.

3. Bu Qərar 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

---

*Əlavələr dərc edilmir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Şeyxülislam Allahşükür Paşazadə Ramazan ayı münasibətilə iftar mərasimi təşkil edib

**Martın 19-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə öz iqamətgahında müqəddəs Ramazan ayı ilə əlaqədar iftar süfrəsi açıb.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə müqəddəs "Qurani-Kərim"dən ayələr oxunub.

Ənənəvi iftar mərasimində çıxış edən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Ramazan ayının fəzilətlərindən danışaraq Azərbaycanda olan dini tolerantlığa diqqət çəkib, Azərbaycanda dini icmalara dövlət qayğısını, Prezident İlham Əliyevin himayəsini və qayğısını yüksək qiymətləndirib.

A.Paşazadə Prezident İlham Əliyevin müzəffər siyasətinin davamlı uğurlarından, dövlətçiliyimizin mənafeləri, xalqımızın rifahı naminə dəyərli səy və əməllərindən, azad Qarabağda dini-mənəvi irsimizin dirçəldilməsindən bəhs edərək, bu nailiyyətlərin xalqımızın rifahında, dövlətimizin inkişafında, habelə ölkəmizin dünya miqyasında tanıdılmasında mühüm əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Şeyxülislam qeyd edib ki, Azərbaycandakı tolerantlıq modeli bütün dünyaya nümunədir və belə xoş, mehriban mühit, demək olar, heç bir yerdə yoxdur. O, dua edib ki, Allah-Taala bu birliyimizi əlimizdən almasın. Vurğulayıb ki, Azərbaycan dünyada dini və məzhəb ayrı-seçkiliyinə yol verilməyən nadir ölkələrdəndir. Bu, bizim həyat tərzimizdir, təməli Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş, dövlət başçımız İlham Əliyevin uğurla davam etdirdiyi müdrik dövlətçilik siyasətinin, din-dövlət münasibətlərinin bəhrəsidir.





Ölkəmizin postmüharibə dövründə dini fəaliyyətini diqqətə çatdıran QMİ sədri vurğulayıb ki, 30 illik düşmən işğalında dağıdılmış məscid və kilsələr bu gün Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xətti ilə bərpa olunur, dindarların rahat şəkildə istifadəsi üçün hər bir şərait yaradılır.

Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdəki din-dövlət münasibətlərinin yüksək səviyyədə olduğunu qeyd edərək, bu amilin bütün dini icmaların fəaliyyətinə dəstək və diqqətdə ifadə edildiyini, dini-mənəvi həyatımızda hökm sürən dinlərarası harmoniyanı gücləndirdiyini bildirib.

Mərasimdə çıxış edən Milli Məclis Sədrinin müavini Əli Əhmədov ölkəmizdəki dövlət-din münasibətlərinin qarşılıqlı hörmət və dünyəvilik prinsipləri əsasında formalaşdığını, dövlətin dini inanclara tolerant yanaşdığını və cəmiyyətin müxtəlif konfessiyalar arasında harmoniyanın qorunmasına önəm verdiyini vurğulayıb.

Azərbaycandan fərqli olaraq dünyanın bir çox regionlarında dini dözümsüzlüyün, ayrı-seçkilik və radikalizm hallarının artdığını, bəzi ölkələrdə müxtəlif dini qruplar arasında qarşıdurmalar yaşandığını diqqətə çatdıran Əli Əhmədov bildirib ki, ölkəmizdə Heydər Əliyevin əsasını qoyduğu sülh içində birgəyaşayış siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra ölkəmizdəki dini konfessiyaların rəhbərləri çıxış edərək, belə mübarək məqamda qardaşlıq süfrəsi ətrafında bir araya gəlmələrinin Azərbaycanın örnək multikultural həyat reallığı olduğunu xüsusi vurğulayıblar. Bildirilib ki, Azərbaycanda din nümayəndələrinin mehriban qardaşlıq şəraitində, sülh içində və bir ailənin üzvləri kimi yaşaması bütün dünya üçün bəşəri əhəmiyyət daşıyan dinlərarası qarşılıqlı anlaşma və birgəyaşayış nümunəsidir.

Sonda iftar süfrəsi açılıb.

# Daxili işlər naziri xidmətə qəbulla bağlı növbəti sıra baxışı keçirib





**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 19-da respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

DİN-in Mətbuat xidmətindən qəzetimizə verilən məlumata görə, Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 184 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 16 nəfəri Vətən müharibəsi iştirakçısıdır.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# *OECD-in nümayəndələri:* Azərbaycan təşkilatın fəaliyyətinə mühüm töhfələr verir

**Prezident İlham Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq ölkəmiz bir sıra nüfuzlu beynəlxalq təşkilatlarla, o cümlədən İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsi ilə səmərəli əməkdaşlıq əlaqələrini davam etdirir. Bu əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikası 2006-2010-cu illərdə OECD-nin I, 2010-2013-cü illərdə II, 2013-2016-cı illərdə III, 2016-2019-cu illərdə isə IV Monitorinq mərhələlərindən uğurla keçərək uyğunluq hesabatları əldə edib.**





Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, qiymətləndirmə prosesləri çərçivəsində milli qanunvericiliyin beynəlxalq standartlara inteqrasiyası, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində mühüm dəyişikliklər həyata keçirilib.

Uğurlu tərəfdaşlığın davamı olaraq, Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkənin İstanbul Fəaliyyət Planının icrası çərçivəsində və 2022-2026-cı illəri əhatə edən V raund dəyərləndirmə prosesi əsasında, ölkəmizdə antikorrupsiya sahəsində həyata keçirilmiş tədbirlərə müvafiq nəzarət prosedurunun icrası məqsədilə şəbəkənin ekspertlərindən ibarət nümayəndə heyəti martın 17-dən 19-dək Bakı şəhərinə səfər ediblər.

Nümayəndə heyətini qəbul edən OECD-nin monitorinq mexanizmi üzrə Milli Koordinator - baş prokuror Kamran Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə demokratik və hüquqi dövlət quruculuğu yolunu tutan ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən ardıcıl və sistemli tədbirlər barədə ətraflı məlumat verib, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini vurğulayaraq, OECD ilə uğurlu əməkdaşlığın nəticəsi kimi həmin təşkilatın tövsiyələri əsasında milli qanunvericilikdə mütərəqqi dəyişikliklər edilməsini ekspert heyətinin diqqətinə çatdırıb. Həmçinin hazırkı qiymətləndirmə prosesinin hüquqi bazanın təkmilləşdirilməsində mühüm rol oynadığını qeyd edib.



Bundan sonra təşkilatın Şərqi Avropa və Mərkəzi Asiya üçün Antikorrupsiya Şəbəkəsinin meneceri və Ekspertlər Qrupunun rəhbəri xanım Olqa Savran və digər ekspertlər dəyərləndirmə missiyasının yüksək səviyyədə təşkil edildiyini bildirərək, Azərbaycanla təşkilat arasında uzunmüddətli əməkdaşlıq əlaqələrinin mövcudluğunu və bütövlükdə Azərbaycanın qurumun fəaliyyətinə mühüm töhfələr verməsini vurğulayıb, yaradılmış işgüzar şəraitə görə Azərbaycan tərəfinə təşəkkürünü bildiriblər. Qonaqlar səmərəli müzakirələr nəticəsində əldə edilmiş məlumatlar əsasında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində müşahidə edilən müsbət tendensiyalardan bəhs edib, OECD tövsiyələrinin icra vəziyyətindən danışıblar.

Səfər zamanı ekspertlər korrupsiyaya qarşı mübarizə siyasəti, vəzifəli şəxslərin fəaliyyətində maraqlar toqquşmasının qarşısının alınması, dövlət satınalmaları və biznes sektorunda şəffaflığın və dürüstlük standartlarının tətbiqi, məhkəmə və prokurorluğun müstəqilliyi, korrupsiya cinayətlərinin ibtidai araşdırılması, eləcə də cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası kimi bir çox sahələrdə görülmüş işlərlə yaxından tanış olublar.

Müzakirələrdə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyası, Baş Prokurorluğun müxtəlif struktur bölmələri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Milli Məclis, Nazirlər Kabineti, Məhkəmə-Hüquq Şurası, Ədliyyə, İqtisadiyyat və Maliyyə nazirlikləri, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti daxil olmaqla, 20-dən çox dövlət qurumunun nümayəndələri, məhkəmə hakimləri, vətəndaş cəmiyyətinin təmsilçiləri, eləcə də dövlətin nəzarət səhm zərfinə sahib olduğu təsərrüfat subyektlərinin nümayəndələri iştirak edərək ekspertlərin suallarını cavablandırıblar.

Səfər çərçivəsində toplanmış məlumatlar əsasında yekun ölkə hesabatının hazırlanaraq cari ilin iyul ayında keçiriləcək müzakirələrdə qəbul edilməsi nəzərdə tutulur.

# *Türkiyəli ekspert:* "İrəvanın mövqeyindəki ziddiyyətlər regional münasibətlərin normallaşmasını ləngidir"

**"Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycan və Türkiyə ilə dialoqa və münasibətlərin normallaşmasına hazır olması barədə bəyanatları İrəvanın atdığı real addımlara uyğun gəlmir. Bölgədə dialoq qurmaq səylərinə təkcə Ermənistanın özündə gedən daxili siyasi proseslər deyil, həm də erməni diasporunun müqaviməti, həmçinin Paşinyan administrasiyasının sülh və sabitlik məsələsində konkret addımlarının olmaması da təsir edir".**

AZƏRTAC xəbər verir ki, bu fikri Ankaradakı Avrasiya Araşdırmalar Mərkəzinin (AVİM) analitiki Hazel Çağan Elbir bildirib. O xatırladıb ki, Nikol Paşinyanın Türkiyəyə ünvanladığı "konstruktiv mesajlar" İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın baş nazirinin Ankaranı "soyqırımı siyasətini davam etdirməkdə" açıq şəkildə ittiham etdiyi bəyanatlarından kəskin şəkildə fərqlənir. "44 günlük müharibədə məğlubiyyətdən sonra Paşinyanın ritorikası "dəyişdi". Bunun səbəbi çox güman ki, ənənəvi müttəfiqi Rusiya ilə əlaqələri kəsmək istəyidir ki, bu da İrəvanın Qərbdə, NATO və Aİ-də cazibəsini artırıb", - deyə Elbir qeyd edib.

Onun sözlərinə görə, Ankara-İrəvan dialoqu həm də beynəlxalq aləmdə psevdo-soyqırımı isterikasını qızışdıran erməni diasporunun hərəkətləri ilə də "zəhərlənir".

Bundan başqa, Ermənistanın Müstəqillik Bəyannaməsi və bir sıra digər rəsmi sənədlərdə hələ də açıq şəkildə Türkiyənin ünvanına ərazi iddiaları yer alır, - deyə türkiyəli ekspert vurğulayıb.

Ankara mərkəzinin analitiki diqqəti Türkiyənin xarici siyasət prioritetlərinə yönəldərək bildirib ki, bu prioritetlər regionda uzunmüddətli sabitliyə, inkişafa və sülhə, Azərbaycanla həmrəyliyə və tarixi hadisələrin siyasiləşdirilməsinin yolverilməzliyinə yönəlib.

AVİM eksperti qeyd edib ki, Türkiyənin Ermənistanla sərhədlərinin açılması regional ticarətə və yeni regional layihələrə təkan versə də, Ermənistandakı siyasi qüvvələrin və erməni diasporunun müqaviməti riski, eləcə də Paşinyanın kursunda qeyri-sabitlik probleminin qalması ondan xəbər verir ki, "Ermənistanla münasibətlərin normallaşması hələ çox vaxt tələb edəcək".



# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## USAID ABŞ ilə etibarsız əməkdaşlıq imici formalaşdırırdı

**"Bir müddən əvvəl ABŞ Prezidenti Donald Trampın USAID-in bağlanmasına dair çağırışları fonunda ölkənin Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru vəzifəsini icra etmiş Riçard Qrenelin, ardınca isə Tramp hakimiyyətinin mühüm fiqurlarından və həlledici qərar sahiblərindən biri olan milyarder İlon Maskın "Amerikanın səsi" və "Azadlıq radiosu"nun fəaliyyətinin dayandırılmasına dair bəyanatları, əslində, Vaşinqtonun xarici siyasət kursunda köklü dəyişiklik planlarından xəbər verirdi. Hər iki radio soyuq müharibənin əsas alətlərindən biri kimi uzun illər ərzində Qərb qütbünün, daha konkret desək, ABŞ-nin maraqlarının informasiya mühitində əsas təminatçılarından biri kimi çıxış edib".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, "soyuq müharibə" başa çatdıqdan sonra isə hər iki media resursunun əsas potensialı insan hüquqları və azadlıqları, o cümlədən demokratiya və digər ümumbəşəri dəyərlər pərdəsi altında ayrı-ayrı dövlətlərin, xüsusən müstəqilliklərini yeni əldə etmiş ölkələrin daxili işlərinə müdaxilə etmək üçün zəmin hazırlamaq olub. Üstəlik, bu proseslərdə adıçəkilən media resursları beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsipləri bir qayda olaraq ikinci plana keçirib, daha çox Qərb imperializminin maraqlarında ehtiva olunan ikili standartlara əsaslanıb. Məsələn, Azərbaycana münasibətdə istər qərbi azərbaycanlıların ötən əsrin 80-ci illərinin sonundan etibarən Ermənistanda dövlət səviyyəsində həyata keçirilən etnik təmizləmə siyasəti çərçivəsində öz ata-baba yurdlarından qovulması, istərsə də Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı törədilən soyqırımı və ölkəmizin ərazilərinin 20 faizindən çoxunun işğala məruz qalması hər iki radio tərəfindən yalnız və yalnız Qərbin, həmçinin xristian təəssübkeşliyinin maraqları çərçivəsində şərh edilib. "Ermənistanın dövlət siyasəti çərçivəsində yurdlarından didərgin salınmış bir milyondan artıq insanın məruz qaldığı məhrumiyyətlərə və ağır həyat şəraitinə birmənalı şəkildə göz yuman hər iki media resursunun Azərbaycanda Qərbin "5-ci kolonu" funksiyasını yerinə yetirən ayrı-ayrı şəxslərin "müdafiəsi"nə qalxması və onları qətiyyətlə dünyaya "siyasi məhbus" kimi tanıtmağa cəhd etməsi, o cümlədən Gürcüstanda Qərbin təsirlərini azaltmağa çalışan qanunvericilik layihələrinin qəbulu zamanı, habelə xalqın iradəsinin ifadəsi olan parlament seçkilərində pozucu və təxribatçı çağırışlara yer verməsi hər iki radionun əsl simasını ən azı Cənubi Qafqaz regionu üçün bir daha ifşa etmiş oldu. Sirr deyil ki, hər iki radio, xüsusən ABŞ-də demokratların iqtidarı dövründə çiçəklənmə dövrü yaşayıb və Soros bağlantısı olan digər qurumlarla, eyni zamanda ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyi olan USAID ilə oxşar tezislər əsasında analoji məqsədlər uğrunda vahid "iş planı"na malik olub. Lakin əvvəllər bu və ya digər formada ABŞ-nin maraqları ilə üst-üstə düşən bu fəaliyyət metodunun son zamanlar effekt verməməsi, əksinə, Birləşmiş Ştatların dünyanın ayrı-ayrı coğrafiyalarında mövqeyinin qəti formada zəifləməsinə gətirib çıxarması Vaşinqtondan proseslərə yeni baxış zərurəti meydana çıxarıb", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, bu mənada, kifayət qədər qlobal ambisiyalara malik dünyada Amerikanın hakim mövqeyinin tam bərqərar olunmasına çalışan Tramp kimi siyasətçinin USAID ilə yanaşı, "Amerikanın səsi" və "Azadlıq radiosu"ndan imtina etməsi təsadüf sayıla bilməz. İlon Maskın da açıqladığı kimi, hər il milyard dollardan artıq vəsaitin xərcləndiyi hər iki resurs nəinki ABŞ-nin milli maraqlarının daha effektiv təmininə səbəb olur, əksinə, Vaşinqtonla tərəfdaşlığın etibarsız və güvənli olmayan əməkdaşlıq kimi imicin formalaşmasına gətirib çıxarıb. Təbii ki, proseslərin müşahidə olunan gedişatı Azərbaycan üçün sürpriz olmadı, çünki hələ 2023-cü ilin yayında Prezident İlham Əliyev "China Media Group" şirkətinə müsahibəsində, əslində, bu kimi media orqanlarının əsl mahiyyətini ifşa edib, onların, həmçinin "beynəlxalq insan haqları təsisatları"nın fəaliyyətlərinin təməlində ümumbəşəri dəyərlərin yox, hansısa amillərin dayandığını açıq şəkildə bildirib, onlar kimdən sifariş alırlarsa, həmin sifarişə uyğun fəaliyyət göstərdiklərini bəyan etmişdi. Həqiqətən də, Azərbaycanın Vətən müharibəsində beynəlxalq hüquqla tanınan ərazilərini işğaldan azad etməsi fonunda ölkəmizə qarşı həyata keçirilən böhtan və qarayaxma kampaniyası çərçivəsində adıçəkilən resurslar xüsusi fəallıq göstərib, neytral mövqedə qərarlaşdığını iddia edərək işğalçı və işğala məruz qalan arasında paritet yaratmağa çalışıb. Sonrakı dövrdə isə Azərbaycanın separatizmlə mübarizəsi, ələlxüsus bu mübarizənin şanlı və həlledici səhifəsi olan antiterror tədbirlərində qələbəsinin ardınca "Qarabağdan olan qaçqınlar", "qovulan ermənilər", "məhrumiyyətə məruz qalan Qarabağ erməniləri" kimi çoxsaylı humanizm çalarları ilə pərdələnmiş ifadələr işlətməklə, habelə USAID-in rəhbəri Samanta Pauer, o cümlədən Fransanın ayrı-ayrı rəsmilərinin işğal, təcavüz və separatizmi müdafiə edən bəyanatlarını xüsusi həvəslə tirajlamaqla hər iki media resursu açıq münaqişə tərəfi kimi davranıb.

B.Məhərrəmov bildirib ki, hər iki radionun Cənubi Qafqazda vətəndaş cəmiyyəti institutları üzərində təsir rıçaqlarına sahib olmaq istiqamətində planlı fəaliyyəti, xüsusən Qərblə bağlı və oradan maliyyələşən qeyri-hökumət təşkilatlarının informasiya ruporuna çevrilməsi hər iki radionun Qərb imperializminin xalqın iradə ifadəsini həyata keçirən müstəqil hakimiyyətlərin əvəzinə marionetlərin iqtidara daşınması planında önəmli rol üstləndiklərini göstərirdi: "Lakin dünyanın bir çox coğrafiyalarında olduğu kimi, Cənubi Qafqazda da bu strategiyanın uğur qazanmaması, o cümlədən yalnız öz coğrafiyamıza münasibətdə götürsək, Azərbaycanın hərbi-siyasi qələbələri ilə informasiya hücumlarını tam şəkildə neytrallaşdıra bilməsi, habelə Gürcüstanın proseslərin ilkin mərhələsində qalib ayrılması reallıqları bir daha gün üzünə çıxartdı. Lakin Sorosun ciddi dayaqlarının mövcud olduğu demokratlar iqtidarı, xüsusən Bayden administrasiyası ötən dövr ərzində bu mexanizmin ayrılmaz tərkib hissəsi və korrupsiya ortağı kimi çıxış etdiyi üçün prosesləri görməzdən gəldi. Tramp hakimiyyəti isə sələflərindən fərqli olaraq məsələyə göz yummaq niyyətində deyil".

Deputat vurğulayıb ki, proseslərin gedişi, adıçəkilən media resurslarının, əslində, "müstəqil media" adı altında fəaliyyət göstərən muzdlu qruplaşma olmasının ifşa edilməsi beynəlxalq camedə, eyni zamanda hər kəsə məlum olan, lakin etiraf edilməyən daha bir reallığı gün işığına çıxarıb. Hər kəs bir daha şahidlik etdi ki, həmin media qurumlarının uzun illər ərzində Azərbaycanda insan haqları uğrunda apardığı "mübarizə", əslində, heç bir bəşəri dəyərə malik olmayan imperialist niyyətlərə xidmət edən cəhdlərdən başqa bir şey deyil.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azərbaycana qarşı çirkin kampaniyalar həyata keçirmiş şər yuvalarının layiqli sonu

**"Bütün dövlətlərlə bərabərhüquqlu, qarşılıqlı maraq və hörmət prinsipləri əsasında əlaqələr quran Azərbaycan heç bir dövlətin daxili işinə müdaxilə etmir və öz daxili işinə də müdaxiləni yolverilməz hesab edir. Ölkəmiz hər zaman demokratik təsisatların inkişafına böyük önəm verir. Bu baxımdan, bir çox beynəlxalq siyasi qurumlarla əməkdaşlıq əlaqələri qurulub, amma zaman keçdikcə bəzi beynəlxalq siyasi institutlar müxtəlif maraq qruplarının əlində alətə çevrilərək müstəqil siyasət həyata keçirən ölkələrə qarşı təzyiq vasitəsi kimi istifadə olunmağa başlayıb".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. Deputat bildirib ki, bu çirkin kampaniyaları "demokratiyaya dəstək", "insan hüquqlarının müdafiəsinə dəstək", "azad mətbuata dəstək" və sair bəhanələr pərdəsi ilə örtməyə çalışıblar. Əsl məqsəd müstəqil siyasəti qəbul etməmək, hər vasitədən istifadə edərək öz maraqlarını reallaşdırmaq olub. Bu sırada ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən Beynəlxalq İnkişaf Agentliyi, "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyaları ön planda olublar. Bu qurumlar uzun onilliklər ərzində müxtəlif dövlətlərə, xalqlara, o cümlədən Azərbaycan dövlətinə və xalqına qarşı çirkin kampaniyalar təşkil ediblər. Guya müstəqil olan bu cür qurumlar, əslində, siyasi proseslərə müdaxilə etməyi, cəmiyyətləri çaşdırmağı, ictimai-siyasi prosesləri manipulyasiya etməyi, dövlətçilik prinsiplərini zəiflətməyi fəaliyyətlərində əsas istiqamət seçiblər. Bu məqsədlə ölkə daxilində öz maraqları üçün şəbəkə formalaşdıraraq müxtəlif çirkin niyyətlərini həyata keçirməyə cəhdlər edirdilər. Amma ABŞ-də Donald Trampın prezident seçilməsindən sonra həmin qurumların əsl siması ifşa olunub.

V.Rəhimzadə xatırladıb ki, Donald Tramp martın 14-də ABŞ hökumətinin Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sərəncam imzalayıb: "Bu agentlik "Azadlıq radiosu" media korporasiyasına və "Amerikanın səsi" radiostansiyasına nəzarət edir. Bu radiolar uzun onilliklər Azərbaycan dövlətinə və xalqına qarşı çirkin kampaniyalar təşkil ediblər. Özü də bu çirkin oyunlar USAID-nin "humanitar" yardım göstərmək adı ilə bu media qurumlarına ayırdığı qrantlar vasitəsilə həyata keçirilib. ABŞ-nin ideoloji mübarizəsində təbliğat vasitəsi kimi istifadə olunan "Azadlıq Radiosu" və "Amerikanın səsi" uzun illər təyinatları üzrə yox, başqa ölkələrin daxili işlərinə müdaxilə və digər məqsədlər üçün istifadə edilib. Donald Trampın bu qurumların hökumətdən maliyyələşdirilməsinə son qoyulması ilə bağlı qərarı erməni lobbisinin, həmçinin dünya ölkələrində sabitliyin pozulmasında maraqlı qüvvələr tərəfindən hiddətlə qarşılanıb. Hətta onlar Tramp administrasiyasına qarşı total hücuma start veriblər. Səbəb aydındır. Tramp onların illərdir yaratdığı bataqlığı qurutmağa başlayıb. Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında onilliklərlə erməni diasporunu dəstəkləyən belə strukturların fəaliyyətinə toxunaraq bildirdi ki, dəfələrlə biz bu məsələni erməni nümayəndələrinin və onların Brüsseldəki yeni ağalarının qarşısında qaldırmışıq: "Çünki onlar indi böyük qardaşını dəyişiblər. Bu gün bu, Brüsseldir. Prezident Trampın qələbəsinə qədər bu, Dövlət Departamenti, USAID idi. Məhz indi ciddi problemlərlə üzləşən Menendes kimi rüşvətxor Amerika siyasətçiləri idi. Menendes siyahıda hələ sonuncu deyil. Necə deyərlər, bir qaranquşla bahar olmur. Xeyli digərləri var ki, erməni pulunu ciblərinə qoyurlar. Mən onların adını çəkə bilərəm, adları məlumdur: cənab Adam Şif, cənab Frenk Pallone, xanım Nensi Pelosi və bir çox digərləri var. Onlar onilliklər ərzində Azərbaycana hücum çəkmək və onu gözdən salmaq üçün Birləşmiş Ştatlarda erməni diaspor təşkilatlarından pullar alıblar. Beləliklə, biz Prezident Trampa bataqlığın qurudulmasında uğurlar arzu edirik. Bu, asan deyil. Lakin edilməlidir. Həmçinin biz USAID-in Azərbaycanda qeyri-qanuni fəaliyyəti ilə bağlı Amerikanın orqanları ilə məlumat mübadiləsinə hazırıq. Onlar insanlara necə rüşvət verirdilər?! Onlar qeyri-qanuni maliyyə kanallarından necə istifadə edirdilər?! Onlar Azərbaycanın qanunlarını və normalarını necə pozurdular?! İndi məsuliyyətli olmaq vaxtı yetişib. Biz əlimizdə olan bütün informasiyanı təqdim etməyə hazırıq".

Deputat vurğulayıb ki, "Azadlıq" radiosunun "demokratik dəyərlər" bəhanəsi ilə destruktiv fəaliyyətlə məşğul olduğu dəfələrlə bəyan edilib. Bu radio Azərbaycana qarşı qərəzli məlumatların paylaşılmasını birbaşa təşviq edərək hər zaman riyakar fəaliyyəti ilə seçilib. "Soyuq müharibə" dövrünün təbliğat vasitəsi olan "Azadlıq radiosu" və "Amerikanın səsi" uzun illər ərzində yalan informasiyalar yaymaq, başqa ölkələrin daxili işlərinə müdaxilə etməyə cəhd etməklə məşğul olublar. Adıçəkilən qurumlar keçmiş işğal dövründə Azərbaycanın ərazilərinin zəbtini, suverenliyinin pozulmasını, bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün düşməsini dünyaya çatdırdılarmı? Xeyr! Əksinə, aldıqları sifarişlərə uyğun olaraq birmənalı şəkildə Ermənistanın, erməni lobbisinin maraqlarına uyğun çirkin təbliğat ilə məşğul oldular. İkinci Qarabağ müharibəsi, birgünlük lokal antiterror tədbirləri və ötən ilin noyabrında ölkəmizdə keçirilən COP29 zamanı bu qurumlar öz çirkin təbliğatlarını davam etdirdilər. "Hər zaman Azərbaycanın uğurlarına kölgə salmağa və ictimai rəyi manipulyasiya etməyə çalışıblar. Ötən illər ərzində Azərbaycanla bağlı qərəzli və ikili standartlardan çıxış edən çoxlu sayda materiallar yayımlayıblar. Bu baxımdan, həmin qurumların fəaliyyətinin ləğvi və ya məhdudlaşdırılması müxtəlif xarici qüvvələrin dövlətin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması baxımından vacib addımdır. Ümid edirik ki, Tramp administrasiyasının qərarı müxtəlif ölkələrə, o cümlədən Azərbaycana qarşı da çirkin kampaniyalar həyata keçirmiş bu şər yuvalarının fəaliyyətinə birdəfəlik son qoyacaq. Dövlətimizin başçısı İlham Əliyev ötən il Şuşada keçirilən "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunda bir daha diqqəti bu reallıqlara yönəltdi ki, Azərbaycan haqqında beynəlxalq mediada yayılan məlumatlar həqiqətə uyğun olmur. Faktların manipulyasiyası diqqətdən kənarda qalmır. Ölkəmiz uzun illər bunun qurbanı olub. Əlbəttə, onlardan biri Ermənistan və Azərbaycan arasındakı münaqişə, bütün erməni diasporunun səfərbər olması idi. Ermənipərəst siyasətçilər, media nümayəndələri Azərbaycana qarşı hücum edirdilər. Azərbaycanı reallıqdan çox uzaq bir şəkildə təqdim edirdilər. Ölkəmizə gələn xarici qonaqlar bildirirdilər ki, biz Azərbaycanın bu dərəcədə inkişaf etmiş ölkə olduğunu gözləmirdik. Dezinformasiyalar beynəlxalq ictimaiyyətin diqqətini əsas məsələlərdən yayındırır və tamamilə qeyri-realist ssenarilər üzərinə yönəldir", - deyə siyasətçi əlavə edib.

Deputat bildirib ki, bütün cəhdlərə baxmayaraq, Azərbaycan daim ardıcıl şəkildə hədəflərə doğru inamla addımlayır. Ədalətə və beynəlxalq hüquqa əsaslanan siyasətin uğurları davamlı olmaqla yanaşı, Azərbaycanın beynəlxalq münasibətlər sistemində rolunu, söz sahibliyini möhkəmləndirir.

*Əsmər QABİLQIZI,*
*"Azərbaycan"*

## USAID casus şəbəkəsi ifşa olundu

### Bunu ABŞ-nin özü edib

**"Azərbaycanın dövlət müstəqilliyinin bərpasından dərhal sonra USAID də daxil olmaqla, ABŞ və Avropanın bir çox siyasi institutları, maliyyə fondları, hüquq-müdafiə təşkilatları digər postsovet ölkələrində olduğu kimi, ölkəmizdə də fəaliyyətə başladılar. Qarşılıqlı faydalı və sağlam əməkdaşlığa, ölkədə vətəndaş cəmiyyəti quruculuğu prosesinin, çoxpartiyalı siyasi sistemin, müstəqil medianın inkişafına önəm verən Azərbaycan dövləti bu institutların, fondların və təşkilatların fəaliyyətinə mümkün qədər imkan yaratdı, sivil, etimadlı münasibətlər sisteminin formalaşmasında maraqlı olduğunu nümayiş etdirdi".**



Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Elçin Mirzəbəyli deyib. O bildirib ki, zaman keçdikcə sözügedən təsisatların "vətəndaş cəmiyyəti institutlarının formalaşmasına, çoxpartiyalı siyasi sistemin və müstəqil medianın inkişafına dəstək" adı altında həyata keçirdikləri çoxsaylı layihələrin hədəfi heç də elan edilən istiqamətlərdə Azərbaycan dövlətinin maraqlarına və müstəqil inkişaf perspektivlərinə uyğun nəticələr əldə etmək olmadığı ortaya çıxdı. Məqsəd Azərbaycan dövlətinin müstəqil iradəsinə təsir göstərə biləcək təzyiq alətləri yaratmaq, ehtiyac duyulduğu zaman geosiyasi, iqtisadi və digər maraqların təmin edilməsi üçün bu alətlərdən dövlətimizə və xalqımıza qarşı istifadə etmək, təslimçilik ruhu aşılamaq, özünəməxsus şəbəkə formalaşdırmaq idi. Həmçinin bu təsisatların fəaliyyəti radikal siyasi qüvvələrin antidövlət fəaliyyətinə dəstək vermək, milli dəyərlərinə arxa çevirən, hədəfi olmayan, kənardan ötürülən siyasi texnologiyalarla idarə olunan cəmiyyət və marionet dövlət idarəçilik sistemi formalaşdırmağa yönəlmişdi. "Azərbaycan dövləti gücləndiyi, dövlət idarəçilik institutlarının fəaliyyətinin təkmilləşdiyi, milli dövlətçilik ənənələrinə və prinsiplərinə sadiq qalan qüvvələrin mövqelərinin möhkəmləndiyi halda və siyasi proseslərin alt qatlarında cərəyan edən hadisələr aşkara çıxdıqca, USAID, NED, Fridrix Nauman, Marşall, İREX və bu kimi digər qurumların əsas hədəfinin ölkəmizdə "beşinci kolon" formalaşdırmaqdan ibarət olduğu göz önünə sərgiləndi. Bəlli oldu ki, ölkəmizdə həyata keçirilən layihələrə ayrılan vəsaitlər siyasi qüvvələrin, media resurslarının, qeyri-hökumət təşkilatlarının ələ alınmasına xidmət edib", - deyə deputat əlavə edib.

E.Mirzəbəyli qeyd edib ki, 2000-ci illərin əvvəllərindən etibarən bir sıra postsovet ölkələrində, daha sonra isə Yaxın Şərq və Aralıq dənizi hövzəsində həyata keçirilən "rəngli inqilab" ssenariləri ABŞ və Avropanın bəzi dövlətləri tərəfindən geosiyasi təsir alətləri, "yumşaq güc" mexanizmi kimi yaradılmış bu təsisatların Azərbaycandakı strateji hədəflərinin də mahiyyətini gün işığına çıxarıb. Şübhəsiz ki, eyni ssenarilərin Azərbaycanda da həyata keçirilməsinə səy göstərildi, lakin təxminən 10 ilə yaxın zaman kəsiyində planı cızılan və addım-addım həyata keçirilən bütün təxribatlar dövlətimizin gücü, çevik müdaxiləsi və xalqın iradəsi nəticəsində iflasa uğradı. Radikal müxalifətin zaman-zaman ən müxtəlif adlar altında yaratdığı təsisatlar məhz Qərbin dəstəyi sayəsində ortaya çıxır, maliyyələşdirilir və ayrı-ayrı "beynəlxalq" təsisatlar tərəfindən açıq şəkildə dəstəklənirdilər. Lakin xarici qüvvələrin bu yolla radikal müxalifətin hakimiyyətə qarşı birliyini təmin etmək, ondan güclü alternativ formalaşdırmaq cəhdləri baş tutmadı, xalq süni şəkildə stimullaşdırılan bu prosesi və onun pozucu iştirakçılarını qəbul etmədi, nəticədə bir sıra postsovet ölkələrinin bugünkü problemlərinin kökündə dayanan kataklizm ssenariləri Azərbaycanda reallaşdırmaq mümkün olmadı.

E.Mirzəbəyli vurğulayıb ki, ABŞ Mərkəzi Kəşfiyyat qurumunun alt qolu kimi yaradılan USAID və bu kimi digər "institutlar"ın təcrübəsində hətta "təcili qrantların ayrılması" da olub: "Bu, əksər hallarda bu və ya digər ölkəyə qarşı total kampaniyaların aparılması üçün bəhanələrin yaradılmasına xidmət edib. Mexanizm belədir: öncə "təcili qrantlar" vasitəsilə hansısa ölkədə "fundamental hüquq və azadlıqların pozulduğunu" nümayiş etdirən bəhanə və bu bəhanənin ətrafında "beşinci kolon"un təmsilçiləri, eləcə də onların qopardığı hay-küyün təsiri altına düşənlər vasitəsilə ajiotaj yaradılır. Sonra dövlət və hakimiyyət orqanlarının səhnələşdirilmiş bəhanənin "günahkarlar"ını məsuliyyətə cəlb etmək marağında olmadığı barədə iddialar körüklənməyə başlayır. Bundan sonrakı prosesdə isə USAID, NED və digər "institutlar" tərəfindən maliyyələşdirilən "beynəlxalq insan hüquq və azadlıqlarını müdafiə təşkilatları" işə salınır. Bu "təşkilatlar" da öz növbəsində "hesabat"lar hazırlayaraq sifarişçinin nişan verdiyi ünvana, məsələn, ABŞ Dövlət Departamentinə, ABŞ Konqresinə, Avropa Parlamentinə və bu kimi digər təsisatlara "təqdim" edirlər. Sonra da açıqlamalar, bəyanatlar, qətnamələr mərhələsi başlayır..."

Deputat bildirib ki, təxminən 15-20 il əvvəl həmin təsisatların mərkəzi ofislərinin yerləşdirildiyi ölkələrin bir çoxunda siyasi partiyaların hüquqi şəxslər tərəfindən maliyyələşməsinin birbaşa və dolayısı ilə yasaqlanmasına, bəzilərində isə hətta vətəndaşların ianələrinə qadağaların olmasına baxmayaraq, Azərbaycandakı siyasi partiyaların qeyri-hökumət təşkilatları və media resurslarına ötürülən vəsaitlərlə maliyyələşməsi adi hala çevrilmişdi. Siyasi partiyaların funksionerləri, QHT və media nümayəndələri üçün ölkəmizdə və ölkədən xaricdə müxtəlif adlar altında "məşğələ" və "seminarlar", reallıqda isə "satınalma" və "ələkeçirmə" mərasimləri təşkil edilir, iştirakçıların beyinləri yuyulur və yenidən proqramlaşdırılırdı. Həmin dövrdə torpaqlarımızın işğal altında olmasına baxmayaraq, Azərbaycanın bəzi radikal siyasi partiyalarının, qeyri-hökumət təşkilatlarının, mətbuat orqanlarının rəhbərləri və təmsilçiləri ermənilərlə əməkdaşlığa cəlb olunur, ortaq layihələrdə iştirak edir və hətta milli maraqlarımıza zidd olan birgə bəyanatlara imza atırdılar. 44 günlük Vətən müharibəsi dövründə, sentyabr hadisələri, Fərrux əməliyyatları və son lokal antiterror tədbirləri zamanı biz eyni şəbəkənin ortaq fəaliyyətinə şahidlik etmişdik. Bütün bunlar artıq tarixdə qalıb və USAID, "Amerikanın səsi", "Azadlıq" kimi de-fakto casus şəbəkələri tamamilə ifşa olunduqları və heç bir təsir imkanlarına malik olmadıqları üçün tarixin arxivinə yola salınırlar. Amma bu, o demək deyil ki, yeni "alətlər"in yaradılmasına cəhd göstərilməyəcək.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Maskalar yırtılır, həqiqətlər üzə çıxır

### Dünya erməniliyinin əsas ruporuna çevrilən "Azadlıq radiosu" və "Amerikanın səsi", eləcə də USAID layiq olduqları cəzaları alırlar

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) işində genişmiqyaslı fırıldaqçılıq sxemləri mövcud olub. Bu barədə "Fox News" telekanalına müsahibəsində ABŞ Prezidenti Donald Tramp bildirib. "Çox gözəl səslənir - ABŞ Beynəlxalq İnkişaf Agentliyi. Gözəl deyilmi? Amma bu tam bir fırıldaqçılıqdır", - Vaşinqton administrasiyasının başçısı təfərrüatları açıqlamada bildirib.**

Tramp vurğulayıb ki, ABŞ Demokrat Partiyası bu pozuntulara maraq göstərmir və onun administrasiyasının agentliyin işini dayandırmağa yönəlmiş tədbirlərinə qarşı çıxır. "Demokratlar daim deyirlər: "Konstitusiyamız pozulub". Onların heç vaxt danışmadıqları yeganə şey milyardlarla dolların hara yoxa çıxmasıdır. Onlar axtarmaq istəmirlər", - Amerika lideri qeyd edib.

Göründüyü kimi, USAID-in fəaliyyəti ilə bağlı ABŞ-nin yeni administrasiyasında kifayət qədər tənqidi yanaşma var. Son bir aya nəzər yetirsək görərik ki, təşkilatın fəaliyyəti ilə bağlı Donald Tramp administrasiyası addımlar atır. Yeni hökumət USAID-i bir çox məsələlərdə ittiham edir.

Qeyd edək ki, fevral ayına qədər USAID-in 4765 işçisinin təxminən 90 faizi inzibati məzuniyyətə göndərilib, Ronald Reyqan binasındakı mənzil-qərargahı isə bağlanıb.

"Amerikanın səsi" və "Azadlıq" radiolarının isə əsl üzünü Azərbaycan xalqı Vətən müharibəsində əldə etdiyimiz Zəfərdən sonra çox yaxşı gördü. Hər iki KİV sanki ölkəmizə qarşı səlib yürüşünə çıxmışdı. Xankəndidə Azərbaycan bayrağı dalğalandıqdan sonra ölkəmizə qarşı antiazərbaycançı şəbəkənin təxribatları daha da artdı. Öz gücünə suverenliyini, ərazi bütövlüyünü tam təmin etmiş Azərbaycana qarşı çirkin vasitələrlə təsir göstərmək istəyən korrupsiyalaşmış bəzi beynəlxalq təşkilatlar iyrənc əməllərinə bu media resurslarını da qoşdular. Bütün dövrlərdə erməni lobbisinin maraqlarına xidmət edən "Azadlıq radiosu" feyk informasiyaları paylaşmaqla Azərbaycanın qazandığı qələbəni, nüfuzunu həm beynəlxalq ictimaiyyətdə, həm də müxtəlif ölkələrin cəmiyyətlərində ləkələməyə çalışdı.

Ümumiyyətlə, müəyyən xarici qüvvələrin Azərbaycanın inkişafına qısqanclıqla yanaşması yeni məsələ deyil. Bu dairələr, daha dəqiq desək, xaricdəki antiazərbaycançı şəbəkə hər zaman ölkəmizin imicinə zərbə vurmağa çalışıb. Onların ağ yalanlarını, iftira dolu ittihamlarını çox eşitmişik. Amma özləri də yaxşı bilirlər ki, bütün cəhdləri bumeranq effekti verib.

Azərbaycanda baş verən hər hansısa müsbət hadisəyə, keçirilən mühüm tədbirin əhəmiyyətinə, hətta ölkəmizin qazandığı istənilən uğura belə kölgə salmağa çalışan "Azadlıq" və "Amerikanın səsi" heç zaman ölkəmizə qarşı qarayaxmalarından əl çəkməyiblər. Əslində, Azərbaycanın haqq səsini "təcavüz" sayan, Şuşada, Xankəndidə bayrağımızın dalğalanmasına etiraz edən bu "media orqanları"ndan ölkəmizlə bağlı normal xəbər gözləmək də sadəlövhlük olardı.

Xatırladaq ki, "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyası ABŞ hökumətindən maliyyələşdirmənin dayandırılmasına dair sənədin alınmasını təsdiqləyib. Bu barədə korporasiyanın prezidenti Stiven Kapus müvafiq bəyanat yayıb.

ABŞ Prezidenti Donald Tramp martın 14-də ABŞ hökumətinin Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sərəncam imzalayıb. Agentlik "Azadlıq radiosu" media korporasiyasına və "Amerikanın səsi" radiostansiyasına nəzarət edir.

Agentliyin məktubunda "Azadlıq radiosu"nu maliyyələşdirən ABŞ Konqresinin təsdiq etdiyi qrantın dayandırılmasından bəhs edilib.

Hələ fevral ayında Hökumətin Effektivliyi Ofisinə rəhbərlik edən İlon Mask ABŞ hökumətini "Azadlıq radiosu" media korporasiyası və "Amerikanın səsi" radiostansiyasını maliyyələşdirməyi dayandırmağa çağırıb.

1970-ci illərin əvvəllərinə qədər "Azadlıq radiosu" Mərkəzi Kəşfiyyat İdarəsinin büdcəsi hesabına maliyyələşib, çünki Konqresə özəl təşkilatları maliyyələşdirməsi qanunla qadağan edilib. Bu radiostansiyanın MKİ ilə əlaqəsi üzə çıxandan sonra qadağa götürülüb və maliyyə birbaşa ABŞ Konqresi tərəfindən ayrılmağa başlayıb.

"Soyuq müharibə" dövründə ABŞ-nin ideoloji mübarizəsində təbliğat vasitəsi kimi istifadə olunan "Azadlıq Radiosu" və "Amerikanın səsi" uzun illər təyinatları üzrə yox, başqa ölkələrin daxili işlərinə müdaxilə və digər məqsədlər üçün istifadə edilib.

Beləliklə, həm USAID, həm də adıçəkilən "Azadlıq Radiosu" və "Amerikanın səsi" layiq olduqları cəzanı çəkirlər. Nəticə etibarilə USAID-in Azərbaycandakı fəaliyyətinin dayandırılması ilə bağlı qərar bilavasitə milli maraqların və təhlükəsizliyin təmin olunması, xarici qüvvələrin dövlətin daxili işlərinə qarışmaq cəhdlərinin qarşısının alınması üçün labüd addım idi. Donald Tramp administrasiyasının bu qurumlara layiq olduqları yeri göstərməsi də Azərbaycanın qəbul etdiyi qərarda haqlı olduğunu bir daha sübuta yetirmiş oldu.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



Novruz “yeni gün”, “bahar” deməkdir. Novruz təbiətin oyanışı və yeni başlanğıcıdır. Azərbaycan xalqı bu bayramı həmişə yüksək əhvali-ruhiyyə ilə qeyd edir. Bütün insanlar bu bayramda bərabərləşir, vahid güc kimi birləşir, dostluq, həmrəylik və yüksək mənəviyyat bayramı olan Novruzu artıq işğaldan azad olunmuş tam suveren Azərbaycan torpaqlarında qalib xalq kimi qarşılayır. Bayram tonqalları bütün Azərbaycanda, eyni zamanda qədim Qarabağda daha gur çatılır.

***Yaşasın AZƏRBAYCAN, yaşasın bütün TÜRK DÜNYASI!***

*Dərin hörmət və ehtiramla,*

***Eran MÜDÜROĞLU,***
***LANDMARK Kompleksinin***
***İnvestoru və rəhbəri***



# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | Əhmədov Əli Cavad oğlu | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 09, 30 (Bakı şəhəri) | Rəşadət Xalıqov +99450 263 5318 25sayli_sd@meclis.gov.az |
| 2. | Əsgərov Ziyafət Abbas oğlu | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 16 (Naxçıvan MR, Sədərək rayonu) 26 (Naxçıvan MR, Şərur rayonu) | Günay Orucova +99451 641 9841 1sayli_sd@meclis.gov.az |
| 3. | Qasımlı Musa Cəfər oğlu | 09 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 10 (Masallı rayonu) 24 (Yardımlı rayonu) | Adil Mustafayev +99450 676 3526 75sayli_sd@meclis.gov.az |
| 4. | Hüseynov Rafael Baba oğlu | 02 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 09 (Hacıqabul rayonu) 23 (Kürdəmir rayonu) | Ceyhun Ağayev +99470 887 7090 63sayli_sd@meclis.gov.az |
| 5. | Abbasov Aqil Məhəmməd oğlu | 10 (Füzuli rayonu) 20 (Ağcabədi rayonu) | Fərhad Əliyev +99451 230 3237 85sayli_sd@meclis.gov.az |
| 6. | Ağamalı Günay Fəzail qızı | 05 (Salyan rayonu) 12 (Neftçala və Biləsuvar rayonları) | Pərviz Mirizadə +99451 640 1962 65sayli_sd@meclis.gov.az |
| 7. | Ağayeva Ülviyyə Cavanşir qızı | 13, 27 (Tovuz rayonu) 14, 28 (Ağstafa və Qazax rayonları) | Arzu Musayeva +99455 649 3070 107sayli_sd@meclis.gov.az |
| 8. | Ağazadə Əminə Həmid qızı | 05, 17 (Kürdəmir rayonu) | Namiq Ağayev +99455 298 8050 62sayli_sd@meclis.gov.az |
| 9. | Akimova Elnarə Seydulla qızı | 09, 23 (Sumqayıt şəhəri) | Tayfun Hacılı +99470 220 0577 46sayli_sd@meclis.gov.az |
| 10. | Alıyev Sahib Eyvaz oğlu | 17, 30 (Ağdaş rayonu) | Rəhman Rəhmanov +99450 277 0984 93sayli_sd@meclis.gov.az |
| 11. | Allahverənov Azər Kərim oğlu | 02, 09 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev +99455 544 5566 29sayli_sd@meclis.gov.az |
| 12. | Arpadarai Nigar Cavid qızı | 09, 23 (Bakı şəhəri) | Bəhruz Teymurov +99450 304 2112 7sayli_sd@meclis.gov.az |
| 13. | Aslanov Novruzəli Davud oğlu | 03, 10, 17, 24 (İsmayıllı rayonu) | Kamran Xanlarlı +99450 502 4888 89sayli_sd@meclis.gov.az |
| 14. | Badamov Azər Camal oğlu | 14, 21 (Qusar rayonu) | General Sadulov +99450 313 2962 61sayli_sd@meclis.gov.az |
| 15. | Bayramov Kamran Fərhad oğlu | 12 (Göygöl rayonu) 19 (Daşkəsən rayonu) | Məmməd Məmmədli +99450 247 9747 100sayli_sd@meclis.gov.az |
| 16. | Bayramov Vüqar İbad oğlu | 09, 23 (Füzuli rayonu) | Eltun Ağakişiyev +99450 226 8002 84sayli_sd@meclis.gov.az |
| 17. | Bədəlov Bədəl Şamil oğlu | 05 (Goranboy rayonu) 19 (Naftalan şəhəri) | Mahyəddin Mazanov +99470 310 2733 96sayli_sd@meclis.gov.az |
| 18. | Cəfərov Kamal Xaqani oğlu | 08, 22 (Sabirabad rayonu) | Azad Əhmədbəyli +99455 222 2588 68sayli_sd@meclis.gov.az |
| 19. | Cəfərov Müşfiq Cəfər oğlu | 05 (Gəncə şəhəri) 26 (Goranboy rayonu) | Sahib Əmiraslanov +99450 255 2039 41sayli_sd@meclis.gov.az |
| 20. | Cəfərova Tamam Şaməmməd qızı | 10, 24 (Şamaxı rayonu) | Aytəkin Quliyeva +99451 466 0090 88sayli_sd@meclis.gov.az |
| 21. | Əfəndiyev Məzahir Cavid oğlu | 18, 25 (Ağdaş rayonu) | Murad Abdullayev +99451 844 2424 92sayli_sd@meclis.gov.az |
| 22. | Əfəndiyeva Günay Elçin qızı | 12, 26 (Bakı şəhəri) | Məhsəti Qarayeva +99455 235 1575 14sayli_sd@meclis.gov.az |
| 23. | Ələkbərov Əziz Yusif oğlu | 12, 26 (Saatlı rayonu) | Samir Nəsirov +99450 247 4355 66sayli_sd@meclis.gov.az |
| 24. | Əliyev Bəxtiyar Həmzə oğlu | 09, 23 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov +99450 288 2292 119sayli_sd@meclis.gov.az |
| 25. | Əliyeva Jalə Fazil qızı | 09 (Kürdəmir rayonu) 10 (Zərdab rayonu) | Firdovsi Eyvazov +99450 331 9434 95sayli_sd@meclis.gov.az |
| 26. | Əli-zadə Arzuxan Baxşəli oğlu | 12, 26 (Bakı şəhəri) | Yəhya Həsənov +99455 814 0555 / +99450 315 5842 27sayli_sd@meclis.gov.az |
| 27. | Əmiraslanov Azər Kamal oğlu | 15 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 11, 25 (Ağstafa rayonu) | Əlövsət Allahyarov +99450 398 4697 108sayli_sd@meclis.gov.az |
| 28. | Əmiraslanov Əhliman Tapdıq oğlu | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 19, 26 (Sabirabad rayonu) | Raqif Xəlilov +99450 277 9638 67sayli_sd@meclis.gov.az |
| 29. | Əsədov Heydər Xanış oğlu | 08, 22 (Şirvan şəhəri) | Zahir Qəhramanov +99450 216 0470 51sayli_sd@meclis.gov.az |
| 30. | Əsgərov Asif Yunis oğlu | 05, 12 (Zaqatala rayonu) | Elbrus Məmmədov +99455 677 6262 112sayli_sd@meclis.gov.az |
| 31. | Feyziyev Cavanşir Əyyub oğlu | 12, 26 (Şəki şəhəri) | Turan Salamov +99455 280 7750 / +99450 520 6618 115sayli_sd@meclis.gov.az |
| 32. | Fətəliyeva Sevinc Həbib qızı | 10, 24 (Bakı şəhəri) | Eldar Qurbanov +99450 277 0956 30sayli_sd@meclis.gov.az |
| 33. | Fətiyev Xanlar Nuru oğlu | 12, 23 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə +99450 243 9030 98sayli_sd@meclis.gov.az |
| 34. | Gəncəliyev Tural Babaşah oğlu | 10, 24 (Bakı şəhəri) | Xatirə Əliyeva +99455 722 7431 122sayli_sd@meclis.gov.az |
| 35. | Hacıyev Sabir Kamal oğlu | 10, 24 (Göyçay rayonu) | Əli Qafarov +99450 200 2209 91sayli_sd@meclis.gov.az |
| 36. | Həmzəyev Naqif Əlaşrəf oğlu | 10, 24 (Gəncə şəhəri) | Sərxan İmanov +99450 255 1438 38sayli_sd@meclis.gov.az |
| 37. | Həmzəyeva Ülviyyə Tapdıq qızı | 10 (Naxçıvan MR, Naxçıvan şəhəri) 24 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev +99450 658 2375 5sayli_sd@meclis.gov.az |
| 38. | Həsən Ramil Sahib oğlu | 10, 24 (Ucar rayonu) | Vüqar Səlimov +99451 215 6141 94sayli_sd@meclis.gov.az |
| 39. | Həsənquliyev Qüdrət Müzəffər oğlu | 12, 26 (Bakı şəhəri) | Hüseyn Müzəffərli +99450 547 7764 36sayli_sd@meclis.gov.az |
| 40. | Həsənov Malik Əvəz oğlu | 16, 30 (Cəlilabad rayonu) | Ələddin Əliyev +99451 911 5116 71sayli_sd@meclis.gov.az |
| 41. | Həsənov Nurlan Urfan oğlu | 12, 19 (Şəmkir rayonu) | Anar Quliyev +99450 753 4433 103sayli_sd@meclis.gov.az |
| 42. | Həsənova Afət Əbil qızı | 16, 23 (Bakı şəhəri) | Namiq Mustafayev +99450 320 3286 32sayli_sd@meclis.gov.az |
| 43. | Hüseynli Əli Məhəmməd oğlu | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 05, 26 (Yevlax şəhəri) | Bayram Yusifov +99450 262 6131 53sayli_sd@meclis.gov.az |
| 44. | Hüseynov Aydın Nəsir oğlu | 09, 16 (Bakı şəhəri) | Vüsal Yusifov +99450 255 1337 / +99470 200 9878 37sayli_sd@meclis.gov.az |
| 45. | Hüseynova Hicran Kamran qızı | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 09, 23 (Sumqayıt şəhəri) | Elçin Kərimov +99451 460 5334 42sayli_sd@meclis.gov.az |
| 46. | Hüseynova Sevinc Əmirəhməd qızı | 03, 26 (Gədəbəy rayonu) | Elxan İsmayılov +99450 642 0979 104sayli_sd@meclis.gov.az |
| 47. | Xasayeva Səbinə Səməd qızı | 09, 16 (Bakı şəhəri) | Bayram Məmmədov +99455 596 2134 11sayli_sd@meclis.gov.az |
| 48. | İbrahimqızı Məlahət İbrahim qızı | 03, 24 (Bakı şəhəri) | Xətai Məmmədli +99450 255 2142 21sayli_sd@meclis.gov.az |
| 49. | İbrahimli Fəzail Feyruz oğlu | 10, 24 (Masallı rayonu) | Faiq Ağayev +99450 201 5670/ +99450 277 5549 73sayli_sd@meclis.gov.az |
| 50. | İbrahimov Eldar Rza oğlu | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 19 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov +99450 255 1306 4sayli_sd@meclis.gov.az |
| 51. | İsgəndərov Anar Camal oğlu | 28 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 05, 19 (Lənkəran şəhəri) | Valeh Mikayılov +99450 335 2232 78sayli_sd@meclis.gov.az |
| 52. | İskəndərov Vüqar Yapon oğlu | 06, 19 (Şəki şəhəri) | Anar Nağıyev +99450 295 0115 114sayli_sd@meclis.gov.az |
| 53. | İsmayılov İmamverdi İbiş oğlu | 12 (Sumqayıt şəhəri) 21 (Bakı şəhəri) | Məlahət Əzizova +99450 855 2026 125sayli_sd@meclis.gov.az |
| 54. | İsmayılov Şahin Əmir oğlu | 30 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Beyləqan rayonu) | Çingiz Səfərov +99455 444 3366 83sayli_sd@meclis.gov.az |
| 55. | İsmayılzadə Fariz Akif oğlu | 12, 26 (Lənkəran şəhəri) | Mansur Talıbov +99450 369 7872 77sayli_sd@meclis.gov.az |
| 56. | Kərimli Azər Şəmşid oğlu | 12, 26 (Zaqatala rayonu) | Samir Hüseynzadə +99455 830 1363 111sayli_sd@meclis.gov.az |
| 57. | Kərimzadə Pərvin Orxan qızı | 09, 23 (Gəncə şəhəri) | Hicran Məmmədova +99450 692 8685 39sayli_sd@meclis.gov.az |
| 58. | Qafarov Kamaləddin Nəsrəddin oğlu | 09, 16 (Bakı şəhəri) | Nazim Cəfərov +99450 708 6911 9sayli_sd@meclis.gov.az |
| 59. | Qafarov Vasif Vaqif oğlu | 12 (Lerik rayonu) 26 (Astara rayonu) | Pərviz Ağaxanlı +99455 628 6966 80sayli_sd@meclis.gov.az |
| 60. | Qasımlı Mircəlil Xəqani oğlu | 05 (Bakı şəhəri) 12 (Qəbələ rayonu) | Anar Çıraqov +99499 309 1131 123sayli_sd@meclis.gov.az |
| 61. | Qədirli Erkin Toğrul oğlu | 07, 14 (Bakı şəhəri) | Fariz Zöhrabov +99470 918 3110 16sayli_sd@meclis.gov.az |
| 62. | Qəhrəmanov Göydəniz İbrahim oğlu | 10, 23 (Bakı şəhəri) | Rəhim Qədirov +99450 555 8845 17sayli_sd@meclis.gov.az |
| 63. | Quliyev Azay Əjdər oğlu | 10, 24 (Bakı şəhəri) | Asəf Vəliyev +99450 578 5187 8sayli_sd@meclis.gov.az |
| 64. | Quliyev Eldar Allahyar oğlu | 13, 27 (Bakı şəhəri) | Eynulla Rəsulov +99450 222 6899 28sayli_sd@meclis.gov.az |
| 65. | Quliyev Musa İsa oğlu | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Gəncə şəhəri) | Göyüş Şəfizadə +99450 255 1442 40sayli_sd@meclis.gov.az |
| 66. | Quliyev Ülvi Zahid oğlu | 03, 24 (Bakı şəhəri) | Nurlan Qurbanov +99450 241 5156 15sayli_sd@meclis.gov.az |
| 67. | Qurbanlı Mübariz Qəhrəman oğlu | 10 (Bakı şəhəri) 29 (Samux rayonu) | Elnur Tağıyev +99455 212 8191 101sayli_sd@meclis.gov.az |
| 68. | Qurbanov Eyvaz Daşdəmir oğlu | 12, 26 (Oğuz rayonu) | Səxavət Kərəmov +99470 510 6968 / +99451 774 3782 117sayli_sd@meclis.gov.az |
| 69. | Qurbanov Sadiq Haqverdi oğlu | 08 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 05, 19 (Salyan rayonu) | Elnur Rəhimov +99455 375 6075 64sayli_sd@meclis.gov.az |
| 70. | Mahmudov Rəşad Məmmədqulu oğlu | 12, 26 (Astara rayonu) | Həsənağa Əskərli +99477 542 0770 79sayli_sd@meclis.gov.az |
| 71. | Məhəməliyev Nəsib Məhəmməd oğlu | 03, 17 (Balakən rayonu) | Yusif Mirzəyev +99450 213 6259 110sayli_sd@meclis.gov.az |
| 72. | Məhərrəmov Bəhruz Abdurrəhman oğlu | 06, 26 (Biləsuvar rayonu) | Əfsun Əlizadə +99455 283 1705 / +99470 300 1461 69sayli_sd@meclis.gov.az |
| 73. | Məhərrəmzadə Əlibala Səttar oğlu | 05, 26 (Quba rayonu) | Elnur Xəlilov +99455 308 4950 59sayli_sd@meclis.gov.az |
| 74. | Məmmədli Müşfiq Fazil oğlu | 09 (Siyəzən rayonu) 16 (Quba rayonu) | Nəsimi Əliyev +99455 887 1314 55sayli_sd@meclis.gov.az |
| 75. | Məmmədov Anar İlyaz oğlu | 12, 13, 26 (Tərtər rayonu) 27 (Goranboy rayonu) | Elçin Cahangirov +99450 324 2791 97sayli_sd@meclis.gov.az anarmammadov@meclis.gov.az |
| 76. | Məmmədov Ceyhun Valeh oğlu | 12 (Bakı şəhəri) 26 (Şabran rayonu) | Rəşad Quliyev +99455 847 5621 120sayli_sd@meclis.gov.az |
| 77. | Məmmədov Elman Camal oğlu | 07, 14 (Bakı şəhəri) | Mahir Rzayev +99450 288 6629 / +99470 290 0335 118sayli_sd@meclis.gov.az |
| 78. | Məmmədov Hikmət Baba oğlu | 09, 23 (Bakı şəhəri) | Azər Quliyev +99450 277 1219 19sayli_sd@meclis.gov.az |
| 79. | Məmmədov İlham Kazım oğlu | 05, 26 (Yevlax şəhəri) | Rüstəm Əliyev +99450 277 7417 52sayli_sd@meclis.gov.az |
| 80. | Məmmədov Qaya Məmməd oğlu | 03, 17 (Bakı şəhəri) | Samir Əliyev +99455 377 3102 31sayli_sd@meclis.gov.az |

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin aprel ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 81. | Məmmədov Məşhur Şahbaz oğlu | 05, 26 (Masallı rayonu) | Əli Nağıyev +99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | Məmmədov Soltan Teymur oğlu | 05, 16 (Bakı şəhəri) | Azər Məlikov +99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | Məmmədova Nigar Fikrət qızı | 01, 09 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova +99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | Məsimli Əli Əhməd oğlu | 25 (Qax rayonu) 26 (Şəki şəhəri) | Vüsal Baxışov +99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | Mikayılova Sevil Əlirazı qızı | 01, 16 (Xaçmaz rayonu) | İradə Çobanova +99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | Mirkişili Tahir Famil oğlu | 07, 21 (Sumqayıt şəhəri) | Cavid Quliyev +99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 87. | Mirzəbəyli Elçin Əbdülrəhim oğlu | 09, 16 (Ağsu rayonu) | İbrahim Bağırlı +99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | Mirzəzadə Aydın Böyükkişi oğlu | 10, 24 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov +99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | Mollazadə Asim Nazim oğlu | 09, 23 (Bakı şəhəri) | İlkin Həsənov +99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | Möhbalıyev Səttar Suliddin oğlu | 03 (Naxçıvan MR, Babək rayonu)<br>24 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev +99455 744 2537 /<br>+99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | Muradov Rövşən Şahbaz oğlu | 18 (Ağcabədi rayonu) 25 (Bakı şəhəri) | Murad Həsənli +99450 510 9897<br>121sayli_sd@meclis.gov.az |
| 92. | Musabəyov Rasim Nəsrəddin oğlu | 03, 24 (Bakı şəhəri) | Asif Nəsibov +99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | Musayev Elşad Nəbi oğlu | 12, 19 (Bakı şəhəri) | Vüqar Qasımov +99455 744 9919 /<br>+99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | Musayev Elşən Məmmədhənifə oğlu | 12, 20 (Qəbələ rayonu) | Cəfər Əliyev +99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | Mustafa Fazil Qəzənfər oğlu | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 07, 14, 21 (Bakı şəhəri) | Əjdər Əliyev +99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | Nağıyev Arzu Nəsib oğlu | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>12 (Tovuz rayonu) 26 (Gədəbəy rayonu) | Elşad İsmayılov +99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | Namazov Ramid Zakir oğlu | 05, 26 (Abşeron rayonu) | Ramil Şükürov +99410 412 1079<br>50sayli_sd@meclis.gov.az |
| 98. | Nəbiyev Rizvan Novruz oğlu | 05, 19 (Abşeron rayonu) | Rişad Abbasov +99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 99. | Nəsirov Elman Xudam oğlu | 12, 26 (Cəlilabad rayonu) | Üzeyir Mustafayev +99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 100. | Novruzov Siyavuş Dünyamalı oğlu | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12, 26 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov +99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 101. | Nurullayev Razi Qulaməli oğlu | 09 (İmişli rayonu) 23 (Bakı şəhəri) | Vüqar Süleymanov +99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | Nurullayeva Könül Oruc qızı | 07, 28 (Bakı şəhəri) | Sabit Mahmudov +99450 206 0254 /<br>+99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | Oruc Zahid Məhərrəm oğlu | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 04, 18 (Bakı şəhəri) | Ceyhun Fərəcov +99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | Paşayeva Gülşən Məmmədəli qızı | 05, 19 (Bakı şəhəri) | Ramin Ağacanov +99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 105. | Paşazadə Cavanşir Hümmət oğlu | 17, 25 (Lənkəran şəhəri) | Sulduz Ağayev +99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | Polad Bülbüloğlu | 23 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18, 25 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı +99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | Rafailov Anatoliy Xaimoviç | 12, 26 (Quba rayonu) | Qəhrəman Qasımov +99450 364 3926 /<br>+99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | Rəhimzadə Vüqar Gəncəli oğlu | 12 (Naxçıvan MR, Ordubad rayonu)<br>26 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev +99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | Rüstəmxanlı Tənzilə Yolçu qızı | 03, 24 (Neftçala rayonu) | Fərman Hüseynov +99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | Rzayev Tahir Musa oğlu | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) 12,13, 25, 26 (Ağcabədi rayonu) | Samir Məmmədov +99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | Salahlı Səyyad Adil oğlu | 11 (İmişli rayonu) 17 (Saatlı rayonu) | Ağa Abışov +99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 112. | Salmanova Səbinə Qədir qızı | 09, 30 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov +99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | Seyidov Səməd İsmayıl oğlu | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası<br>17, 28 (Qazax rayonu) | Akif Əmirov +99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | Seyidzadə Şahin Kamil oğlu | 02 (İsmayıllı rayonu)<br>09 (Qobustan və Şamaxı rayonları) | Elman Mikayılov +99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 115. | Səfərov Nizami Abdulla oğlu | 09, 28 (Tovuz rayonu) | Elbəy Bədirov +99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 116. | Səmədzadə Ziyad Əliabbas oğlu | 10, 24 (Bakı şəhəri) | Quliyev Azad +99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | Süleymanlı Mahir Tahir oğlu | 12 (Şabran rayonu) 26 (Xaçmaz rayonu) | Orxan Süleymanov +99455 319 1717<br>56sayli_sd@meclis.gov.az |
| 118. | Şükürov Zaur Ramiz oğlu | 10 (Sumqayıt şəhəri) 17 (Abşeron rayonu) | Aslan Talıbov +99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | Vəliyev Ağalar İsrəfil oğlu | 09, 23 (Xaçmaz rayonu) | İlham Musayev +99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | Vəliyev Samir Əhməd oğlu | 08, 22 (Bakı şəhəri) | Vüsal Əliyev +99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | Vəliyeva Mehriban Hidayət qızı | 16, 30 (Sumqayıt şəhəri) | Ramiz Alıyev +99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 122. | Vəliyeva Pərvanə Bulut qızı | 05, 19 (Bakı şəhəri) | Kamil Hacıyev +99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | Yıldırım Fatma Vidadi qızı | 05, 26 (Bərdə rayonu) | Fuad Ağayev +99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | Zabelin Mixail Yuryeviç | 05, 19 (Bakı şəhəri) | Firdovsi Cahangirov +99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# AHİK uşaqlar üçün Novruz şənlikləri təşkil edir








**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) və üzv təşkilatları ölkəmizin şəhər və rayonlarında uşaqlar üçün Novruz bayramı münasibətilə tədbirlər təşkil edir, azyaşlıları hədiyyələrlə sevindirir.**




Tədbirlər baharın gəlişini öz yurdlarında qarşılayan Şərqi Zəngəzurun və Qarabağın azyaşlı sakinlərini də əhatə edib. Belə ki, Zəngilan, Cəbrayıl, Füzuli, Laçın, Şuşa, Xankəndi və Xocalıda təşkil olunan bayram tədbirlərində AHİK rəsmiləri məktəbliləri təbrik edib, onların doğma yurd-yuvalarında bayram keçirmələrinin qürurlu olduğunu vurğulayıblar. Tədbirdə uşaqların inkişafı, hüquqlarının qorunması sahəsində görülən işlərdən, bu istiqamətdə həmkarlar ittifaqlarının fəaliyyətindən bəhs olunub, onların əsl vətənpərvər kimi formalaşması üçün görülən işlər diqqətə çatdırılıb.

Novruz şənliklərində uşaqlar bayram əhvali-ruhiyyəsində şeirlər söyləyib, tonqal ətrafında yallı gedib, doğma yurdlarında yaşamağın sevincini bölüşüblər.

Tədbirlərdə AHİK tərəfindən uşaqlara bayram hədiyyələri paylanılıb.

Qeyd edək ki, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən həyata keçirilən bu humanitar aksiya sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları məktəblərdə də təşkil olunub.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Tərtərdə bayram sevinci yaşandı

**Tərtər Rayon İcra Hakimiyyətinin, Qarabağ Regional Mədəniyyət İdarəsi Tərtər nümayəndəliyinin və YAP rayon təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbir Ulu Öndər Heydər Əliyevin abidəsini və Şəhidlər abidə kompleksinin ziyarəti ilə başlamışdır.**



Tədbir iştirakçıları Tarix-diyarşünaslıq muzeyinin nümayiş etdirdiyi qədim əşyalara, "Bahar" sərgisinə, şagirdlərin, Uşaq Gənclər İnkişaf Mərkəzinin Novruza həsr olunan rəsm və əl işlərindən ibarət sərgisinə baxdıqdan sonra rayon idmançılarının güləş, boks, kikboksinq üzrə nümunəvi çıxışlarını, kəndirbazların oyunlarını izləmişlər. Ətrafda yumurta döyüşən, xoruz döyüşdürən kim. Bir sözlə, Novruza xas bütün adət-ənənələr, onun təamları - yuxa, kətə, qovurğa, aş, müxtəlif şirniyyatlar meydanda açılmış süfrələrə düzülmüşdür.

Müdrik el ağsaqqalı Dədə Qorqud və Bahar qızı iştirakçıları salamlayaraq onlara xeyir-dua vermiş, xoş arzularını bildirmişlər. Milli paltar geymiş qızların rəqsləri, Keçəl və Kosanın çıxışları da maraqla izlənmişdir. Sonra meydanın mərkəzində rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov Dədə Qorqudla birlikdə qurulan Novruz tonqalını alovlandırmışdır.

Çıxış edən M.Məmmədov tərtərliləri bayram münasibətilə təbrik edərək onlara cansağlığı, ruzi-bərəkət və firavanlıq arzulamışdır. Bildirmişdir ki, Novruz bayramı əsrlərin sınağından çıxaraq bugünədək gəlib çatmış milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan bayramımızdır. Xalqımız min illərdir ki, Novruzun gəlişini bayram edir: "Artıq 5 ildir 44 günlük Vətən müharibəsində düşmən üzərində qazanılan möhtəşəm Zəfər Azərbaycana əbədi bir bahar gətirib. Bu baharı bizə gətirən şəhidlərimizə Ulu Tanrıdan rəhmət diləyir, şəhid analarının qarşısında baş əyir, qazilərimizə cansağlığı arzulayırıq".

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 2021-ci ildə Cıdır düzündən, 2022-ci ildə Suqovuşan qəsəbəsindən, 2023-cü ildə Talış kəndindən, 2024-cü ildə Xankəndidən, bu il isə Ağdərənin Həsənriz kəndindən Azərbaycan xalqını təbrik etdiyini, bayram tonqalını yandırdığını deyən M.Məmmədov vurğulamışdır ki, bu gün doğma Qarabağ və Şərqi Zəngəzur yenidən dirçəlir, gülüstana çevrilir, kəndlər salınır, şəhərlər bərpa edilir, uzun illər doğma ocaqlarından didərgin düşmüş məcburi köçkünlər geriyə dönürlər".

Müğənnilərin ifaları və Qarabağ Regional Mədəniyyət İdarəsi Tərtər nümayəndəliyi tərəfindən hazırlanan şən və rəngarəng konsert proqramı tədbir iştirakçıları tərəfindən maraqla izlənmişdir.

Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup tərtərliyə rayon icra hakimiyyətinin və YAP rayon təşkilatının fəxri fərmanları təqdim olunmuşdur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*




# Ağdamda bayram tonqalları şölələndi

**Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə keçirilən Novruz tədbirində RİH-in başçısı Vaqif Həsənov, YAP rayon təşkilatının sədri Mansur Quliyev, şəhid ailələri və qazilər, idarə, müəssisə və təşkilatların rəhbərləri, mədəniyyət işçiləri iştirak etmişlər.**



Heydər Əliyev Mərkəzinin qarşısında tədbir iştirakçılarına milli mətbəximizin nümunələri, qədim xalq oyunları, kitablardan, muzey eksponatlarından və rəsm əsərlərindən ibarət sərgi təqdim olunmuş, idmançılar tərəfindən müxtəlif nömrələr nümayiş etdirilmişdir. Tədbir keçirilən məkana Qarabağ atlarının gəlişi iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Heydər Əliyev Mərkəzinin qarşısında davam edən tədbirdə əvvəlcə Ümummilli Liderin və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov rayon əhalisini və tədbir iştirakçılarını bayram münasibətilə təbrik etmiş, baharın gəlişini müjdələyən, təbiətin oyanışından soraq gətirən Novruzun xalqımızın mənəvi dünyasında özünəməxsus yeri olduğundan, Ümummilli Lider Heydər Əliyevin Novruza milli ideologiyamızın təməl sütunlarından biri kimi yanaşmasından, Novruz ənənələrini layiqincə yaşadan Prezident İlham Əliyevin dövlətimizə və xalqımıza qazandırdığı tarixi Zəfərdən bəhs etmişdir.

Şənlik Ağdam Musiqi Kollecinin "Qarabağ" instrumental ansamblının müşayiətilə Əməkdar artist Fehruz Səxavətin, Gülablı kənd Uşaq musiqi məktəbinin müəllimi Habil Məmmədov və tələbələrinin ifasında rəngarəng musiqi nömrələri, "Nənə qızlar" folklor ansamblının nümunəvi çıxışları, Kosa və Keçəlin şən zarafatları ilə davam etmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Son 5 ilin Novruzu

## Əsrlərlə yaşı olan bu bayramı indi xüsusi ovqatla qeyd edirik

**Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə qoyub getdiyi ən gözəl yadigardır. Ruhun oyanışı, yeni bir həyatın başlanğıcı olan bu el bayramı gəlişi ilə ömrümüzü bəzəyir. Hər il yüksək səviyyədə qeyd olunan Novruz xalqın müqəddəs etiqadına söykənməklə özündə mənəvi-əxlaqi, ülvi və dünyəvi duyğuları təcəssüm etdirir.**

Təbiətin oyanışı ilə ürəklərdə saf niyyətlərə, xoş arzulara yol açır, əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadır, insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təmələrə əsaslanır.

Artıq beşinci ildir ki, Novruzu insanlarımız böyük sevinc və yüksək əhvali-ruhiyyə ilə qarşılayırlar. İndi gözəl məkanımız olan Qarabağda da bayram tonqalları çatılır. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin müzəffər ordumuzun gücü ilə işğaldan azad etdiyi əzəli-əbədi torpaqlarımızda Novruz sevinci yaşanır. Yaz fəslinin yeniləşdirici ab-havası daha güclü Azərbaycan naminə hər birimizin qurub-yaratmaq əzmini artırır.

Hər zaman olduğu kimi, bu gün də xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, inkişaf etdirilərək dünyada təbliği, ulularımızdan miras qalmış misilsiz sərvət kimi gələcək nəsillərə ötürülməsi Prezident İlham Əliyevin həyata keçirdiyi dövlət siyasətinin əsas prioritetlərindəndir. Ümummilli Lider Heydər Əliyevin tarixi köklər üzərində milli inkişaf ideyalarını bu sahədə də uğurla davam etdirən dövlətimizin rəhbəri çıxışlarında, siyasi qərarlarında mənəvi dəyərlərin Azərbaycan cəmiyyətindəki mühüm rolunu daim aktuallaşdırır, onların müasir dövrün tələblərinə uyğun yaşadılmasını təmin edir. Xalqımızın mənəvi dünyasında və həyatında xüsusi yer tutan Novruz bayramı da cənab İlham Əliyevin xüsusi önəm verdiyi əsas milli-mənəvi dəyərlərimizdəndir.

### Milli özünüdərk bayramı

Ümumən, Azərbaycan dövlətinin inkişafına, xalqımızın tərəqqisinə çalışan bütün böyük şəxsiyyətlərimiz Novruz bayramına yüksək ehtiram göstərmişlər. Bu da onun mahiyyətinin, fəlsəfəsinin milli özünüdərk, milli kimlik baxışları ilə uzlaşmasından irəli gəlir.

Bu baxımdan, Azərbaycan Prezidentinin həyata keçirdiyi milli dövlətçilik siyasəti ilə Novruz bayramının təlqin etdiyi mənəvi ideallar arasında kifayət qədər paralellər var. Bu gün cənab İlham Əliyevin müəllifliyi ilə yazılan milli salnaməmizdə - tarixin ən qüdrətli Azərbaycanının dövlətçilik hekayəsində Novruz bayramı da parlaq bir səhifə, bizi əcdadlarımızla bağlayan qırılmaz bağ, əsrlərdən-əsrlərə mənəvi körpü, gələcəyə doğru yolumuzun möhkəm təməlidir.

> **"Ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur".**
>
> *İlham ƏLİYEV,*
> *Azərbaycan Respublikasının Prezidenti*

Novruz bayramı zaman-zaman yenilənmənin təcəssümüdür, hər dönəmdə qarşıya yeni hədəflər qoymağın, onlara doğru uğurlu başlanğıcların, işin, əməyin, quruculuğun, abadlığın böyük arzu və ümidlərin ifadəçisidir. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan da zaman-zaman yenilənir, tərəqqi edir, keçmişin sıxıntılarından, maneələrindən qurtulur, həyata keçirilən ardıcıl quruculuq tədbirləri ilə gündən-günə abad olur. Yeni strateji dönəmdə böyük hədəflərinə doğru mətin və məqsədyönlü addımlar atır.

Minilliklər boyu qeyd olunan bu el bayramı, təkcə təbiətin yenilənməsi və baharın gəlişi ilə deyil, həm də xalqımızın adət-ənənələri, mədəni kimliyi və sosial həmrəyliyi ilə sıx bağlıdır. Novruz hər bir kəsin ruhunu, tarixini və irsini əks etdirən ən mühüm bayramlardandır. Belə mənəvi dəyərlərimizin gücü ilə xalqın milli yaddaşı itmir. Təzyiqlər qarşısında aşınması mümkün olmur. Əksinə, daha da güclənir, möhkəmlənir, nəsillərdən-nəsillərə ötürülür. Elmi cəhətdən daim öyrənilir. Bu bayrama aid folklor nümunələri sənədləşdirilib. Novruzun bir çox simvolları mədəniyyət və incəsənətimizin qiymətli incilərinə çevrilib. Bizi bütün dünyada tanıdan atributlar sırasında qərarlaşdırıb.

Bu bayramın tarixi zamanın ən qədim qatlarına qədər gedib çıxır. Ona görə də Novruz əsrlər boyu Azərbaycan xalqının həyat tərzində mühüm yer tutmuşdur.

Ümummilli Lider Heydər Əliyev Novruza milli ideologiyamızın təməl sütunlarından biri kimi yanaşırdı. Bu bayram müəyyən dövrlərdə qadağalara, təzyiqlərə məruz qalmışdır. Əvvəlcə imperiya ideoloqları müxtəlif yollarla Novruzu milli yaddaşımızdan silib ilhaq etdikləri ərazilərdə yeni bayramları dəbə gətirməklə onu gözdən salmağa böyük cidd-cəhd göstərmişlər. Bu ənənə sovetlər dönəmində daha ağrılı şəkildə davam etdirilmişdir. O, dini bayram hesab edilərək sovet dövləti tərəfindən unutdurulmağa çalışılmışdır. Ötən əsrin 60-cı illərinin sonlarında ölkədə milli özünüdərkə böyük qayıdış başladığı zaman qadağalar da tədricən səngimişdir.

Xalqın milli-mənəvi dəyərlərini daim uca tutan Ümummilli Lider Heydər Əliyevin fikirləri indiyə qədər Novruz bayramı haqqında yazılan, deyilən kəlmələrin ümumiləşmiş ifadəsi kimi tarixə əbədi həkk olunub: "Bu bayram bir də onunla fərqlənir və səciyyələnir ki, bu bayramda siyasi baxışlarından, siyasi dünyagörüşündən asılı olmayaraq, hamı bayram edir. Əgər bu günümüzü götürsək, iqtidar da, müxalifət də bayram edir, bir-birini sevən də bayram edir, bir-birinə düşmən olan da. Amma bayramın bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kinküdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır… Bu ali məqsədləri, ali fikirləri ulu babalarımız bizə nəsihət ediblər. Bu bayram yaranandan onun xüsusiyyətləri insanları həmişə dostluğa, həmrəyliyə, qarşılıqlı anlaşmaya dəvət edibdir".

### Bizi qoruyub yaşadan dəyərlərimiz

Novruz milli kimliyimizin nişanəsidir. Dəyərlərimiz cəmiyyətdə həmrəyliyi qoruyan, insanların birliyini gücləndirən, xalqımızın tarixən malik olduğu multikulturalizm, tolerantlıq ənənələrinin ən gözəl xüsusiyyətlərini nümayiş etdirən mühüm amillərdəndir. Bu bayram zamanı ailələr, icmalar bir araya gəlir, qohumlar, dostlar bir-birini ziyarət edirlər. Novruz insanları sülhə, dostluğa, birlikdə mehriban yaşamağa çağırır. Dilindən, dinindən, sosial mənsubiyyətindən asılı olmayaraq, insanlar Novruzda bir-biri ilə ünsiyyət qurur, bayram əhvali-ruhiyyəsini paylaşırlar. Beləliklə, bu ənənələr cəmiyyətin sosial strukturunun möhkəmlənməsinə və milli birlik hissinin formalaşmasına xidmət edir. Həmçinin Novruz bayramında edilən xeyriyyəçilik və yardımlaşma kimi adətlər bu cür gözəl davranışların aktuallaşmasına, gənc nəslin təmsilçiləri üçün parlaq nümunələrin yaradılmasına kömək göstərir.

Prezident İlham Əliyevin xalqımızın belə mədəni sərvətlərinə həssas münasibəti xüsusilə qloballaşma dövründə müstəsna əhəmiyyət daşıyır. Məlumdur ki, qloballaşma iqtisadi, siyasi və texnoloji inteqrasiyanı sürətləndirərək insanlara müəyyən faydalar gətirdiyi qədər, eyni zamanda fərqli mədəniyyətlərin assimilyasiyası və homogenləşməsi təhlükəsini də artırır. Belə ki, fərqli mədəniyyətlər arasında sürətli informasiya və ideya mübadiləsinə səbəb olan qloballaşma bir tərəfdən mədəni zənginliyə gətirib çıxarsa da, digər tərəfdən yerli və milli dəyərlərin itirilməsi riskini yaradır.

Bu cür şəraitdə milli-mənəvi dəyərlər xalqların öz mədəni xüsusiyyətlərini qorumaq, qloballaşmanın mənfi təsirlərinə qarşı çıxmaq və milli kimliyini möhkəmləndirmək üçün əsas vasitəyə çevrilir. Bu iki proses arasında balansın təmin olunması, xalqın milli özünəməxsusluqlarının, malik olduğu dəyərlərin qloballaşmanın mənfi təsirlərindən nəinki qorunması, eyni zamanda qlobal mühitin yaratdığı imkanlardan faydalanaraq onların dünyaya uğurla təqdimatı, bu dəyərlərin mədəniyyət diplomatiyasının, turizm sənayesinin önəmli tərkib elementinə çevrilməsi isə Azərbaycan Prezidenti İlham Əliyev kimi yüksək strateji düşüncəli Liderlərin missiyasıdır.

Qloballaşmanın bəzi aspektlərinin fərdiliyin güclənməsinə və bununla bağlı çoxsaylı fəsadlara səbəb olduğu müasir çağlarda dövlətimizin başçısı məhz belə milli-mənəvi dəyərlərimizin cəmiyyət daxilində birlik və həmrəylik hissini möhkəmləndirdiyini, ailə bağlarının, insanlar arasında sıx sosial əlaqələrin, adət-ənənələrin mənəvi inancların cəmiyyəti bir arada saxlayan əsas faktorlar kimi çıxış etdiyini həssaslıqla nəzərə alır, dəyərlərimizə qayğıkeş münasibətilə bu amilləri gündəmə gətirir.

Azərbaycan Prezidenti Novruz bayramı kimi milli-mənəvi dəyərlərimizi qloballaşma nəticəsində bəzi cəmiyyətlərdə maddi amillərin ön plana çıxması, mənəvi amillərin zəifləməsi, böyük-kiçik arasında sərhədlərin itməsi kimi reallıqlara qarşı qoyur. Ən azı Azərbaycan nümunəsində göstərir ki, belə bir dünyada milli-mənəvi dəyərlər əxlaqi prinsiplərin, humanizmin, sosial məsuliyyətin qorunmasına nə qədər böyük kömək göstərə bilər.

### Mənəvi işıq

Novruz böyük mənəvi gücə malikdir. Azərbaycan Prezidentinin dəyərlərimizlə bağlı həyata keçirdiyi siyasət təkcə ölkə sərhədləri ilə məhdudlaşmır. Dövlətimizin başçısı bunları, o cümlədən Novruz bayramını dünyaya təqdim edir. Azərbaycan xalqı olaraq bizi bu dəyərlər işığında beynəlxalq aləmdə tanıdır. Bütün dünyanın bu dəyərlərin verdiyi istiqamətlə bəşəriyyətin gələcək xoşbəxtliyinə doğru aydın yol tapmasına çalışır.

Bu gün Azərbaycanın səsi-sözü dünyada eşidilir, dövlətimiz qlobal proseslərə təsir imkanları ilə nüfuzunu getdikcə artırır, türk dünyasının əsas inkişaf mərkəzlərindən biri kimi türkdilli dövlətləri milli-mənəvi dəyərlər ətrafında bir araya gətirir, Azərbaycanın regionda yaratdığı reallıqlarla türk dünyasının ortaq keçmişindən ortaq gələcəyinə doğru aydın bir yol başlanır.

Ölkəmizin Prezidentinin rəhbərliyi, məqsədyönlü siyasəti, qətiyyəti ilə tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın bugünkü inkişafı, abadlığı, vətəndaşlarımızın getdikcə yüksələn rifahı insanlarımızın Novruz arzularının təcəssümüdür. Azərbaycan Prezidenti xalqımızın milli-mənəvi dəyərlərinə sadiq olmaqla bütün dünyada sülhün, daha gözəl bir dünyanın, insanın xoşbəxtliyi uğrunda əməkdaşlığın təmsilçisi kimi çıxış edir. Hər il Novruz bayramı ərəfəsində imzaladığı sərəncamlarla yüzlərlə ailəyə sevinc bəxş edir.

Dövlət rəhbərimiz regionda həqiqətən dayanıqlı sülh və təhlükəsizlik arzulayan bütün maraqlı tərəflərə əməkdaşlıq təklif edir. Bölgənin iqtisadi imkanlarını, kommunikasiya infrastrukturunu bu imkanlardan faydalanmaq niyyətində olan hər kəsin üzünə açır. Bu, ulularımızdan gələn yanaşmadır. Milli-mənəvi dəyərlərimizin təlqin etdiyi prinsiplərdir. Bunlar o dəyərlər, prinsiplərdir ki, əsrlərlə özünü doğruldub. Dünyanın ən müxtəlif məkanlarında dəfələrlə sübuta yetirib ki, sülhün, mehriban münasibətlərin, qarşılıqlı əməkdaşlığın, müştərək faydalar yaratmağın alternativi, müharibəninsə axırı yoxdur. Kin-küdurət, əbədi nifrət duyğusu fərdi də, bütövlükdə toplumu da kiçildir, cılızlaşdırır, insanlıq normalarından uzaqlaşdırır.

İnsanın xoşbəxtliyi, rifahı barışdadır, qarşılıqlı hörmətdədir, keçmişin qaranlıq səhifələrini qapadıb gələcəyə yönəlməkdədir. Yeni sabahları yeni niyyətlərlə, işıqlı amallarla qarşılamaqdadır. Bu gün Azərbaycan sülh proseslərinə sadiqliklə, Ermənistanla sülhün əldə olunması üçün üzərinə düşən işləri ən yüksək səviyyədə yerinə yetirir və bütün dünyaya öz dəyərlərinə, prinsiplərinə nə qədər bağlı olduğunu göstərir.

Novruz bayramı Azərbaycan cəmiyyətində faydalı adət-ənənələri yaşadır. Bu ənənələrin qorunmasında, yeni çağırışlara uyğun inkişaf etdirilməsində, beynəlxalq aləmdə təbliğində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var.

Mehriban xanımın təşəbbüsü və ardıcıl səyləri nəticəsində 2009-cu ildə Novruz bayramı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib. Bu, Azərbaycan mədəniyyətinin dünyada tanınması və qorunması üçün atılan ən mühüm addımlardandır. 2010-cu ildə isə BMT Baş Assambleyası martın 21-ni Beynəlxalq Novruz Günü elan edib. Mehriban xanım Əliyeva bu prosesdə də xüsusi rol oynayaraq Novruzun beynəlxalq səviyyədə qeyd edilməsinə töhfə verib.

Bu qərarlar bayramın yalnız bir neçə xalqın deyil, bəşəriyyətin ortaq mədəni dəyəri olduğunu təsdiqləyib, onun geniş şəkildə qeyd edilməsinə şərait yaradıb, dünya mədəni irsinin bir hissəsi kimi qorunmasına, tanıdılmasına və inkişaf etdirilməsinə mühüm töhfə olub.

Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Heydər Əliyev Fondu hər il bu bayrama həsr olunmuş mədəni tədbirlər, sərgilər, konsertlər təşkil edir. Həmin tədbirlər vasitəsilə milli musiqi, folklor və xalq sənətkarlığı ənənələri yaşadılaraq geniş kütlələrə çatdırılır. Novruz atributları, onların mahiyyəti, o cümlədən xalq oyunları və digər mədəni ənənələr geniş şəkildə təbliğ edilir.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu hər il uşaq evləri, internat məktəbləri və aztəminatlı ailələr üçün şənliklər təşkil edir. Uşaqlara hədiyyələr paylanır, bayram süfrələri qurulur. Novruz bayramı günlərində şəhid ailələrinə, müharibə veteranlarına xüsusi diqqət ayrılır. Heydər Əliyev Fondu bayram münasibətilə müxtəlif yardım kampaniyaları həyata keçirir, ehtiyacı olan insanların ərzaq və digər vacib ehtiyaclarını təmin edir.

Daha bir xoş məqamsa bundan ibarətdir ki, Novruzla bağlı ziyarətlərdə, xeyriyyə tədbirlərində Azərbaycan Prezidentinin övladları da fəal iştirak edir, onların bayram mərasimlərində iştirakı minlərlə insana unudulmaz sevinc, xoş təəssüratlar bəxş edir.

### Azad yurdlarımızda alovlanan bayram tonqalları

Hər bir dəyəri yaşadan insanlardır. Novruz bayramı kimi dəyərlərin var olması, bütün çağlarda öz əsas məzmununu qoruması və bu məzmunda milli-ictimai yaddaşın mühafizəsi üçün də hər zaman onları yaşadan, bununla başqalarına da nümunə göstərən insanlara ehtiyac var. Bu baxımdan, cəmiyyətimiz üçün Novruz bayramına münasibətdə ən parlaq nümunəni elə məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yaradır.

Dövlətimizin başçısının rəhbərliyi ilə Novruz bayramı hər il yüksək səviyyədə və böyük təntənə ilə qeyd olunur. Cənab İlham Əliyev ailə üzvləri ilə birlikdə Novruz şənliklərində iştirak edir, bayram münasibətilə xalqa təbriklərini yetirir. Hər çıxışında Novruzun milli-mənəvi dəyərlər sistemimizdəki yerini, rolunu vurğulayaraq, onun Azərbaycan xalqının tarixi kökləri ilə sıx bağlılıqlarına diqqət yönəldir. Prezident İlham Əliyevin alovlandırdığı Novruz tonqalları bütün Azərbaycan ailələri, tarixi Vətəndə nəfəs alan hər bir dünya azərbaycanlısı üçün böyük bir qürur doğurur. 2021-ci ildə Şuşada, 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talış kəndində, 2024-cü ildə isə Xankəndi şəhərində bayram tonqalları çatıldı. Azərbaycan Prezidenti növbəti bayram tonqalını Ağdərə rayonunun Həsənriz kəndində sakinlərlə birlikdə alovlandırdı. Yurdumuzun qalibiyyət zirvəsində şölələnən bu tonqalların işığı bütün dünyaya gedib çatdı.

Azərbaycan Prezidentinin alovlandırdığı o bayram tonqalından tariximizə şəfəq düşdü, nigaran ruhlar rahatlıq tapdı. Dövlət rəhbərimizin özünün də qeyd etdiyi kimi bu, böyük bir xoşbəxtlikdir və Azərbaycanın bu günlərinə şahid olmağın özü də hər birimiz üçün misilsiz bir səadətdir. Bu baxımdan, Novruz artıq sadəcə bir el bayramı deyil, həm də milli qürurun, qələbənin və suverenliyin rəmzidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

BakıAbadlıq

“BAKI ABADLIQ XİDMƏTİ” MMC

Azərbaycan xalqını
Novruz Bayramı münasibətilə təbrik edir,
əmin-amanlıq, birlik, firavan həyat,
ruzi-bərəkət və xoş gələcək arzulayır!



# Novruz ənənələrində hər bölgənin izi var

**Tarixin özü qədər qədim Novruz bayramı ölkəmizin bölgələrində fərqli şəkildə qeyd olunur. Bakı-Abşeron bölgəsində bayram şirniyyatı çeşidlidir. Bura paxlava, şəkərbura, qoğal, şərbətlər, səməni halvası və s. aiddir.**

Bir çox regionlarda olduğu kimi, Bakı-Abşeron bölgəsində də bayrama bir neçə gün qalmış evin yorğan-döşəyini, pal-paltarını bayıra töküb təmizləmək işləri aparılır. Xalqda belə bir inam var ki, Novruzda il təzələndiyi kimi, hər şey təzələnməli, təmiz olmalıdır. Elə buna görə də bayram ərəfəsində hər bir uşağa təzə paltar alınır, uşaqlara bir köynəklə, corabla da olsa, sevinc bəxş edilir.

Naxçıvan bölgəsində bir neçə qədim adət indiyədək qorunmaqdadır. Bunlardan biri "Xan bəzəmə"dir. Novruzda Ordubad rayonunda bayram ərəfəsində bir nəfər "xan" seçilir və o, üç gün əsl xan kimi geyindirilir, başına tac qoyulur. Meydanda hündür bir taxt düzəldib "xan"ı ora dəvət edirlər. İki uşaq "xan"ı yelpiklə yelləyir. Kim istəyirsə, könüllü ona qulluqçu da ola bilər. Qız-gəlinlər, qonaqlar meydanın dövrəsinə düzülüb "xan"a tamaşa edirlər, onun ətrafına bəzənmiş xonçalar, səmənilər düzürlər. "Xan"ın əmrinə hamı tabe olur. Arada təlxəklər gəlib "xan"ı güldürməyə çalışırlar. "Xan" isə gərək ciddiliyini qorusun, gülməsin. Əgər gülsə, onu hovuzdakı suya basırlar, sonra təzə "xan" seçirlər. Meydana bir qab qoyurlar. Hamı ora xələt atır. Əgər "xan" üç gün vəzifəsinin öhdəsindən yaxşı gəlsə, bu xələtlər ona çatır.

Novruz axşamının səhəri günü ağsaqqalları, ağbirçəkləri ziyarət etmək adəti uzun illərdir yaşamaqdadır. Bayram günü səhər tezdən qız-gəlinlər axar su üstünə, bulaq başına gedər, evə su gətirərlər, həmin suyu həyət-bacaya səpərlər. Sonra cavanlar bir alma ilə də olsa qonşuları, ağbirçəkləri yad edər, onların bayramını təbrik edərlər.

Gəncəbasar bölgəsində Gəncə paxlavası, adətən, Novruz bayramı ərəfəsində, nişan və toy məclislərində hazırlanır. Gəncə paxlavası digər bölgələrdə bişirilən paxlavalardan öz ölçüsünə və ona əlavə edilən ədviyyatına görə fərqlənir. O, adətən, mis məcməyidə, köz üzərində bişirilir və bir qədər böyük ölçüdə romb şəklində kəsilir.

Novruz bayramında gəncəlilər mütləq evdən hansısa əşyanı bayıra atırlar.

Qazaxda isə sübh-tezdən qapı-qapı dolaşan kənd sakinləri gün boyu il ərzində rəhmətə gedən adamların ailəsinə başsağlığı verir, bununla ölü sahibinin dərdinə şərik olduqlarını göstərir, onu yasdan çıxarırlar. Ölü sahibləri isə ayaqüstü qapısına baş çəkib, dərdini bölüşən insanlara şirinlik paylayırlar.

Qazax rayonunun Yuxarı Salahlı kəndi isə bayramın qeyd edilməsi baxımından daha unikal bölgədir. Hələ sovet rejiminin Novruza qadağalar qoyduğu dövrlərdə belə, öz adət-ənənələrinə sadiq qalan kənd sakinləri müstəqillik dövründən bayramı daha canlı, daha maraqlı keçirirlər. Martın 21-i Yuxarı Salahlıda hər kəsin qapı-bacası açıq olur. Kənd əhli günortadan Xalq şairi Səməd Vurğunun doğum gününü qeyd edir, şairin muzeyinə yığılan insanları şeirlə, sazla qarşılayıb yola salır. Hava qaraladan sonra isə axşam keçiriləcək bayram şənliyinə tədarük görür, ocaq çatır. Zurna, nağara çağırır, məclis qurur. Maraqlı bayramı izləmək, onun iştirakçısı olmaq üçün qonşu rayonlardan, hətta paytaxtdan da bura gələnlər olur. Kəndlilər bu özfəaliyyəti "Salahlı karnavalı" adlandırırlar.

Gənc oğlanlar müxtəlif qadın paltarları geyinib, evlərə getməklə həm ev sahiblərini əyləndirir, həm də öz sevdikləri qızları yaxından görə bilirlər. Kəndin hər tərəfində alovlanan bayram tonqalları isə ətrafa xüsusi gözəllik verir. Səhər saatlarına qədər davam edən "Salahlı karnavalı" görənləri təəccübləndirir.

30 illik erməni işğalından azad edilmiş Qarabağ bölgəsində yandırılan bayram tonqallarının şöləsi bu günlər nankor və qəsbkar ermənilərin gözünü elə qamaşdırır ki, onlar bir daha bu yerləri görə bilməyəcəkləri ilə razılaşmalı olurlar.. Qarabağlılar qədimdən Novruz bayramına bir ay qalmış elliklə çillə çıxarmaq üçün şənliyə toplaşardılar. Tədbir Şuşada daha təmtəraqlı keçirilərdi. Burada köhnə ilin qəmini, qüssəsini yeni ilə daşımamaq üçün əhali adəti üzrə çalıb-oxumağa, rəqs etməyə üstünlük verərdi.

Şəki-Zaqatala bölgəsində də Novruz özünəməxsus keçirilir. Hələ bayrama bir ay qalmış bayrama hazırlıq başlanır. Həyətlər təmizlənir, evlərin divarları rənglənir, ağaclar ağardılır, pal-paltar, xalça-palaz günə verilir. Çərşənbələrdə tonqal qalanır, papaq atılır, qapı pusulur. Bölgə sakinlərinin çərşənbələrlə bağlı inancları var. Bir inanca görə, yazda birinci sel gələndə kim onun suyundan içərsə, bütün xəstəlikləri sağalar.

Bayram axşamında adamlar bir-birinə pay göndərir, əzizini itirənlər isə yasdan çıxır. Kəndlərdə camaat bir yerə yığışır, bayramı birgə keçirirlər. Qız-gəlinlər qulaq falına, uşaqlar papaqatdıya çıxırlar. Şəhərdə və kəndlərdə günəşi, yazı çağırmaq üçün Qoduya çıxmaq adəti geniş yayılmışdır.



Bayramdan bir-iki gün əvvəl Şəkidə camaat səhər tezdən doğmalarının qəbirlərini ziyarətə gedirlər. İnanca görə, ruhlar səhər tezdən gün doğana qədər qəbirlərin ətrafında dolanır. Bayram axşamı isə ölülərin adlarına qazan asılır.

Şirvan və Aran bölgəsində də Novruz bayramında qapılar açıq qoyulur. Ev sahibləri həm yaz havasının qutlanması, həm də qapıya gələcək insanlara şirniyyat, qoz-fındıq, badam və s. paylanması üçün sanki yol gözləyirlər. Hər çərşənbənin bir şeyə aid olması o çərşənbəyə düşən cismin dirilməsi, canlanması, istiləşməsi deməkdir.

Quba-Xaçmaz bölgəsində Novruz bayramından iki gün əvvəl bulaqdan, yaxud çaydan - axar sudan "lal su" gətirilir. Su gətirməyə gedən şəxs qabı əlinə götürəndən suyu gətirib evdə iynə salınacaq qaba tökənəcən dinməməlidir. Həmin su şər qarışandan sonra gətirilir və onu gətirən şəxs bir neçə nəfər tərəfindən müşayiət olunur. Suyu qaba tökəndən sonra iki iynənin gözünə pambıq dolayır və hərəsini bir tərəfdən suya salırlar. Sonra iynələrin hərəkəti ilə müəyyən mülahizələr söyləyirlər. Uğurlu halda iynələr müxtəlif səmtlərə hərəkət etsələr də, axırda bir-birinə yaxınlaşıb bitişirlər. Əksinə olanda isə iynələr o tərəf-bu tərəfə gedir və bir-birinə qovuşmur. İynə suyun dibinə çökərsə, deməli, su "lal su" deyil.

Cənub bölgəsində Novruz mərasimi əlahiddə bir gün olaraq deyil, bir-birinin davamı olan bayramlar halında qeyd edilir. Novruza, yeniliyə, oyanışa hazırlıq, nə qədər qəribə olsa da, hələ yayın sonundan, payızın əvvəllərindən başlanır. İnsanlar qışın ilk günü sayılan çillə gecəsinə tədarük görür, həmin günə çillə qarpızı və ağ boranı (balqabaq da deyilir) ehtiyatını görürlər. Həm çillə qarpızı və ağ boranı, əslində, qışı və baharı simvolizə edir.

Lənkəranda adətdir ki, çərşənbə axşamı mütləq balıq, Novruz gecəsində isə toyuq yeyilsin. Nişanlı qızlar üçün bu nemətlər qabaqcadan qız evinə göndərilər. Burada İlaxır çərşənbə günündən xeyli əvvəldən başlayaraq ev-ev, həyətbəhəyət gəzib bayram nəğmələri oxuyan "novşud"çuları görmək mümkündür. Həmçinin yeniyetmə uşaqlar, bəzən də cavanlar kosa-keçəl libasında, əllərində təbil-nağara həyətə daxil olaraq mahnı oxuyurlar.

Kəlbəcər-Laçın tərəflərdə əsgilərdən lopa düzəldib məftillə sarıyır, məftilin bir ucunu da qulp kimi uzadırlar. Həmin qulpu əyib əllərində fırladırlar. Bayramdan bir həftə əvvəl hazırlanan bu lopalar neftin içinə salınır. Bayram gecəsi ona od vurub əllərində fırladır, sonra isə göyə tullayırlar.

Qızlar hərəsinə bir yumurta götürür, axır çərşənbə günü çayın qırağına düzür, yanlarına qırmızı qələm və kömür qoyurlar. Sabah gəlib yoxlayırlar - hansına qara ləkə düşübsə, onun gələcəyi yaxşı olmur, qırmızı düşərsə, bu, xoşbəxtlik sayılır.

Xalqımızın kompakt yaşadığı Gürcüstanın Borçalı bölgəsində bayrama kəndin cavan-cantaraq, qolu güclü oğlanları hazırlıq görürlər. Kəndin mərkəzi yerində tamaşa tribunası qurulur, müxtəlif personajların paltarlarında kəndin əhalisini şənləndirən oğlanlar onları Novruzun gəlişi münasibətilə təbrik edirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Hayastana etibar yoxdur

## İrəvan həm sülhdən danışır, həm də təcavüzkar siyasətini davam etdirir

**"Ermənistan tarixən başqa dövlətlər tərəfindən idarə edilən, özgələrin diktəsi ilə hərəkət edən, öz siyasi dəst-xəti, dövlətçilik tarixi olmayan ölkədir. Təcavüzkar dövlətin rəhbərlərinin sözü ilə əməlləri heç vaxt üst-üstə düşməyib. İstər Azərbaycan torpaqları işğal altında olduğu dövrdə, istərsə də indi Ermənistanda hakimiyyətdə olanlar həmişə sülhdən, dostluqdan, demokratik hüquq normalarına sadiqlikdən danışsalar da, onlar çirkin əməllərini, təcavüzkar siyasətlərini davam etdiriblər".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, onlar bu hərəkətlərini hazırda da davam etdirirlər. Ermənistanın baş naziri Nikol Paşinyan bütün çıxışlarında, beynəlxalq görüşlərdə Ermənistanın sülhə sadiqliyindən, qonşuluq əlaqələrindən danışır, ancaq arxada himayədarlarının köməyi ilə öldürücü silahlar alır, revanş götürmək üçün planlar hazırlayır. Əlbəttə ki, sülh əleyhinə olan bu hərəkətlər, xüsusilə, son günlərdə mövqelərimizin atəşə tutulması, eləcə də bəzi erməni siyasətçilərin fikirləri, Ermənistanı dəstəkləyən ölkələrin hərəkətləri təcavüzkar dövlətin sülhə sadiq olmadığını göstərir. "Paşinyan sülh müqaviləsinin imzalanmasına hazır olduğunu, irəli sürülən şərtləri qəbul etdiyini dediyi halda, əslində, sülhün əleyhinə gedir və gözləmə mövqeyi tutur, vaxt qazanmaq istəyir. Xarici ölkələrdən silahlar alır, Avropa İttifaqı "müşahidə missiyası" üzvlərinin sayını artırır. Bunun səbəbləri isə aydındır. Ermənistan başqalarının dediyi ilə oturub-durur və onların tapşırıqlarını yerinə yetirir. Bir tərəfdən, Qərbin yürütdüyü siyasət, qurduğu planlar, Avropa İttifaqının diktəsi, Fransanın Ermənistanı əlində oyuncaq kimi istifadəsi, digər tərəfdən, Rusiyaya meyillənmək Ermənistanı çıxılmaz vəziyyətə salıb və belə vaxtda onun qəti fikrə gəlib sülh müqaviləsinə imza atması çox çətindir", - deyə T.Rzayev əlavə edib.

Komitə sədri Prezidentin çıxışlarını xatırladaraq deyib ki, İlham Əliyev dəfələrlə Azərbaycanın sülhə sadiq olduğunu, ancaq irəli sürdüyü şərtlərin mütləq Ermənistan tərəfindən qəbul edilməli olduğunu bildirib. Yalnız bundan sonra sülh müqaviləsi imzalana bilər. Bu şərtlər hər birimizə yaxşı məlumdur. İlk növbədə, Ermənistan rəhbərliyi özündə cəsarət tapıb konstitusiyasında dəyişiklik etməli, Azərbaycana qarşı ərazi iddialarını Əsas Qanununda aradan qaldırmalı və ATƏT-in Minsk qrupunun ləğvinə razılıq verməlidir. Zəngəzur dəhlizi açılmalıdır. Bütün bunlar, sözsüz ki, münasibətlərin normallaşmasına, sülhün bağlanmasına imkan yarada bilər. Ölkəmizin rəhbəri onu da bildirmişdir ki, hələ bundan sonra Cənubi Qafqazda sülhün nizamlanması prosesində müəyyən çətinliklər mövcud olacaq. Çünki Ermənistan tərəfindən sabitliyə, təhlükəsizliyə təminat yoxdur. Onun havadarları regionda sabitliyin yaradılmasının əleyhinədirlər. Burada öz maraqlarını qorumaq, möhkəmləndirmək üçün bütün vasitələrdən istifadə edirlər. Bu vasitə isə Ermənistan və siyasi hakimiyyətidir. Ona görə də erməni dövlətinə, rəhbərliyinə etibar etmək mümkün deyil.

Deputat bildirib ki, atəşkəsin pozulması, eləcə də Aİ müşahidəçilərinin şərti sərhəddə Azərbaycan mövqelərini izləməsi, müəyyən təxribatlar törətmək üçün yollar axtarmaları göstərir ki, Qərbin təhriki ilə Ermənistan, əslində, sülhü deyil, müharibəni üstün tutur: "Ancaq dəfələrlə bildirilib ki, bu, Ermənistan üçün ağır nəticələnə bilər. O nə qədər silahlansa da, havadarlarına arxayın olsa da, yenə Azərbaycandan qat-qat zəifdir. Azərbaycan Ordusu güclüdür, iqtisadiyyatı möhkəmdir, xalq birdir. Ermənistanda isə bunun tamamilə əksi müşahidə olunur. Bu ölkə iqtisadi cəhətdən çöküb, birlik yoxdur, orduda çaxnaşmalar var və belə bir halda İrəvanın müharibə etmək cəhdi onun tamamilə məhv olması, dövlət kimi silinməsi deməkdir. Zaman Ermənistanı çıxılmaz vəziyyətə salıb, bu da sözsüz ki, rəhbərliyinin səriştəsizliyindən, ikiüzlülüyündən, reallıqları qəbul etməməsindən, eləcə də başqa dövlətlərin kölgəsinə sığınmaqdan irəli gəlir".

T.Rzayev vurğulayıb ki, Ermənistan hakimiyyəti, dövləti idarə edənlər özlərində qətiyyət tapıb, dövrün reallıqlarını nəzərə alıb mütləq Azərbaycanla sülh sazişini imzalamalıdırlar. Son zamanlar bir çox siyasətçilər haqlı olaraq bildirirlər ki, Azərbaycanla sülh müqaviləsinin bağlanmaması Ermənistanın məhvi deməkdir. Onlar müəyyən məsələlərə aydın başla, sağlam düşüncə ilə yanaşırlar. Paşinyan dönə-dönə fikirləşməli və öz mənfur niyyətindən əl çəkməli, havadarlarına arxalanmamalı, dövlətinin yaşaması üçün Azərbaycanla münasibətlərin yaxşılaşmasına cəhd göstərməli və sülhə imza atmalıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*




# Ermənistan sülhlə yox, odla oynayır

Vətən müharibəsində Azərbaycanın qazandığı zəfər, Qarabağ və Şərqi Zəngəzur ərazilərinin Ermənistanın işğalından azad edilməsi hər bir azərbaycanlının ən böyük arzusu idi. Ona görə də Azərbaycan Ordusunun işğalçı ölkənin silahlı qüvvələrini məğlubiyyətə uğradaraq qalib gəlməsi xəbəri sonsuz sevincə, əbədi qürura çevrildi.



Ancaq uzun illər səbirlə, nisgillə gözlədiyi, həsrətini çəkdiyi həmin torpaqlara ayaq basan hər bir azərbaycanlı heyrətləndi, kədərə boğuldu... Əlbəttə, hər kəs bilirdi ki, işğalçılar Qarabağı, Şərqi Zəngəzuru viran qoyublar. Lakin erməni vandallarının işğal etdikləri Azərbaycan ərazilərində törətdikləri vəhşiliklərin bu dərəcədə olmasını kimsə təsəvvür edə bilməzdi. Qəsbkarlar Qarabağın və Şərqi Zəngəzurun abad yurdlarını tamamilə xarabalığa çevirmişdilər. Müasir və qədim tikililəri uçurub dağıtmış, yerlə bir etmişdilər. Təbii sərvətlərimizi talamış, daşıyıb aparmışdılar. Təbiətə də qıymışdılar. Meşələrimizi qırmış, çaylarımızı zəhərləmişdilər. İşğaldan azad edilmiş ərazilərimizdə qarşılaşdığımız mənzərələr yalnız bizi təəccübləndirib qüssələndirmədi. Qarabağa və Şərqi Zəngəzura səfər edən xarici qonaqlar, səyyahlar da gördüklərindən sarsıldılar. İşğalçılar əmin idilər ki, bu ərazilərin əsl sahibləri bir gün mütləq qayıdıb Qarabağı və Zərqi Zəngəzuru azadlığına qovuşduracaqlar. Odur ki, Ermənistan həmin yerlərdə tikinti-quruculuq işləri ilə yox, səngərlər, hərbi istehkamlar qurmaqla məşğul olurdu.

O zaman da Azərbaycanın məramı sülh idi. Ölkəmiz münaqişəni sülh yolu ilə həll etmək istəyir, uzun illər buna səy göstərirdi. Ermənistan hökuməti isə təxribatlarından, terror əməllərindən əl çəkmirdi. Vətən müharibəsi də bu səbəbdən başladı. Və Azərbaycan Ordusu Ermənistanın 30 ilə yaxın qurduğu hərbi istehkamları 44 günə darmadağın etdi. Ermənistanın məğlubedilməz ordu mifi sabun köpüyü kimi yoxa çıxdı. Ermənistan da, onun himayədarları da Azərbaycan Ordusunun peşəkarlığını, hərbi gücünü, rəşadətini, cəsurluğunu gördü.

Ermənistanın 1990-cı illərdə Qarabağda və Şərqi Zəngəzurda törətdiyi qətliamları, soyqırımlarını unutmaq mümkün deyil. Minlərlə soydaşımız işğalçı ermənilər tərəfindən işgəncələrə məruz qalmışlar. Kimisi şəhid, kimisi də əlil olmuşdu. Prezident İlham Əliyevin XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında söylədiyi kimi, biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Bununla belə dövlətimizin başçısı onu da vurğuladı ki, eyni zamanda biz gələcəyə nəzər salmalıyıq.

Bəli, bu gün Cənubi Qafqazın lider dövləti olan Azərbaycan regionda sülhün, sabitliyin bərqərar olmasına çalışır. Sözügedən tədbirdə Prezident İlham Əliyev bir daha diqqətə çatdırdı: "Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən, razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıb".

Azərbaycanın mövqeyi hər zaman olduğu kimi, yenə də aydın və qətiyyətlidir. Ermənistan rəhbərliyi isə yenə də ikibaşlı oyun oynayır. Sözdə özünü sülh tərəfdarı kimi göstərsə də, əməlləri bunun əksini göstərir. Sülhdən dəm vuran Ermənistan Hindistandan, Fransadan, başqa ölkələrdən silah-sursat alır. Ancaq nə etsə də, Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən darmadağın edilmiş, hərbçilərinin çoxu döyüş meydanlarından qaçmış ordusunu yenidən ayağa qaldıracağı olduqca gülünc görünür. Rəsmi İrəvan bu həqiqətlə barışmalıdır ki, bütün sahələrdə olduğu kimi, hərb sahəsində də Azərbaycanla ayaqlaşması mümkün deyil. Bir həqiqət də var və onu Azərbaycan Ordusu Vətən müharibəsində, antiterror əməliyyatlarında dünyaya nümayiş etdirdi. Azərbaycanın əsgər və zabitləri Vətəni işğalçılardan yalnız sahib olduqları müasir silahlarla, hərbi texnika ilə deyil, cəsur ürəkləri, yurda tükənməz sevgiləri ilə azad etmişlər. Ermənistan rəhbərliyi bundan da dərs çıxarmalıdır ki, xalqının həyatını növbəti dəfə fəlakətə çevirməsin.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın qlobal sülhün gücləndirilməsi sahəsindəki diplomatiyası yüksək qiymətləndirilib

**Azərbaycanın qlobal sülhün gücləndirilməsi sahəsindəki diplomatiyası yüksək qiymətləndirilib.**

AZƏRTAC COP29 sədrliyinə istinadən xəbər verir ki, bu barədə İqlim və münaqişələrdən əziyyət çəkən ölkələr şəbəkəsinin birgə bəyanatında qeyd olunub.

COP29 sədrliyinin yaydığı məlumatda səbəkənin bu mühüm mövqe sənədini qəbul etməsi ötən il COP29-da təsis olunan platformanın inkişafı istiqamətində vacib addım kimi qiymətləndirilir.

Qeyd edilir ki, COP29 sədrliyinin təşkilatçılığı və Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin (XİN) evsahibliyi ilə təşkil olunan, şəbəkənin bu il davam edəcək strateji iclası iqlim dəyişmələrinə və münaqişələrə həssas ölkələrin hökumət üzvlərini, beynəlxalq təşkilatları, maliyyə institutlarını bir araya gətirib. İclasda həssas ölkələr üçün iqlim maliyyəsinin təmin edilməsi və milli potensialların gücləndirilməsi istiqamətində konkret addımlar müzakirə edilib.

COP29 sədrliyinin dəstəyi ilə davam etmiş əlaqələndirmə işi nəticəsində qəbul olunan Birgə Bəyanat və birgə fəaliyyət üzrə yol xəritəsi qrupa daxil olan ölkələrin vahid mövqeyini formalaşdırmaqla yanaşı, konkret layihələrin icrasını da nəzərdə tutur.

Birgə Bəyanatda COP29 zamanı irəli sürdüyü "Sülh, yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışı"na görə Azərbaycan hökumətinə xüsusi təşəkkür ifadə edilib, bu çağırış çərçivəsində yaradılmış Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin humanitar yardım, inkişaf, sülh quruculuğu və iqlim sahəsində çalışan tərəfdaşlar arasında əməkdaşlıq üçün unikal mexanizm olduğu vurğulanıb.

COP29-un məlumatında qeyd olunur ki, Azərbaycan sədrliyi Bakı mərkəzi ətrafında yaradılmış birgə tərəfdaşlıq platforması vasitəsilə şəbəkəni dəstəkləməyə, iqlimə, münaqişəyə, humanitar ehtiyaclara həssas ölkələrin milli potensiallarını gücləndirməyə və "Yaşıl Dünya üçün Həmrəylik" prinsipinə əsaslanaraq birgə fəaliyyətin təşviqinə bundan sonra da davam edəcək.

Xatırladaq ki, COP29-da qəbul edilmiş Bakı Sülh Çağırışına əsasən, COP29 sədrliyinin himayəsi ilə mərkəzin Bakı şəhərində yerləşməsi qərara alınıb.

# Ermənistan sülh prosesinə təxribatla cavab verir

**Son günlərdə Azərbaycan Ordusunun mövqelərinin Ermənistan ərazisindən atəşə tutulması davamlı hal alıb. Müdafiə Nazirliyinin məlumatlarına əsasən, martın 16-dan Ermənistanın Basarkeçər, Gorus, Qarakilsə, Keşişkənd rayonları istiqamətindən ordumuzun mövqeləri 9 dəfə atəşə tutulub.**

Ermənistan Azərbaycan ərazilərini davamlı atəşə tutmağa başlayıb. Bu isə Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığı vaxtda baş verir. Xarici işlər naziri Ceyhun Bayramov martın 13-də jurnalistlərə müsahibəsində sülh sazişi layihəsi ilə bağlı danışıqlar prosesinin yekunlaşdığını bildirmişdi. "Biz bir neçə dəfə açıqlama vermişdik ki, son iki açıq maddə qalıb. Bu yaxınlarda Ermənistan tərəfi həmin açıq maddələr üzrə Azərbaycan tərəfinin təkliflərini qəbul edib, əlaqə kanalları vasitəsilə bizə çatdırıb. Ona görə mətn üzrə işlərin yekunlaşdırıldığını qeyd edə bilərik", - deyə nazir demişdi.

Ermənistanın kütləvi informasiya vasitələri də bu ölkənin Xarici İşlər Nazirliyinə istinad edərək sülh sazişi mətninin son iki bəndinin razılaşdırıldığı ilə bağlı məlumatlar yayıblar. Bir sıra dövlətlərdən gələn açıqlamalarda sülh sazişi ətrafında əldə olunan razılaşma alqışlanıb.

Amma Ermənistanın ərazilərimizi atəşə tutmaqla təxribatlara yol verməsi sülh prosesinə kölgə salır. Ərazilərimizin atəşə tutulması həm də Ermənistanın ənənəvi davranışlarını xatırladır. Söhbət ondan gedir ki, hələ Vətən müharibəsindən əvvəl danışıqlar prosesinin hansısa mərhələsində Ermənistan dəfələrlə təxribatlar törədərək sülh danışıqlarını məqsədyönlü şəkildə tormozlamış, bununla da status-kvonun uzadılmasına çalışmışdı. Hansısa irəliləyiş məqamında və hansısa razılaşma üçün şərait yarananda İrəvan cəbhə xəttində təxribat törədirdi. Hətta işğalı davam etdirmək üçün danışıqlar zamanı Ermənistan prezidentinin tualet bəhanəsi ilə aradan çıxdığı vaxtlar da olub.

44 günlük müharibədən sonra da sülh prosesinin uzanmasının səbəbkarı məhz Ermənistandır. Görünən odur ki, Ermənistan köhnə şakərindən əl çəkə bilmir və ya Paşinyan hökuməti də sələflərinin yürütdüyü siyasəti davam etdirir. Amma Ermənistan hakimiyyəti yenə də erməni xislətindən çıxış edərək ordumuzun mövqelərinin atəşə tutulduğunu inkar edir. Belə ki, bütün bunlardan sonra Ermənistan baş nazirinin ofisi Azərbaycana qarşı tamamilə əsassız iddialar irəli sürməklə yanaşı, yerdəki reallıqları və sərhədyanı bölgələrdə atışma faktlarını təhrif edib.

Azərbaycan Xarici İşlər Nazirliyindən bununla bağlı verilən şərhdə bildirilib ki, Azərbaycan Müdafiə Nazirliyinin bəyan etdiyi atəş açılması hallarına, eləcə də Ermənistan tərəfinin də xəbərdar olduğu videoçəkilişlərdə görünən Ermənistan hərbi qulluqçularının açıq təxribatlarına son qoyulması sabitlik üçün zəruri şərtdir. Eyni zamanda Ermənistanın hələ bundan əvvəl də bütün vasitələrlə sülh prosesini pozduğu faktını xatırladıb: "İki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılması ilə bağlı Ermənistanın guya xoşməramlı olmasına gəlincə, məhz Azərbaycanın sülh sazişi üzərində işləmək təklifi ilə ilk addımları hələ 2022-ci ilin əvvəlində atmasına baxmayaraq, Ermənistanın bütün vasitələrlə prosesi necə pozduğu faktını xatırlatmaq yerinə düşər".

Sülhə gedən yol həm də Ermənistanın konstitusiyasına dəyişiklik edilməsindən keçir. Sülh sazişinin imzalanması üçün bu ölkə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaları konstitusiyasından çıxarmalıdır. Bu, Azərbaycanın prinsipial mövqeyidir. Eyni zamanda Ermənistan fəaliyyətini faktiki dayandırmış ATƏT-in Minsk qrupunun və aidiyyəti strukturların da rəsmi şəkildə ləğv olunması üçün müraciət etməlidir.

Ermənistan əgər sülhün və münasibətlərin normallaşdırılmasının tərəfdarıdırsa, təxribatlara son qoymalı, Azərbaycanın prinsipial və beynəlxalq hüquq qaydalarına əsaslanan şərtlərinə əməl etməlidir. Yalnız belə olduğu təqdirdə dayanıqlı sülhün əldə edilməsi mümkündür. Əgər bunlar olmazsa, sülh də olmayacaq, itirən isə yenə də Ermənistan olacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Zəfər coşqulu Novruz

## Xilaskar lider İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurda alovlandırdığı bütöv Azərbaycanın bayram tonqalları həm də şanlı qələbəmizi simvolizə edir

**Düz beş ildir ki, xalqımızın arzu və ümidlərindən qanadlanaraq Qarabağ və Şərqi Zəngəzurda şölə saçan bütöv Azərbaycanın bayram tonqallarını Müzəffər Ali Baş Komandan İlham Əliyev alovlandırır. Şuşada, Suqovuşanda, Talış kəndində, Xankəndi şəhərində, Həsənriz kəndində Qarabağın xilaskarı İlham Əliyevin öz əlləri ilə Novruz tonqalı alovlandırması həm də yeni başlanğıcların qoyuluşunu, bu yerlərə həyatın qayıdışını, insanların tarixi torpaqlarında əbədi xoşbəxt yaşayacaqlarını simvolizə edir.**

Düz beş ildir ki, el bayramımız yurdumuzun dörd bir tərəfində ikiqat coşqu ilə qeyd edilir. Dədə-baba torpaqlarından didərgin salınmış keçmiş məcburi köçkünlər qayıdış karvanları ilə Qarabağ və Şərqi Zəngəzura döndükləri, əziz bayramlarını el-obalarında qeyd etdikləri üçün özlərini dünyanın ən xoşbəxt insanları sanırlar...

### Bayram bayrama qarışıb

Xoş ənənəsinə xas olaraq bu il martın 18-də Novruz tonqalını Ağdərənin Həsənriz kəndində alovlandıran xilaskar lider İlham Əliyev kənd sakinlərinə bayram təbriklərini bu sözlərlə çatdırdı: "Bu gün Həsənrizdə İlaxır çərşənbə günündə görüşürük. Sizi, Azərbaycan xalqını bayram münasibətilə təbrik edirəm. Ramazan bayramı da gəlir, Novruz bayramı da gəlir, bu gözəl bayram günündə, bayramlar ərəfəsində sizinlə görüşmək böyük məmnuniyyət doğurur".

Dövlətimizin başçısının da bəyan etdiyi kimi, Vətən müharibəsində qazandığımız şanlı Zəfər sayəsində yurdumuzun dörd bir yanı bayram əhvali-ruhiyyəsinə bürünüb. Novruz və digər milli bayramlarımız ikiqat təntənə, böyük qürur və xoşbəxtliklə qeyd olunur.

Azərbaycanı Zəfər təntənəli günlərə yetirən işıqlı yolun təməli isə vaxtilə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Müasir dövlətçiliyimizin banisi Ulu Öndər hər zaman bildirirdi ki, torpaqlarımız mütləq işğaldan azad ediləcək, məcburi köçkünlərimiz öz yurdlarına qayıdacaqlar. 1998-ci il martın 20-də Mərdəkandakı "Abşeron" sanatoriyasında Novruz bayramı münasibətilə qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində Ümummilli Lider bununla bağlı böyük inamını qətiyyətlə belə ifadə etmişdi: "Bu gün Novruz bayramını bir yerdə keçiririk. Gün o gün olacaq ki, Novruz bayramını bir dəfə gələcəyəm Şuşada, o biri il Laçında, o biri il Kəlbəcərdə, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda keçirəcəyik. Əminəm ki, belə də olacaqdır".

Bu gün Qarabağda və Şərqi Zəngəzurda Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən alovlandırılan bayram tonqalları Ulu Öndər Heydər Əliyevin vaxtilə ifadə etdiyi böyük inamından doğan arzularının gerçəyə çevrilməsinin rəmzidir.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva ilə birlikdə Həsənriz sakinləri ilə görüşən, onlarla birlikdə bayram tonqalı alovlandıran Prezident İlham Əliyev də məhz bu məqama məxsusi vurğu etdi: "Biz - onun davamçıları, sadəcə olaraq, onun yolu ilə gedərək ölkəmizi daha da gücləndirdik, bütün gücümüzü səfərbər etdik, "dəmir yumruğ"u yaratdıq, düşmənin başını əzdik, indi belə bayramları burada qeyd edirik. Bundan böyük xoşbəxtlik ola bilməz. Bir daha təbrik edirəm sizi. Bir daha bayramınız mübarək".

### Həyat yenidən başlayır

Torpaqlarımız işğaldan azad ediləndən dərhal sonra Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında bu ərazilərdə genişmiqyaslı quruculuq işlərinə başlanılıb. Böyük qayıdışı milli çağırışımız kimi müəyyənləşdirən Prezident İlham Əliyev hər zaman bildirir ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası bizim üçün prioritetlərdən biridir. Bu yerlər cənnətməkana çevriləcək.

Qarabağ və Şərqi Zəngəzurda çoxsaylı yaşayış məntəqəsi qurulur, böyük infrastruktur layihələri həyata keçirilir.

Prezident İlham Əliyev mütəmadi olaraq bu yerlərə səfərlər edir, görülən işlərlə yaxından tanış olur, açılışlar edir, bünövrələr qoyur. Görülən hərtərəfli işlərin nəticəsidir ki, Böyük qayıdış da sürətlənib və bir-birinin ardınca işğaldan azad edilmiş yurdlara qayıdış karvanları yola salınır.

Artıq Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulan 12 yaşayış məntəqəsinə sakinləri köçürülüb. Dədə-baba torpaqlarına qovuşan insanların sayı 11998 nəfərə (3005 ailə) çatıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, 136 ailə (660 nəfər) Xocalı rayonunun Ballıca kəndində, 50 ailə (166 nəfər) Ağdərə rayonunun Həsənriz kəndində, 20 ailə (54 nəfər) Ağdərə rayonunun Suqovuşan kəndində məskunlaşıb.

Keçmiş məcburi köçkünlərlə doğma yurdlarında görüşən Prezident İlham Əliyev növbəti dəfə martın 18-də - Novruz bayramı ərəfəsində, İlaxır çərşənbədə yolunu Ağdərə rayonundan saldı. 2023-cü il oktyabrın 15-də Azərbaycanın üçrəngli bayrağını qürurla Ağdərədə dalğalandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev bu rayonun Həsənriz, Suqovuşan kəndlərində sakinlərlə görüşdü, yeni evlərin açarlarını onlara təqdim etdi, açılışlar etdi.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurmadan sonra açılışında da iştirak etdilər.

Qeyd edək ki, dövlətimizin başçısının ötən il imzaladığı sərəncama uyğun olaraq Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması işləri yüksək səviyyədə həyata keçirilib.

Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunda həyata keçirilən yenidənqurma işləri bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına töhfə verəcək.

Qarabağ və Şərqi Zəngəzurda tarixi, dini, mədəni abidələrimiz də bərpa olunur. Çünki işğal dövründə məscidlərimiz də düşmən tərəfindən vəhşiliklə dağıdılıb, 67 məsciddən 65-i məhv edilib. Bu baxımdan, işğaldan azad olunmuş ərazilərimizdə hazırda aparılan geniş quruculuq işləri çərçivəsində yeni məscidlərin inşası da mühüm yer tutur.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Suqovuşan kəndində də məscidin açılışında iştirak etdilər. Orucluq ayında və Novruz bayramı ərəfəsində açılışı edilən məsciddə eyni vaxtda 100-ə yaxın insan ibadət edə biləcək. Məscidin birinci mərtəbəsi kişilər, ikinci mərtəbəsi isə qadınlar üçün nəzərdə tutulub.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci ilin martında bu ibadət ocağının təməlqoyma mərasimində iştirak ediblər.

### Böyük səadət, xoşbəxt yaşam

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən bir qrup sakinlə görüşdülər, fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış oldular.

Yurda qayıdış sevincini və buna görə yaşadığı minnətdarlıq hissini Həsənriz sakinlərindən biri həmin vaxt bu cür bölüşdü: "33 ildən sonra bizi doğma Vətənə, ata-baba yurduna qaytarmağınız bizim üçün böyük səadətdir, eyni zamanda elimiz-obamız üçün yeni həyatın başlanğıcıdır...

... Sizin komandanlığınız altında Azərbaycan Ordusu cəmi-cümlətanı 23 saata işğala son qoymuşdur. Çox sağ olun, cənab Prezident, Siz Azərbaycan xalqının, o cümlədən dövlətimizin gücünü dünyaya bəyan etdiniz".

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdərə rayonunun Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi mərasimində də iştirak etdilər, yeni mənzillərə köçən kənd sakinlərinə evlərin açarlarını təqdim etdilər.

Bildirildi ki, kəndə köçlə bağlı ümumilikdə 180 ailə (591 nəfər) siyahıya alınıb. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var.

Kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bundan əlavə, ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su-Elektrik stansiyaları yenidənqurmadan sonra istifadəyə verilib. Suqovuşanda "istirahət kompleksi layihəsi" icra olunub. Ərazisi 6 hektar olan kompleksdəki 16 kottec və 2 mərtəbəli hotel binasında əsaslı təmir işləri aparılıb.

Suqovuşan sakinlərinə yeni evlərin açarlarını təqdim edən Prezident İlham Əliyev yurdlarına qovuşan sakinləri təbrik edərək dedi: "Bu gün də biz bu gözəl bayramı burada qeyd edirik. Mən sizi təbrik edirəm. Burada xoşbəxt yaşayın. Siz buna layiqsiniz. Uzun illər əzab-əziyyət içərisində yaşamısınız, bundan sonra o əzab-əziyyət qaldı tarixdə. Təbrik edirəm sizi".

Xatırladaq ki, 2022-ci ilin martında Prezident İlham Əliyev Novruz tonqalını bu kənddə - Suqovuşanda alovlandırmışdı.

### Sənə bayram yaraşır, Vətən

Düz beş il bundan əvvələ qədər bayram günlərində Allahdan yalnız bir dilək diləyərdik: gələn il Novruzu Qarabağda qeyd edək. Artıq saf diləklərimizin, arzularımızın çin olduğu, müqəddəs dualarımızın yerinə yetdiyi xoşbəxt günləri yaşayırıq. İndi Azərbaycan xalqı olaraq Novruzu, ümumiyyətlə, bütün əziz bayramlarımızı illərdir həsrətini çəkdiyimiz vətən torpaqlarının - Qarabağın, Şərqi Zəngəzurun azadlığının yaratdığı qürurverici ovqatla, böyük Zəfərin yaratdığı şadyanalıq ab-havası ilə qeyd edirik.

Bütün bunlar haqq-ədalətin bərpasıdır. Ölkəmizin, xalqımızın bu tarixi zirvəyə yüksəlməsi isə heç şübhəsiz Prezident İlham Əliyevin liderlik qabiliyyətinin, qətiyyətinin, milli maraqlarımızın keşiyində əzmlə dayanmasının nəticəsidir.

Suqovuşanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin özünün bəyan etdiyi kimi: "...Amma ədalət o vaxt zəfər çalır ki, iradən də var, gücün də var və haqqın da çatır. Bütün bu amillər bizdə olduğu üçün biz bu tarixi Zəfəri çaldıq. Bu Zəfərin, mən yenə də deyirəm, son onilliklər ərzində tayı-bərabəri olmayıb, bundan sonra da olmayacaq. Baxın bu gün müxtəlif yerlərdə müharibələr gedir. O müharibələr həm uzun müddət ərzində gedir və həm də, necə deyərlər, real nəticə ilə nəticələnmir. Bizim qələbəmiz tam idi, mütləq idi, birmənalı idi və vaxtilə "Qarabağ Ermənistandır" deyən adam bu gün deyir: "Qarabağ Azərbaycandır!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# İrəvan çıxılmaz durumdadır

## Bu ölkənin iqtisadi azadlıq indeksi getdikcə pisləşir

**Ermənistanda postmüharibə dönəmində gözlənilirdi ki, ölkədə normal həyat tərzi başlayacaq və rəhbərlik daxili, xarici siyasətdə beynəlxalq səviyyədə qəbul edilmiş qaydalar çərçivəsində fəaliyyət göstərəcək. Lakin məhz Paşinyan iqtidarının yarıtmaz siyasəti, sülh müqaviləsinin imzalanmasının yubadılması səbəbindən təcrid vəziyyətinə düşmüş Ermənistan inkişafdan geri qalır.**

Ölkədə sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, tənəzzül durmadan genişlənməkdədir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın daha da artmasına rəvac verir. İndi bu ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar.

Yerdə qalanların durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa belə pul tapmaqda çətinlik çəkirlər. Məhz bunun nəticəsidir ki, Ermənistanda əhalinin böyük əksəriyyəti banklara borcludur. Bank faizləri isə kifayət qədər yüksəkdir.

Son 6 ayın nəticələrinə görə, Ermənistanda makroiqtisadi, eyni zamanda sosial göstəricilərdə kəskin enişlər var. Ermənistanın rəsmi statistikasına görə, bu gün ölkədə hər 5 nəfərdən biri yoxsulluq həddində yaşayır. Beynəlxalq qurumların hesabatlarına görə isə bu göstərici hər 3 nəfərdən birinə aiddir. Sözügedən ölkənin rəsmi statistikasında hər 5 nəfərdən biri işsizdir. Beynəlxalq hesabatlarda bu rəqəm 25 faizə yaxındır.

"Heritage Foundation" tərəfindən dərc edilən "İqtisadi azadlıq indeksi-2025" illik hesabatına əsasən, 2025-ci ildə Ermənistanın iqtisadi azadlıq indeksi 65,4 bal olub, bu da əvvəlki ilin göstəricisindən 0,5 bənd yüksək, lakin 2021-ci il indeksindən 6,5 bənd aşağıdır.

Qeyd edək ki, ardıcıl 3 illik enişdən sonra (ümumilikdə 7 bənd) Ermənistanın iqtisadi azadlıq indeksində 2025-ci ildə artım qeydə alınıb, lakin bu artım da qlobal orta göstəricidən 2 dəfədən çox aşağıdır. Metodologiyaya əsasən, cari ilin iqtisadi azadlıq indeksi əvvəlki ilin birinci yarısının və ondan əvvəlki ilin ikinci yarısının məlumatları əsasında hesablanır. Yəni 2019-cu ilin ikinci yarısı və 2020-ci ilin birinci yarısının məlumatları əsasında hesablanan 2021-ci il iqtisadi azadlıq indeksi pandemiyadan əvvəlki dövrdə olduğu kimidir.

Bütün bunların fonunda Ermənistanın bərpa göstəriciləri dünya və bütün regionlar üzrə orta bərpa göstəricilərindən xeyli aşağıdır. Yeri gəlmişkən, Ermənistan iqtisadi azadlıq səviyyəsinə görə dünyanın 176 ölkəsi arasında 57-ci yerdədir. İndeksin yüksəlməsinə baxmayaraq, Ermənistanın həmin reytinq cədvəlindəki mövqeyi 10 pillə pisləşib. Səbəb yenə də indeksin artımının dünya və bütün regionlar üzrə orta inkişaf tempindən əhəmiyyətli dərəcədə aşağı olmasıdır.

Ermənistanla yanaşı, Avropa regionunda digər 38 ölkənin (Ermənistan da daxil olmaqla) iqtisadi azadlıq indeksi artıb, onlardan 31-də Ermənistandan daha çox iqtisadi azadlıq indeksi artımı müşahidə olunub. Avropa regionu reytinqində isə Ermənistan 4 pillə geriləyərək 30-cu yerdədir. Ermənistanda "Bazarın açıqlığı" qrupunun hər 3 alt indeksi üzrə əhəmiyyətli azalma qeydə alınıb.

Bu arada Paşinyan hakimiyyətinin səriştəsizliyi və səhv addımları nəticəsində Ermənistan iqtisadiyyatı investisiya vakuumu içərisində qalıb. Baş nazir hakimiyyətə gələn kimi investorları təqib edib, cinayət işləri ilə qorxudub və iqtisadi layihələr öz siyasi məqsədlərinə xidmət edib. Məlumata görə, Amulsar kimi investisiya layihələrindən birinin qarşısını almaq üçün əllərindən gələni ediblər. Bu layihənin həyata keçirilməsini ən azı 7 il gecikdirərək investisiya nüfuzuna böyük zərbə vurublar. Əvvəlki dövrdə başlanan və demək olar ki, istehsal mərhələsinə daxil olmağa yaxın olan layihəni indi özlərinə aid etməyə çalışırlar.

"4rd.am" nəşri yazıb ki, Paşinyan hökuməti 150 milyon dollar dəyərində zəmanətin verilməsini dövlət büdcəsini risk altına qoyaraq məcburi bir addım kimi atıb. Erməni ekspertlərin fikrincə, əgər vaxtında müxtəlif vasitələrlə maneə yaratmasaydılar və layihənin normal gedişatına icazə versəydilər, investisiyalar tamamlanacaq və mədən fəaliyyətə başlayacaqdı: "Bu halda təkcə 150 milyon dollarlıq büdcə zəmanəti vermək və dövlət borcunu artırmaq məcburiyyəti olmayacaqdı, həm də bu layihə ilə bağlı yaranmış çoxsaylı çətinliklərdən və itkilərdən qaçmış olacaqdıq. Bu gün onlar layihənin faydalarını elə əsaslandırırlar ki, sanki əvvəllər bu faydalar əldə edilməyəcəkdi".

Bu durumda ölkə daha çox xarici dövlətlərdən asılı vəziyyətə düşür. Belə vəziyyət isə bir dövlət kimi Ermənistanın məhvi deməkdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Tariximizin qanlı səhifəsi - 31 Mart Azərbaycanlıların Soyqırımı Günü

**Ermənilərin azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınların bitməsindən uzun illər keçmirdi. 1905-1907-ci illərdə azğınlaşmış ermənilər Azərbaycanın bir çox yerlərində dəhşətli cinayətlər həyata keçirmişdilər. Daşnaklar uşaqlara, qocalara, şikəstlərə belə acımamış, günahsız soydaşlarımıza dözülməz işgəncələr verərək qətlə yetirmişdilər. Azərbaycan xalqının göz yaşları hələ qurumamış, yaraları qaysaq bağlamamışdı.**



Qırğınlar bitər-bitməz ermənilər yenə qəddar simalarını gizlədərək özlərini əvvəllər olduğu kimi, yazıq, aciz, mehriban göstərməyə başlamışdılar. Ancaq elə ki, tabeçiliyində olduqları çar Rusiyasında ictimai-siyasi vəziyyət dəyişməyə başladı, inqilabi hərəkat bütün imperiyanı bürüdü, ermənilər məkrli niyyətlərini reallaşdırmaq üçün məqamın yetişdiyi qənaətinə gəldilər. Və hərəkətə keçdilər. Planları isə çoxdan hazır idi.

1917-ci ilin fevral inqilabı çar hökumətinin süqutu ilə nəticələndi. Həmin ilin oktyabrında Rusiyada yenidən inqilab baş verdu. Bolşeviklər hakimiyyəti ələ keçirdilər. Lakin yeni hökumətin bir sıra məsələlərdə mövqeyi çarizmlə müqayisədə qətiyyən dəyişməmişdi. Odur ki, erməni daşnakları bu dəfə bolşevik adı ilə köhnə planlarını həyata keçirməyə başladılar. Onlardan biri də Stepan Şaumyan idi. Bolşevik hökumətinin rəhbəri V.İ.Leninin fövqəladə Zaqafqaziya komissarı vəzifəsinə təyinatı ilə Bakıya gələn S.Şaumyan hakimiyyəti ələ keçirdi. "Daşnaksütyun" partiyasının çoxdan qurduğu azərbaycanlılara qarşı soyqırımı planını Bakıda həyata keçirənlərə indi də o, rəhbərlik edirdi. Hələlik isə S.Şaumyan genişmiqyaslı qətliamlara hazırlıq görürdü.

Bolşeviklər hakimiyyətə gəldikdən sonra Rusiya Birinci Dünya müharibəsindən çıxdı. Əsgərlər döyüş bölgələrini tərk etdilər. Bu zaman Qafqaz cəbhəsində olan Rusiya hərbi hissələrinin tərkibindəki erməni zabit və əsgərləri silahlarını təhvil vermədilər. Onlar Azərbaycana, əsasən, Bakıya üz tutdular. S.Şaumyan da azərbaycanlılara qarşı amansız mübarizə aparmaq üçün əlindəki hakimiyyətdən və bu hərbi hissələrin gücündən istifadə etdi.

Dəhşətli hücumlara keçmək üçün bütün hazırlıqlar görüldü. Başlamaq üçün yalnız bəhanə lazım idi... 1918-ci il martın 30-da axşam saatlarında Bakıda açılan ilk atəşlə bolşevik-daşnak birləşmələrinə hücuma keçmək əmri verildi. 30 mart-1 aprel tarixlərində Bakıda 12 min dinc azərbaycanlı öldürüldü. Qədim şəhərin yalnız sakinlərinə yox, özünə də divan tutdular. Müsəlmanların ibadət yerlərinə, Müsəlman Xeyriyyə Cəmiyyətinin binasına - "İsmailiyyə"yə, "Açıq söz" qəzetinin redaksiyasına, "Kaspi" mətbəəsinə od vurdular. Şəhərdə talanlar başladı.

31 Mart soyqırımı adı ilə tarixə yazılan bu dəhşətli hadisələrin nəticələri o qədər ağır idi ki, şahidi olan, yaxud onu araşdıran əcnəbilər də öz sarsıntılarını gizlədə bilmədilər. Amerikalı alim Leonard Ramsden Hartill ermənilərin Bakıda 25 min müsəlmanı qətlə yetirdiklərini yazdı. ABŞ tarixçiləri Boqdan Nahoylo və Vinter Svoboda qeyd edirdilər ki, 20 min döyüşçünün iştirak etdiyi bu toqquşma Bakıda sovetlərin qələbəsi ilə nəticələndi. ABŞ-nin Harbord missiyasının hesabatında yazılırdı ki, ermənilər 1918-ci ilin martında Bakıda 2 min azərbaycanlını qətlə yetirdilər. ABŞ tarixçiləri C.Makkarti və K.Makkarti də 1918-ci il martın 30-dan aprelin 1-dək Bakıda ermənilərin 8 mindən 12 minədək müsəlmanı öldürdüyünü və şəhərin türk əhalisinin yarısının qaçdığını bildirirdilər.

ABŞ-nin kəşfiyyat mənbələrinə görə, Cənubi Qafqazda qırğınlar zamanı 60 min Azərbaycan türkü qaçqına çevrilmiş, 420 müsəlman kəndi dağıdılmışdır.

İngilis müəllifi Peter Hopkirk "Bitməyən oyun" adlı əsərində bildirirdi ki, ingilislər almanların və türklərin Hindistana gedən yolunu kəsmək, ermənilər şərqdə və qərbdə zəngin Azərbaycan torpaqlarına sahib olmaq, ruslar isə zəngin Bakı neftinə yiyələnmək istəyirdilər. İngilis nümayəndələrinin 1918-ci il aprelin 9-da Bakıdan göndərdikləri teleqramda ermənilərin bolşeviklərlə birləşərək özlərinə irqi düşmən hesab etdikləri azərbaycanlılara qarşı qırğınlar törətdikləri deyilirdi. İngilis mənbələrində o da bildirilirdi ki, mart ayında Bakıda müsəlman əhalinin dörddəbiri qətlə yetirilib. Müstəqil əcnəbi tədqiqatçılarından biri mart qırğınları haqqında yazırdı: "Ermənilər müsəlman əhalini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub sakinlərqarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər".

Həmin günlər İranın Bakıdakı konsulu M.S.Marağayinin küçə və həyətlərdən cəsədlərin toplanması və dəfn edilməsi üçün yaratdığı xüsusi komissiya tərəfindən də fotoşəkillər çəkildi. Onların biri - qətlə yetirilmiş insanların cəsədi üzərində duran konsulun özünün təsvir edildiyi şəkil sonralar "Bakı şəhərində müsəlmanların kütləvi qırğını" adlı "poçt-kart" şəklində çap edilərək Bakı şəhərində müsəlmanlara qarşı törədilmiş cinayətlərin sübutu kimi İranda və digər ölkələrdə geniş yayılmışdır.

Professor Musa Qasımlı yazır: "Həmin dövrün statistik məlumatlarından aydın olur ki, bu zaman Bakıda 280-300 min nəfər əhali yaşayırdı. Onun 80-100 min nəfəri azərbaycanlı, digərləri isə çarizmin müstəmləkə siyasəti nəticəsində yerləşdirilənlər idi. Deməli, 80-100 min nəfər azərbaycanlı əhalinin dörddəbiri 20-25 min nəfər edir. Bu rəqəm bəzi amerikan mənbələrində yazılanlar ilə eyniyyət təşkil edir".

Bakıdan sonra bolşevik-daşnak hərbi birləşmələri soyqırımını Şamaxı, Quba, Qarabağ, Naxçıvan, Zəngəzur, Göyçay, Kürdəmir, Salyan və Lənkəran qəzalarında davam etdirdilər. Ermənilər yalnız milli mənsubiyyətinə görə on minlərlə dinc azərbaycanlını - qadını, uşağı, qocanı vəhşicəsinə qətlə yetirdilər, yaşayış yerlərini xarabalığa çevirdilər, xalqımızın milli mədəniyyət abidələrini, məscidləri və qəbiristanlıqları uçurub dağıtdılar, yerlə bir etdilər. Bakıda olduğu kimi, həmin yerlərdə də soyqırımı törədənlər təpədən-dırnağadək silahlanmış, hərbi təlimlər görmüş, peşəkar bolşevik-daşnak döyüşçüləri və həmin ərazidə yaşayan ermənilər idi. Onların hətta "ziyalı"ları azərbaycanlılara qarşı qırğınlarda fəal iştirak etmişlər.

1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı böyük amansızlıqla, qəddarlıqla həyata keçirdikləri soyqırımını araşdırmaq üçün Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən Fövqəladə Təhqiqat Komissiyası (FTK) yaradıldı. Komissiyanın tərkibində azərbaycanlılarla yanaşı, ruslar, yəhudilər və digər millətlərin nümayəndələri də var idi. Qruplara bölünən FTK üzvləri Azərbaycanın bölgələrində 1918-ci ilin martından başlayan və bəzi bölgələrdə Qafqaz İslam Ordusunun gəlişinə - sentyabradək davam edən soyqırımının geniş təhqiqinə başladılar. Təhqiqat qrupuna daxil olan belarusəsilli fotoqraf, tədqiqatçı Lev Urbanoviç Daşkeviç azərbaycanlılara qarşı erməni-daşnak hərbi birləşmələrinin törətdiyi dəhşətli faciələri fotokamerasının yaddaşına köçürmüşdür.

Qətliamın izləri tədqiqatçıları dəhşətə gətirirdi. Ermənilər azərbaycanlıların diri-diri dərisini soymuş, cəsədləri divara mismarlamış, süngü ilə onların gözlərini oymuş, qulaqlarını kəsmişlər. FTK-nın işinə cəlb edilən fotoqraf Vladimir Sokolov divara kazak çivi ilə mismarlanmış ikiyaşlı uşağı və digər kiçik uşaqları çəkərkən bu vəhşiliyə dözməyərək, bundan sonra erməni cinayətlərinin izlərini çəkməkdən imtina etmişdi.

Fövqəladə Təhqiqat Komissiyasının üzvlərinin topladıqları tədqiqat materialları və çəkdikləri fotolar, eləcə də xarici araşdırmaçıların yazılı materialları və fotolar 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı geniş miqyasda, planlı şəkildə soyqırımı törətdiklərini, onlara yalnız milli kimliyinə görə işgəncələr verdiklərini sübut edir.

1920-ci ilin aprelində Azərbaycanda bolşeviklər hakimiyyəti ələ aldılar. 70 il ərzində sovet hökuməti xalqımıza tarixini unudurmağa çalışdı. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımları barədə faktlar geniş təqdiqat mövzularına çevrilmədi. Lakin tarix yenidən Azərbaycan xalqının üzünə güldü. XX əsrin sonlarında Azərbaycan yenidən müstəqilliyinə qovuşdu. Xalqımız dövlət müstəqilliyini bərpa etdikdən sonra uzun illər gizli saxlanılan, qadağa qoyulmuş arxiv materiallarının da üzərinə işıq düşdü. Tariximizi olduğu kimi öyrənmək və öyrətmək imkanı yarandı. Aparılan araşdırmalar nəticəsində 1918-ci ildə bolşevik-daşnak birləşmələrinin xalqımıza qarşı törətdikləri dəhşətli cinayətlər, soyqırımları barədə daha geniş məlumatlar ala bildik.

Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanında bildirilir ki, azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir: "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi". Sözügedən fərmanda qeyd olunub ki, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir: "Bu hadisələrin yalnız birinə - 1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

1998-ci ildən bəri Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur. Azərbaycan xalqı hər ilin bu günü ermənilərin işğalçılıq, qərəzli siyasətinə qurban getmiş bütün soydaşlarını ehtiramla yad edir, tarixin dərslərini unutmamağa çalışır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası

**Mündəricat**


| | | |
|---|---|---|
| 1. | Qısa xülasə | 3 |
| 2. | Qlobal trendlər | 4 |
| 3. | Mövcud vəziyyətin təhlili | 5 |
| 4. | Hədəf göstəriciləri | 8 |
| 5. | Strategiyanın məqsədləri | 8 |
| 6. | Strategiyanın prioritet istiqamətləri | 9 |
| 7. | Maliyyələşdirmə mexanizmləri | 12 |
| 8. | Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı | 13 |
| 9. | Akronimlər | 18 |


## 1. Qısa xülasə

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizin rəqəmsal iqtisadiyyata keçidinin sürətləndirilməsi, bunun üçün əlverişli infrastrukturun yaradılması və 4-cü sənaye inqilabı texnologiyalarının tətbiqi imkanlarının tədqiq olunması tədbirləri müəyyənləşdirilmişdir. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4060 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası"nda informasiya təhlükəsizliyi üzrə yarana biləcək təhdidlərin və risklərin əvvəlcədən müəyyən edilməsi, eləcə də onlara qarşı görülməli tədbirlərin proqnozlaşdırılması məqsədilə süni intellekt əsaslı həllərin işlənib hazırlanması və tətbiqinin təşkil edilməsi nəzərdə tutulur.

Qeyd olunanlar baxımından süni intellekt sistemlərinin tətbiqi üzrə əlverişli infrastrukturun yaradılması, rəqəmsal xidmət sahələrinin müəyyən edilməsi və inkişafı xüsusi strateji əhəmiyyətə malikdir.

Son zamanlar dünya miqyasında süni intellekt sistemlərinin müxtəlif sahələrdə tətbiqi fiziki və hüquqi şəxslərə sosial-iqtisadi üstünlüklər qazandırmışdır.Buna görə də bir çox dövlətlər süni intellekt sahəsi üzrə ayrıca strategiyalar qəbul etmişlər və onların icrası həyata keçirilməkdədir.

Digər dövlətlərdə olduğu kimi, Azərbaycanda da süni intellekt texnologiyaları ölkəmizin iqtisadi və sosial inkişafında və qlobal rəqabət mühitində üstünlüklər əldə etməsində mühüm rol oynaya bilər. Odur ki, bu sahədə sistemli yanaşmaya ehtiyac vardır. Süni intellektin dövlət idarəçiliyi, iqtisadi, sosial, təhsil, səhiyyə, müdafiə, təhlükəsizlik və digər sahələrə ciddi dəyişikliklər gətirəcəyi, eləcə də bununla bağlı yaranacaq çağırışlar və təhdidlər nəzərə alınaraq, süni intellekt üzrə milli strategiyanın hazırlanması zərurəti yaranmışdır.

Bu məqsədlə hazırlanmış "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası" (bundan sonra - Strategiya),ilk növbədə, ölkədə süni intellekt üzrə mövcud vəziyyəti təhlil edir, daha sonra əldə olunan nəticələrə uyğun olaraq və qlobal trendlərə əsaslanaraq müəyyənləşdirilən prioritet istiqamətlər və tədbirlər planı vasitəsilə sözügedən sahədə strateji məqsədlərə və göstəricilərə nail olmağı hədəfləyir. Strategiyada süni intellekt ekosisteminin formalaşmasını və inkişafını təmin etmək üçün dövlət və özəl sektor arasında əməkdaşlıq, akademik və elmi tədqiqatların gücləndirilməsi, startap və innovasiya mühitinin dəstəklənməsi kimi məsələlərə xüsusi diqqət yetirilir.

2025-2028-ci illər ərzində həyata keçiriləcək tədbirlər çərçivəsində ilkin mərhələdə süni intellekt üzrə idarəetmənin təkmilləşdirilməsi, süni intellekt siyasətinin formalaşdırılması, məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi və dövlət-özəl sektor əməkdaşlığının genişləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün normativ hüquqi baza hazırlanacaq, insan hüquqlarına və məlumatların məxfiliyinə xüsusi diqqət yetiriləcəkdir.

Süni intellektin effektiv inkişafı məqsədilə yüksəksəviyyəli hesablama infrastrukturunun qurulması və süni intellekt modellərinin sürətli işlənməsi üçün bulud əsaslı resursların artırılması planlaşdırılır. Eyni zamanda, açıq mənbəli süni intellekt kitabxanalarının yaradılması və Azərbaycan dilində süni intellekt həllərinin inkişaf etdirilməsi bu sahədə mühüm irəliləyişlərə yol açacaqdır.

Kadr hazırlığı və bacarıqların inkişafı istiqamətində isə süni intellekt sahəsində ixtisaslaşmış mütəxəssislərin hazırlanması üçün təlim və elmi proqramların genişləndirilməsi, ali təhsil müəssisələrində süni intellekt üzrə yeni tədris proqramlarının hazırlanması nəzərdə tutulur. Tədqiqatçılar üçün süni intellekt üzrə xüsusi fondların yaradılması və beynəlxalq institutlarla əməkdaşlığın genişləndirilməsi də bu sahədə əsas hədəflərdən biridir. Bundan əlavə, dövlət qulluqçuları və rəhbər şəxslər üçün süni intellekt və məlumatların idarə edilməsi üzrə təlimlər keçirilməsi süni intellektin dövlət idarəçiliyində səmərəli tətbiqini təmin edəcəkdir.

Süni intellekt ekosisteminin gücləndirilməsi, süni intellektin tətbiqini genişləndirmək üçün pilot layihələrin icrası və nəticədə biznesin inkişaf etdirilməsi Strategiyanın əsas istiqamətlərindən biri olacaqdır. Bunun üçün startap və innovasiya ekosisteminin dəstəklənməsi, süni intellekt sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və maliyyə dəstəyi verilməsi planlaşdırılır. Həmçinin, yerli və beynəlxalq investorların süni intellekt texnologiyalarına yönəlməsini təşviq etmək məqsədilə yeni mexanizmlər hazırlanacaqdır.

Eyni zamanda, süni intellekt üzrə nəzəri və praktiki tədqiqatların təşviqi üçün xüsusi proqramlar həyata keçiriləcəkdir. Süni intellekt üzrə elmitədqiqat institutlarının yaradılması, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və süni intellekt texnologiyalarından kibertəhlükəsizlik sahəsində istifadə nəzərdə tutulur.

Strategiya çərçivəsində maarifləndirmə, həmçinin süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadənin təmin olunması istiqamətində də tədbirlər həyata keçiriləcəkdir. İctimaiyyətin süni intellekt barədə məlumatlandırılması, o cümlədən süni intellektin potensialı və riskləri haqqında təşviqat işinin təşkili, habelə süni intellektlə bağlı etik prinsiplərin qorunması əsas prioritetlərdən biri olacaqdır. Məlumatların məxfiliyinin və fərdi məlumatların qorunması üçün normativ hüquqi bazanın gücləndirilməsi süni intellektdən təhlükəsiz istifadəyə şərait yaradacaqdır.

Strategiyanın icrası nəticəsində ölkədə süni intellektin inkişafı və tətbiqi üzrə daha sistemli yanaşma formalaşdırılacaq, innovasiyalar və texnoloji yeniliklərin tətbiqi üçün əlverişli mühit yaradılacaqdır.

## 2. Qlobal trendlər

Kanada dünyada süni intellekt üzrə strategiyanı ilk hazırlayan dövlətlərdən biri olaraq, "Pan-Canadian AI Strategy"ni 2017-ci ildə təqdim etmişdir. Həmin strategiyanın əsas məqsədi Kanadanın mövqeyini qlobal süni intellekt lideri olaraq möhkəmləndirmək, bu sahədə innovasiyaları artırmaq və süni intellektin cəmiyyətə müsbət təsirlərini təşviq etməkdir. Eyni zamanda, strategiya süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni, müxtəlifliyi və inklüzivliyi artırmağa və texnologiyanın tətbiqinin cəmiyyət üçün faydalı olmasının təmin edilməsinə yönəlmişdir.

Amerika Birləşmiş Ştatları "American AI Initiative" strategiyası vasitəsilə müvafiq sahədə tədqiqat və innovasiyaları maliyyələşdirir.

Çin "Next Generation AI Development Plan" çərçivəsində qlobal liderliyi hədəfləyir. "AI City" kimi layihələr vasitəsilə şəhərlərin idarə olunmasında süni intellekt texnologiyalarından istifadə edilir. Ölkə süni intellekt sahəsində patent liderliyini qoruyaraq, qlobal texnologiyalar bazarında önəmli mövqedədir.

"Avropa Süni İntellekt Strategiyası"nda süni intellektin tətbiqi zamanı etik prinsiplər və sosial dəyərlər ön plana çıxarılır. Bu sahədə Avropa İttifaqı kiçik sahibkarlara maliyyə dəstəyi və tədqiqat proqramlarına ciddi investisiyalar da ayırır. Eyni zamanda, Yaponiya "Cəmiyyət 5.0" konsepsiyası çərçivəsində texnologiyanın insan rifahına xidmət etməsini prioritet hesab edir və orada sosial problemlərin həllində texnologiyadan istifadə digər ölkələrin strategiyalarından fərqlənir.

Nəzərə alınmalıdır ki, yüksək effektivliyə malik olsa da, süni intellekt üçün həm qabiliyyət, həm də funksionallıq baxımından bir sıra həlli vacib məsələlər vardır. Hazırda qlobal təcrübədə süni intellekt sistemləri barədə müşahidə olunan çağırışlar aşağıdakılardır:

1. məlumatların dəqiqliyi: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində obyektivliyin təmin edilməsi üçün dəqiq və mötəbər məlumatların toplanılması, eləcə də məlumatların düzgün emalı və təmizlənməsi zəruridir. Amerika Birləşmiş Ştatlarında və Avropa İttifaqında etik alqoritmlərin tətbiqi və məlumat təmizliyi standartları bu istiqamətdə əhəmiyyətli addımlardandır;

2. kibertəhlükəsizlik riskləri: süni intellekt sistemlərinin kibertəhlükələrə qarşı dayanıqlılığını artırmaq üçün qabaqcıl beynəlxalq təcrübələrdən faydalanmaq mümkündür;

3. yüksək enerji xərcləri: İsveç və Danimarka kimi ölkələr enerji effektivliyi üçün yaşıl texnologiyalardan istifadə edir. Bu yanaşma həm iqtisadi, həm də ekoloji baxımdan faydalıdır;

4. mütəxəssis çatışmazlığı: rəqəmsal təhsil və təlim proqramlarının genişləndirilməsi, Sinqapurda və Koreya Respublikasında olduğu kimi, mütəxəssis bazasını genişləndirməyin əsas yoludur;

5. qərarvermə proseslərində aşkarlıq: süni intellekt sistemləri vasitəsilə həyata keçirilən qərarvermə proseslərində tətbiq edilən metodologiyaların şəffaflığı və aşkarlığı təmin edilməlidir;

6. məlumatların mühafizəsi: dövlət sirrinin və əldə edilməsi məhdudlaşdırılan digər məlumatların mühafizəsi təmin edilməli və konfidensiallığı qorunmalıdır;

7. hesabatlılıq: qurumlar yaratdıqları və istifadə etdikləri süni intellekt sistemlərinə görə cavabdeh olmalı və məsuliyyət daşımalıdırlar.

2030-cu ildə süni intellektin 326 milyon işə təsir göstərəcəyi təxmin edilir. Vaxtında lazımi tədbirlər görülməsə, işlərin 67%-nin bu sahədə təhsili olmayan şəxslər tərəfindən icra ediləcəyi qaçılmaz olacaqdır. Süni intellekt sahəsində aparılmış araşdırmalara görə, 2030-cu ildə süni intellektin inkişafı və tətbiqinin sürətləndirilməsi nəticəsində qlobal ÜDM 14% artacaq ki, bu da əlavə 15,7 trilyon dollar deməkdir. Süni intellektin tətbiqinin iqtisadi təsiri aşağıdakı nəticələrə səbəb olacaqdır:

1. biznes proseslərini avtomatlaşdırmaqla (robotlardan və avtonom nəqliyyat vasitələrindən istifadə daxil olmaqla) məhsuldarlığın artırılması;

2. müəssisələrdə mövcud işçi qüvvəsini süni intellekt texnologiyaları (yardımçı və genişləndirilmiş intellekt) ilə inkişaf etdirərək məhsuldarlığın artırılması;

3. fərdiləşdirilmiş və (və ya) daha yüksəkkeyfiyyətli süni intellekt məhsul və xidmətlərinin təqdim edilməsi yolu ilə istehlakçı tələbatının artması.

## 3. Mövcud vəziyyətin təhlili

Amerika Birləşmiş Ştatları, Çin, Türkiyə, Danimarka, Estoniya, İsrail, Koreya Respublikası, Sinqapur və digər ölkələr tərəfindən süni intellekt texnologiyasının gətirdiyi imkanları iqtisadi artıma çevirmək, hər kəsin rifahına və daha təhlükəsiz yaşamına yönəltmək üçün məqsədləri, prinsipləri və prioritetləri əks etdirən hərtərəfli milli strategiyalar və proqramlar hazırlanmışdır.

Süni intellekt idarəçiliyi və onun hüquqi tənzimlənməsi süni intellekt sistemlərinin tətbiqində mühüm vasitə rolu oynadığından, süni intellektdən etik dəyərlər çərçivəsində və məsuliyyətlə istifadəni təmin etmək üçün aydın qaydalar və normalarla bağlı Azərbaycanda müvafiq normativ hüquqi baza yaradılmalıdır. Süni intellekt üçün tənzimləyici normaların təsbit edilməsi, həmçinin, süni intellektin istifadəsinin və faydalarının ədalətli şəkildə bölüşdürülməsində, fərdlərin hüquqlarının qorunmasında, etik qaydaların hazırlanması və süni intellektin cəmiyyətə potensial mənfi təsirini azaltmaq üçün tədbirlərin həyata keçirilməsində vacib rol oynayır.

Məlumatların real vaxt rejimində mübadiləsi və emalı zamanı bulud hesablama resurslarından və "Əşyaların interneti"ndən istifadə, habelə cihazlar və sistemlər arasında əlaqə qurulması, eləcə də yüksəksürətli internet süni intellekt üçün vacib əhəmiyyətə malikdir.

Eyni zamanda, süni intellekt infrastrukturunu dəstəkləyən bulud infrastrukturunun, xüsusən də AWS, Google Cloud Platform və ya Microsoft Azure kimi əsas bulud provayderlərinin Azərbaycanda olmaması süni intellektin sürətlə mənimsənilməsi üçün ciddi maneələr yaradır.

2024-cü il yanvarın 1-nə Azərbaycan Respublikasında internet istifadəçilərinin sayı 9,19 milyon olmuşdur və internetdən istifadə səviyyəsi əhalinin 88,0 %-ni təşkil etmişdir. Genişzolaqlı internet istifadəçilərinin sayı isə 2,1 milyonu keçmişdir. Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının "Elektron Hökumətin İnkişafı İndeksi"nin 2024-cü il hesabatında 193 ölkə arasında 74-cü yerdə qərarlaşır ki,bununla da ölkəmizilk dəfə indeksin ən yüksək kateqoriyası hesab edilən "Çox Yüksək EGDI" qrupuna daxil olmuşdur.

Azərbaycan Respublikasında dövlət idarəçiliyində operativliyin və səmərəliliyin artırılması məqsədilə "Elektron hökumət"in formalaşması artıq təmin olunmuş, həmçinin dövlət orqanlarının (qurumlarının) informasiya sistemləri və ehtiyatları vasitəsilə təqdim edilən elektron xidmətlərdən geniş istifadə edilməkdədir.

Cənubi Qafqaz regionunda ilk olaraq Azərbaycan Respublikasının TIER III səviyyəli, ISO 20000, ISO 27001 və PCI DSS standartlarına uyğun Data Mərkəzi yaradılmış və fəaliyyəti təmin edilmişdir. Data Mərkəzi Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyası"na əsasən formalaşdırılan "bulud" infrastrukturunun təminatçısıdır.

"Elektron hökumət"in inkişafı istiqamətində qanunla əldə olunması, işlənilməsi, verilməsi və ya istifadəsi məhdudlaşdırılmayan və ümumi istifadə üçün təyin olunmuş məlumatlara əlçatanlığın artırılmasını, həmin məlumatlardan səmərəli istifadə məqsədilə onların vahid bazada toplanmasını təmin edən "Açıq məlumatlar" portalı yaradılmış, dövlət orqanları (qurumları) tərəfindən formalaşdırılan açıq məlumatların insan və maşın tərəfindən oxunabilən formatda portal vasitəsilə açıqlanması imkanı təmin edilmişdir. Hazırda "Açıq məlumatlar" portalına 500-dən çox məlumat dəsti inteqrasiya edilmişdir. Portalın yaradılması nəticəsində dövlət orqanlarında (qurumlarında) idarəetmədə şəffaflığın daha da artırılması, dövlət xidmətlərinin yaxşılaşdırılması, vətəndaş iştirakçılığının genişləndirilməsi ilə yanaşı, startaplar və digər biznes subyektlərinin yeni məhsul və xidmətlər yaratmaq, o cümlədən innovativ ideya və layihələri formalaşdırmaq üçün lazım olan açıq məlumatlarla təmin edilməsi hədəflənir.

Hazırkı qlobal geosiyasi və iqtisadi mühitdə digər dövlətlər, transmilli texnoloji şirkətlər tərəfindən süni intellekt texnologiyaları vasitəsilə Azərbaycanın milli strateji prioritetlərinə təsir göstərilməsi istisna olunmur. Bununla yanaşı, terrorçu təşkilatlar və beynəlxalq kriminal qruplaşmalar tərəfindən bu texnologiyalardan istifadə meyilləri hüquq-mühafizə orqanları üçün yeni çağırışlar yaradacaqdır. Süni intellektin tətbiqi ilə ölkəmizə qarşı dezinformasiya hücumlarının həyata keçirilməsi cəhdlərinin, saxta kontent, o cümlədən "deepfake" audio-video materiallardan istifadənin artması da istisna olunmur. Kiberhücum və kibercinayətlərin həyata keçirilməsi üçün süni intellektin yaratdığı yeni imkanlardan, ziyanverici proqram təminatından istifadə oluna bilər. Bundan əlavə, "Əşyaların interneti" sensorlarında, "ağıllı telefonlar"da, avtonom nəqliyyat vasitələrində, "ağıllı ev" həllərində, sosial media platformalarında fərdi məlumatların daha effektiv toplanılmasını təmin edən (fərdi məlumatların mühafizəsinə təhdid yaradan) süni intellektin tətbiqi mümkündür. Göstərilən təhdidlərin qarşısının alınması və onlara qarşı əks-tədbirlərin həyata keçirilməsi üçün süni intellekt alətlərindən istifadə genişləndirilməlidir.

Ölkənin süni intellekt sahəsində inkişafı və rəqabət qabiliyyəti üçün həmin sahə üzrə istedad və bacarıqların artırılması, eləcə də təlimçilərin hazırlanması, ixtisasının yüksəldilməsi, habelə ölkənin işçi qüvvəsinin süni intellektlə idarə olunan iqtisadiyyata hazırlığının təmin edilməsinə nail olmaq vacibdir. Texnologiyanın sürətli inkişafı və müxtəlif sənayelərdə istifadəsinin genişlənməsi nəticəsində süni intellekt üzrə mükəmməl bilik və bacarıqlara malik mütəxəssislərə tələb artmaqdadır. Belə ki, 2016-cı ildən 2022-ci ilə qədər data elmi və maşın öyrənməsinə olan tələbat əsasında elanların sayı 60 dəfə artmışdır. "LinkedIn" sosial şəbəkə platformasındakı araşdırmalara əsasən, data elmi və maşın öyrənməsi üzrə ixtisaslaşmış təcrübəli mütəxəssislərin azlığı diqqət çəkir.

Dünyada süni intellekt hazırlığını ölçən qlobal indekslərdən "Süni İntellekt Qlobal İndeksi"ndə Azərbaycan 2024-cü ildən etibarən yer almaqdadır və 83 ölkə arasında 78-ci yerdədir. "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"nin 2024-cü ildəki hesabatına əsasən, Azərbaycan 188 ölkə arasında 111-ci yerdədir. Süni intellektin inkişafı məqsədilə Strategiyanın formalaşdırılması ölkənin beynəlxalq indekslərdə, o cümlədən "Hökumətin Süni İntellekt Hazırlıq İndeksi"ndə irəliləməsinə töhfə verən əsas göstəricilərdən birinə çevriləcəkdir.

Ölkədə süni intellektlə bağlı mövcud çağırışlar aşağıdakı istiqamətlərdə işlər görülməsini tələb edir:

1. data elmi və maşın öyrənməsi üzrə təhsil proqramlarının genişləndirilməsi - universitetlərdə və digər təhsil müəssisələrində bu sahələr üzrə ixtisaslaşmış proqramların yaradılmasını və mövcud proqramların təkmilləşdirilməsini;

2. akademik tədqiqatçıların və mütəxəssislərin dəstəklənməsi - yüksək texnologiya sahəsində çalışan alim və tədqiqatçılar üçün rəqabət qabiliyyətli əməkhaqqı təklif edilməsini və onların fəaliyyətinin stimullaşdırılmasını;

3. məlumat bazalarına çıxışın təmin edilməsi - tədqiqat institutları və digər qurumlar tərəfindən toplanılan açıq məlumatlara tədqiqatçılar və mütəxəssislər üçün çıxış imkanlarının artırılmasını;

4. süni intellektin inkişafını dəstəkləyən qanunvericilik bazasının yaradılması - süni intellektin tədqiqi və tətbiqi üçün əlverişli hüquqi mühitin formalaşdırılması və mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsini;

5. məlumatların məxfiliyinin və təhlükəsizliyinin təmin edilməsi - fərdi məlumatların qorunması və kibertəhlükəsizlik sahəsində müvafiq qanunların qəbul edilməsini və tətbiqini;

6. süni intellektin təbliği - cəmiyyət arasında süni intellektin əhəmiyyəti və faydaları barədə məlumatlandırma kampaniyalarının keçirilməsini;

7. ictimaiyyətin maarifləndirilməsi - süni intellektin tətbiqi ilə bağlı potensial risklər və onların idarə edilməsi barədə ictimaiyyətin məlumatlandırılmasını;

8. süni intellekt sahəsində fəaliyyət göstərən şirkətlərin dəstəklənməsi - bu sahədə fəaliyyət göstərən yerli şirkətlərin sayının artırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini;

9. dövlət - özəl sektor əməkdaşlığının gücləndirilməsi - süni intellektin müxtəlif sahələrdə tətbiqi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini.

Yuxarıda qeyd olunan istiqamətlərdə atılacaq addımlar Azərbaycanda süni intellektin inkişafını sürətləndirəcək və onun müxtəlif sahələrdə səmərəli tətbiqinə şərait yaradacaqdır.

## 4. Hədəf göstəriciləri

4.1. Strategiyanın icrası nəticəsində aşağıda qeyd olunan hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması;

4.1.2. süni intellektin tətbiqi üçün əlverişli şərait yaradılması;

4.1.3. süni intellekt sənayesində işləmək üçün ixtisaslı işçi qüvvəsinin hazırlanması;

4.1.4. cəmiyyətin bütün üzvlərinə süni intellektin faydalarının geniş şəkildə təbliğ edilməsi.

## 5. Strategiyanın məqsədləri

5.1. Strategiyanın əsas məqsədləri aşağıdakılardır:

5.1.1. ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə süni intellekt sənayesinin, o cümlədən onun davamlılığının və rəqabət qabiliyyətinin təmin edilməsi;

5.1.2. süni intellekt sənayesində işləmək üçün lazımi bilik və bacarıqlara malik ixtisaslı işçi qüvvəsinin hazırlanması;

5.1.3. dəqiq qərar qəbulu ilə səmərəliliyi və şəffaflığı artırmaq, vətəndaşlara daha keyfiyyətli xidmətlər göstərmək və daxili idarəetmə proseslərini optimallaşdırmaq üçün süni intellektin dövlət idarəetməsində tətbiq edilməsi;

5.1.4. yerli, regional və beynəlxalq bazar ehtiyaclarına xidmət edən regional süni intellekt təlimi və istedad mərkəzlərinin yaradılması;

5.1.5. süni intellekt sistemlərinin yerləşdirilməsi, böyükhəcmli məlumatların emalı və analitik təhlili üçün hesablama maşınlarının və məlumat mərkəzlərinin artırılması;

5.1.6. mürəkkəb riyazi əməliyyatları yerinə yetirmək və sistemləri simulyasiya etmək, nümunələri yenidən yaratmaq və digər yüksək hesablama tələb edən işləri yerinə yetirmək üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

5.1.7. ölkə qanunvericiliyində süni intellektin əsaslarının və normalarının işlənilməsi və süni intellektdən istifadə üçün etik prinsiplər və qaydaların formalaşdırılması;

5.1.8. süni intellekt sistemlərinin yaradılmasında və davamlı təkmilləşdirilməsində süni intellekt üzrə qlobal standartların tətbiq edilməsi;

5.1.9. süni intellektin tədqiqatını həyata keçirmək və süni intellekt sistemlərini hazırlamaq üçün sektorlar arasında əməkdaşlığın təşviq edilməsi;

5.1.10. süni intellektdən məsuliyyətli istifadənin təmin edilməsi və vətəndaşların hüquqlarının və məlumatların məxfiliyinin qorunması;

5.1.11. süni intellektin məlumat qərəzi törətməməsi, ondan dövlətin, cəmiyyətin və vətəndaşların maraqlarına zidd məqsədlər üçün istifadənin qarşısının alınması;

5.1.12. innovasiyalı həllərin tətbiqi zamanı yaranan risklərin və dəyən ziyanın azaldılmasının təmin edilməsi;

5.1.13. milli təhlükəsizliyin, o cümlədən informasiya təhlükəsizliyinin, informasiyanın manipulyasiyasının, habelə dezinformasiya hücumlarının qarşısının alınması və süni intellekt sistemlərinin mühafizəsinin təmin edilməsi üçün süni intellekt üzrə rəqəmsal alətlərin etimadlılıq səviyyələrinin gücləndirilməsi və süni intellektin tətbiqinin genişləndirilməsi.

## 6. Strategiyanın prioritet istiqamətləri

6.1. Strategiya çərçivəsində aşağıdakı prioritet istiqamətlər üzrə tədbirlər həyata keçiriləcəkdir:

6.1.1. Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi:

6.1.1.1. Əsaslandırma:innovasiyaları təşviq edən, sərmayələri cəlb edən, cəmiyyətin maraqlarını və dəyərlərini qoruyan süni intellekt üzrə idarəetmə sisteminin yaradılması və dünyada süni intellektin məsuliyyətli inkişafı üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edilməsi Strategiyanın prioritet istiqamətlərindən biridir. Beləliklə, innovatorları, tədqiqatçıları və sahibkarları effektiv şəkildə dəstəkləyən, fəaliyyətləri stimullaşdıran, eyni zamanda əhalinin süni intellekt texnologiyalarına inamını təmin edən idarəetmə sistemi formalaşdırılacaqdır;

6.1.1.2. Görüləcək tədbirlər:

6.1.1.2.1. süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi;

6.1.1.2.2. süni intellekt üzrə sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi;

6.1.1.2.3. məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması;

6.1.1.2.4. süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi;

6.1.1.2.5. süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi;

6.1.1.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.1.3.1. innovasiyaları təşviq edən, investisiyaları cəlb edən və cəmiyyətin maraqlarını qoruyan süni intellekt idarəetmə sisteminin qurulması;

6.1.1.3.2. süni intellektin təsirini artırmaq və resurslardan daha səmərəli istifadəni təmin etmək üçün kənd təsərrüfatı, səhiyyə, nəqliyyat, təhsil və digər prioritet sektorların müəyyən edilməsi;

6.1.1.3.3. süni intellekt tətbiqlərində şəffaflığı, ədalətliliyi və etik prinsiplərə uyğunluğu təmin etmək üçün hüquqi çərçivənin hazırlanması və beynəlxalq standartlara uyğun milli normativ hüquqi bazanın işlənilməsi və tətbiqi;

6.1.1.3.4. süni intellekt ekosistemində qlobal səviyyədə Azərbaycan Respublikasının mövqeyini gücləndirmək məqsədilə regional və beynəlxalq tərəfdaşlıqların inkişaf etdirilməsi;

6.1.1.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.1.4.1. milli prioritet sektorların müəyyən edilməsi zamanı sektorların müəyyən edilməsində mübahisələr və ya resursların qeyri-bərabər bölgüsü baş verə bilər ki, bu da bəzi sahələrin digər sahələrə nisbətən daha az dəstək almasına və inkişafın qeyri-bərabər olmasına səbəb ola bilər.

Bu riski neytrallaşdırmaq üçün süni intellektin tətbiqi potensialı və tələblərini nəzərə alaraq, hər bir sektorda ətraflı təhlillər aparılacaq, mütəxəssislərin və ekspertlərin fikirləri, təklifləri əsasında prioritet sektorlar müəyyənləşdiriləcək, pilot layihələr həyata keçiriləcək və resurslar balanslı şəkildə bölüşdürüləcəkdir;

6.1.2. Məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi:

6.1.2.1. Əsaslandırma: məlumat idarəetməsinin və infrastrukturunun təkmilləşdirilməsi rəqəmsal transformasiyanın əsasını təşkil edərək, dövlət orqanları (qurumları) və özəl sektor üçün etibarlı, səmərəli və innovativ həllərin inkişafını təmin edəcəkdir. Məlumatların effektiv idarə olunması, açıq məlumatların genişləndirilməsi, yüksəksəviyyəli hesablama imkanlarının artırılması və Təbii Dil Emalı (bundan sonra - TDE) texnologiyalarının gücləndirilməsi süni intellektin və data əsaslı qərar qəbuletmənin inkişafına töhfə verəcəkdir;

6.1.2.2. Görüləcək tədbirlər:

6.1.2.2.1. yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı;

6.1.2.2.2. TDE üzrə istiqamətlərin gücləndirilməsi;

6.1.2.2.3. məlumatlardan səmərəli və effektiv istifadə, onların təhlükəsizliyinin və fərdi məlumatların mühafizəsinin təmin edilməsi, məlumatyönümlü idarəetməyə keçidin təşkili;

6.1.2.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.2.3.1. Azərbaycan dilində TDE texnologiyalarının inkişaf etdirilməsi və dilin qlobal rəqəmsal məkanda mövqeyinin gücləndirilməsi;

6.1.2.3.2. süni intellekt alqoritmlərinin öyrədilməsi, modellərinin və nümunələrinin təlimi və tətbiqi üçün yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi;

6.1.2.3.3. ictimaiyyətin süni intellekt mövzusunda bilik səviyyəsinin artırılması;

6.1.2.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.2.4.1. yüksəksəviyyəli hesablama infrastrukturu və TDE texnologiyalarının inkişafı zamanı maliyyə və texniki resurs çatışmazlığı yarana bilər. Bu resursların kifayət qədər ayrılmaması infrastrukturun təkmilləşdirilməsini məhdudlaşdıra, layihələrin gecikməsinə və ya məhdud miqyasda icrasına səbəb ola bilər.

Bu riskin qarşısını almaq üçün investisiya imkanlarının genişləndirilməsi, beynəlxalq və yerli donorlar, eləcə də innovasiya və texnologiya fondlarından maliyyə cəlb edilməsi nəzərdə tutulur;

6.1.2.4.2. TDE sistemləri şəxsi və həssas məlumatlarla işləyə bilər, bu isə məxfiliyin pozulmasına gətirib çıxarar.

Bu problemin aradan qaldırılması üçün məlumatların anonimləşdirilməsi, tənzimləyici qaydalara uyğun məlumat emalı, şifrələmə texnologiyalarının tətbiqi nəzərdə tutulur;

6.1.3. Süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi:

6.1.3.1. Əsaslandırma: süni intellekt sahəsində ölkədə yüksəkixtisaslı kadr potensialının inkişafı və təkmilləşdirilməsi, prioritet sektorların tələblərinə uyğun şəkildə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti və mütəxəssisləri üçün təlimlərin keçirilməsi, həmçinin süni intellekt və məlumat idarəetməsi üzrə tədqiqatların təşviq edilməsi ölkənin rəqəmsal inkişafının gücləndirilməsinə töhfə verəcəkdir. Bununla yanaşı, məsuliyyətli və etik süni intellekt tətbiqlərinin genişləndirilməsi və fərdi məlumatların qorunması ilə bağlı təlimlərin keçirilməsi ictimaiyyətin məlumatlılığını artıracaq, süni intellekt texnologiyaları ilə bağlı maariflənmə səviyyəsini möhkəmləndirəcək və müvafiq sahədə yerli bacarıqların inkişafını sürətləndirəcəkdir;

6.1.3.2. Görüləcək tədbirlər:

6.1.3.2.1. ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi;

6.1.3.2.2. süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi;

6.1.3.2.3. süni intellekt və məlumat idarəetməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi;

6.1.3.2.4. süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması;

6.1.3.2.5. süni intellekt üzrə tədqiqatların təşviq edilməsi;

6.1.3.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.3.3.1. akademik və praktiki səviyyədə süni intellekt və data elminə dair biliklərin artırılması və müvafiq təhsil proqramlarının genişləndirilməsi;

6.1.3.3.2. süni intellekt sahəsində mütəxəssislər hazırlanması və qeyri-texniki rollar üçün səriştə standartlarının müəyyən edilməsi;

6.1.3.3.3. süni intellekt texnologiyalarının imkanları, riskləri və faydaları barədə əhalinin məlumatlandırılması və texnologiyaya inamın artırılması;

6.1.3.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.3.4.1. süni intellekt və məlumat idarəetməsi sahəsində mütəxəssislərin hazırlanması, həmçinin dövlət orqanlarının (qurumlarının) rəhbər heyətinin bu sahədə biliklərinin təkmilləşdirilməsi üçün təşkil olunan təlim və inkişaf proqramlarında təlimçilərin məhdud sayda olması və ya kifayət qədər hazırlıqlı olmaması yerli kadrların bilik səviyyəsinin yüksəlməsinə mane ola və sahəyə marağı azalda bilər.

Bu riskin neytrallaşdırılması və proqramların keyfiyyətinin artırılması məqsədilə Süni İntellekt Akademiyasının yaradılması və nüfuzlu xarici təhsil müəssisələri ilə əməkdaşlıq nəzərdə tutulur. Həmin tədbirlər yerli kadr potensialını gücləndirəcək, sahəyə olan marağı artıracaq və inkişafı sürətləndirəcəkdir;

6.1.3.4.2. sənaye ilə dövlət orqanları (qurumları) arasında əməkdaşlıq və əlaqələndirmənin zəif olması, sənaye sektorunun süni intellekt texnologiyalarına maraq göstərməməsi nəticəsində peşəkar kadrların bilik və bacarıqlarını real mühitdə tətbiq etmək imkanları məhdudlaşa bilər ki, beləliklə də kadrların formalaşması və inkişafı ləngiyər. Bundan əlavə, süni intellektdən biznesdə real istifadəyə dair praktiki nümunələrin azlığı gənc mütəxəssislərin bu sahəyə marağının azalmasına səbəb ola bilər.

Bu riskin aradan qaldırılması üçün yaradılması nəzərdə tutulan Süni İntellekt Akademiyası, sənaye və dövlət orqanları (qurumları) arasında sıx əməkdaşlığın qurulması və süni intellektin biznes üçün yaratdığı imkanlar barədə geniş məlumatlandırma aparılması planlaşdırılır;

6.1.3.4.3. texnoloji infrastrukturun qeyri-kafi olması və innovasiya üçün əlverişli mühitin yaradılmaması süni intellekt üzrə istedad və bacarıqların təkmilləşdirilməsi qarşısında dayanan çox ciddi risklərdən biridir. Süni intellektin effektiv tətbiqi üçün güclü və müasir texnoloji infrastruktura ehtiyac vardır. Bu infrastrukturun olmaması və ya zəif olması layihələrin uğurla icrasını çətinləşdirə bilər.

*Ardı 16-cı səh.*

**Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası

*Əvvəli 15-ci səh.*

Bu riski neytrallaşdırmaq üçün süni intellektə uyğun yüksəksəviyyəli hesablama infrastrukturunun inkişaf etdirilməsi və müasirləşdirilməsi üçün əlavə sərmayələr qoyulması nəzərdə tutulur. Həmçinin, texnoloji mühitin inkişafı məqsədilə pilot layihələrin sənaye infrastrukturlarında real olaraq tətbiq edilməsi, innovasiya mərkəzlərinin, Süni İntellekt Akademiyasının və laboratoriyaların inkişaf etdirilməsi, startaplara dəstək proqramlarının təşkil olunması planlaşdırılır;

6.1.4. Əlverişli biznes mühitinin yaradılması:

6.1.4.1. Əsaslandırma: əlverişli biznes mühitinin yaradılması sahəsində süni intellekt texnologiyalarının tətbiqi üzrə yerli və xarici investisiyaların cəlb edilməsi, sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin genişləndirilməsi və texnologiya parklarında fəaliyyət göstərən rezidentlərin artırılması ölkənin rəqəmsal iqtisadiyyatını gücləndirəcəkdir. Bu tədbirlər süni intellekt sahəsində innovativ təşəbbüsləri stimullaşdıraraq iqtisadi mühitin inkişafına və işgüzar mühitin yaxşılaşdırılmasına töhfə verəcək, həm yerli, həm də xarici investorların marağını artıracaqdır. Beləliklə, ölkə üzrə süni intellekt texnologiyalarının istehsalı və tətbiqi sahəsində əhəmiyyətli irəliləyişə nail olunacaqdır;

6.1.4.2. Görüləcək tədbirlər:

6.1.4.2.1. ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi üçün tədbirlər görülməsi;

6.1.4.2.2. ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi;

6.1.4.2.3. ölkə üzrə texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi;

6.1.4.3. Gözlənilən nəticə və nəticə indikatorları:

6.1.4.3.1.süni intellekt texnologiyalarına əsaslanan innovativ startapların inkişaf etdirilməsi, mövcud innovasiya ekosisteminin gücləndirilməsi və yeni iş yerlərinin yaradılması;

6.1.4.3.2.Azərbaycanın süni intellekt sahəsində regional lider mövqeyinin möhkəmləndirilməsi və qlobal rəqəmsal ekosistemdə tanınması ilə bağlı fəaliyyətin gücləndirilməsi;

6.1.4.4. Gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

6.1.4.4.1. daxili bazarın kiçik olması və bu sahədə fəaliyyət göstərən şirkətlərin yeni olması xarici investisiya marağını azaldır.

Bu riskin neytrallaşdırılması məqsədilə beynəlxalq partnyorluqların genişləndirilməsi və xarici şirkətlərlə əməkdaşlığın təşviqi nəzərdə tutulur;

6.1.4.4.2. texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı üzrə fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi zamanı uyğun biznes mühiti və infrastrukturun olmaması süni intellektin inkişafını və tətbiqini ləngidə bilər.

Bu riskin qarşısını almaq üçün texnologiya şirkətləri ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi nəzərdə tutulur.

### 7. Maliyyələşdirmə mexanizmləri

Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planında qeyd olunan tədbirlərin maliyyələşdirilməsi büdcə təşkilatları tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulan vəsait və qanunla qadağan olunmayan digər mənbələr hesabına, habelə dövlət-özəl tərəfdaşlığı layihələri vasitəsilə təmin olunur.

### 8. Strategiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı qurumlar fəaliyyət istiqamətlərinə uyğun olaraq | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **8.1. Süni intellektin idarə edilməsinin inkişafı və təkmilləşdirilməsi** | | | | | | | |
| 8.1.1. | Süni intellektin inkişafı üçün milli prioritet sektorların və sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) müəyyən edilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2026 | Ölkənin strateji hədəflərinin, qlobal tendensiyaların ilkin təhlili və bazar araşdırmasının aparılması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının)siyahısının hazırlanması | Süni intellekt üzrə prioritet sektorların və müvafiq sektor üzrə məsul dövlət orqanlarının (qurumlarının) siyahısının təsdiq üçün aidiyyəti üzrə təqdim edilməsi |
| 8.1.2. | Süni intellekt üçün sektor üzrəməsul dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi | NK | RİNN, XRİTDX, DTX və aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Dövlət orqanlarının (qurumlarının) süni intellekt sahəsində potensialının və resurslarının qiymətləndirilməsi | Müəyyən edilmiş hər bir prioritet sektor üzrə dövlət orqanları (qurumları) tərəfindən fəaliyyət planlarının hazırlanması | Hazırlanmış fəaliyyət planlarının əlaqələndirilmiş şəkildə icra edilməsi |
| 8.1.3. | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi bazanın yaradılması | NK | RİNN, İN, DTX, XRİTDX | 2025–2027 | Normativ hüquqi baza yaradılması məqsədilə təhlillər aparılması | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların layihələrinin hazırlanması və təqdim edilməsi | Məsuliyyətli və etik süni intellekt üzrə normativ hüquqi aktların qəbul edilməsi |
| 8.1.4. | Süni intellekt sistemlərinin dizaynı, tətbiqi və istifadəsi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq edilməsi | NK | RİNN, aidiyyəti dövlət orqanları (qurumları) | 2025–2027 | Beynəlxalq təcrübənin araşdırılması və yerli normativ hüquqi bazanın təhlil olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının hazırlanması və təsdiq üçün təqdim olunması | Fərdi məlumatların mühafizəsi ilə bağlı risklərin müəyyən edilməsi və qarşısının alınması qaydalarının təsdiq olunması |
| 8.1.5. | Süni intellekt üzrə standartlaşdırmanın tətbiq edilməsi | RİNN | AİBNDA, DTX, XRİTDX | 2025–2028 | Standartlaşdırma üzrə beynəlxalq təşkilatın süni intellekt standartlarının araşdırılması | Süni intellekt üzrə ən azı 3 dövlət standartının hazırlanması, standartlaşdırma üzrə dövlət fonduna və dövlət reyestrinə daxil edilmək üçün təqdim olunması | Süni intellekt üzrə təsdiq olunmuş dövlət standartları haqqında geniş ictimai maarifləndirmə və məlumatlandırma tədbirlərinin görülməsi |
| **8.2. Məlumatların idarəedilməsinin və infrastrukturunun təkmilləşdirilməsi** | | | | | | | |
| 8.2.1. | Yüksəksəviyyəli hesablama infrastrukturunun inkişafı | RİNN | ETN, İN | 2026–2028 | Yüksəksəviyyəli hesablama infrastrukturu üçün tələblərin müəyyən edilməsi | Qrafik Prosessor Modullarının alınaraq Data Mərkəzlərində qurulması | İctimai istifadə üçün seqmentlərin müəyyən edilməsi və istifadəyə verilməsi |
| 8.2.2. | TDE üzrə istiqamətlərin gücləndirilməsi | RİNN | VXSİDA, aidiyyəti dövlət orqanları (qurumları) | 2026–2028 | Azərbaycan dilində böyük verilənlər bazalarının yaradılması | Yüksəkdəqiqlikli TDE modellərinin hazırlanması | Pilot 5 dövlət xidmətində TDE texnologiyalarının tətbiq edilməsi |
| **8.3. Süni intellekt sahəsində istedad və bacarıqların təkmilləşdirilməsi** | | | | | | | |
| 8.3.1. | Ölkədə müəyyən edilmiş prioritet sektorlar üzrə dövlət orqanlarının (qurumlarının) rəhbər heyəti üçün süni intellekt və data təliminin təşkil edilməsi | RİNN | ETN, İN, MN, XRİTDX, DTX | 2026–2027 | Süni İntellekt Akademiyasının fəaliyyətə başlaması<br>İnteraktiv tədris platformasının istifadəyə verilməsi | Süni İntellekt Akademiyasının fəaliyyəti çərçivəsində ən azı 2 nüfuzlu xarici universitetlə (dünya reytinqində ilk 10 pillədə qərarlaşan) süni intellektin tədrisi sahəsində əməkdaşlığın təmin edilməsi | Süni intellekt sahəsində 500 mühəndisin yetişdirilməsi<br>3000 nəfərlik süni intellekt icmasının formalaşdırılması |
| 8.3.2. | Süni intellekt və məlumat idarəetməsi üzrə kadr potensialının gücləndirilməsi | RİNN, ETN | İN, ƏƏSMN, XRİTDX | 2026–2028 | Yarışma platformasının istifadəyə verilməsi<br>İctimaiyyətin süni intellekt mövzusunda bilik səviyyəsini artırmaq məqsədilə ehtiyacların müəyyən edilməsi | Süni intellektlə bağlı məlumat və resurslar üçün platformanın yaradılması | Müxtəlif dövlət orqanlarından (qurumlarından) 500 əməkdaşın “Menecerlər üçün süni intellekt” təlimlərindən məzun olması<br>İnteraktiv tədris platformasında istifadəçilərin sayının 10000-ə çatdırılması<br>Yarışma platformasında ümumilikdə 1000 istifadəçi ilə 10 yarışmanın keçirilməsi<br>Süni intellektin təsiri və faydaları (o cümlədən fərdi məlumatların işlənilməsi və mühafizəsi) ilə bağlı məlumatların yerli mediada işıqlandırılması və ictimai müzakirələrin təşviqi |
| 8.3.3. | Süni intellekt və məlumatlarınidarəedilməsi üzrə təlimlərin təşkili və keçirilməsi üçün müvafiq təlimçilərin hazırlanması, eləcə də cəlb edilməsi | RİNN, ETN | İN ƏƏSMN, XRİTDX, DTX | 2026–2028 | | | |
| 8.3.4. | Süni intellekt, xüsusilə məsuliyyətli və etik süni intellekt, süni intellekt sistemlərinin tətbiqi zamanı fərdi məlumatların mühafizəsi ilə bağlı ictimaiyyətin məlumatlılığının artırılması | RİNN | ETN, İN | 2025–2027 | | | |
| 8.3.5. | Süni intellekt üzrə tədqiqatların təşviq edilməsi | ETN | RİNN, İN, MN | 2025–2028 | Yerli və beynəlxalq maliyyə institutları vasitəsilə süni intellektlə bağlı tədqiqatların maliyyələşdirilməsi istiqamətində əməkdaşlığın qurulması və ən azı 10 elmi tədqiqata maliyyə vəsaitinin cəlb edilməsi | Tədqiqatçıları, təcrübəçiləri və sənaye liderlərini ideyalarını bölüşmək və yeni həllər hazırlamaq üçün bir araya gətirmək üçün ən azı 20 konfrans, seminar və hakaton kimi tədbirlərin təşkil edilməsi | Ən son tədqiqatların praktiki tətbiqlərə çevrilməsini təmin etmək üçün akademiyalar, sənaye və dövlət orqanları(qurumları) arasında ən azı 10 əməkdaşlığın qurulması |
| **8.4. Əlverişli biznes mühitinin yaradılması** | | | | | | | |
| 8.4.1. | Ölkə üzrə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı yerli və xarici investisiyaların cəlb edilməsi məqsədilə tədbirlərin görülməsi | RİNN, İN | | 2025–2028 | Yerli və xarici investisiyaların müəyyən edilmiş prioritet sektorlara cəlb olunması | | Müəyyən edilmiş prioritet sektorlar üzrə azı 3 pilot layihənin həyata keçirilməsi |
| 8.4.2. | Ölkədə süni intellekt texnologiyalarının tətbiqi ilə bağlı sahibkarlıq subyektlərinə güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq dairəsinin genişləndirilməsi | İN | RİNN, MN | 2025–2028 | Sahibkarlıq subyektlərinin süni intellektin tətbiqi ilə bağlı üzləşdikləri maliyyə çatışmazlığının tədqiq olunması | Sahibkarlıq subyektlərinə dəstək mexanizmlərinin tətbiqi ilə bağlı normativ hüquqi akt layihələrinin hazırlanması və təsdiq üçün təqdim olunması | Güzəştli maliyyə resurslarına çıxış imkanlarının artırılması məqsədilə təşviqat tədbirlərinin həyata keçirilməsi<br>Azı 50 sahibkarlıq subyektinə güzəştli kredit verilməsi |
| 8.4.3. | Ölkənin texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarının istehsalı ilə bağlı fəaliyyət göstərən rezidentlərin cəlb edilməsi | RİNN, İN | | 2025–2028 | Süni intellekt texnologiyalarının istehsalı məqsədilə rezidentlərin cəlb edilməsi ilə bağlı araşdırmalar aparılması | Texnologiya parklarına və sənaye zonalarına süni intellekt texnologiyalarını istehsal edən rezidentlərin cəlb edilməsi | Ölkə üzrə texnologiya parklarında və sənaye zonalarında süni intellekt texnologiyalarının istehsalı |

### 9. Akronimlər

NK - Azərbaycan Respublikasının Nazirlər Kabineti

RİNN - Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

İN - Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

ƏƏSMN - Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

MN - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi

ETN - Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

DTX - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

XRİTDX - Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti

AİBNDA - Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi

VXSİDA - Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 16 may (Cümə günü) tarixli 182-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Cümə, 15 şabanül-müəzzəm sənə 1337.
16 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

### Hökumət Teatrosunda Axşam tamaşası

## NADİR ŞAH ƏFŞAR

Milli səhnəmizin müqtədir və mahir xadimi və sabiq baş rejissoru mərhum Hüseyn Ərəblinin qəbri üstə abidə rəkz [abidə qoymaq] və biçiz [köməksiz] qalmış ixtiyar validəsinin məişətini təmin etmək və ehtiyacını rəf etmək [aradan qaldırmaq] üçün

Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşları Müdiriyyəti cümə günü şabanül-müəzzəm ayının 15-də 1337 sənə (mayın 16-da 1919-cu ildə) milli səhnəmizin zəhmətkeşi mərhum Hüseyn Ərəblinskinin ruhunu dərxatir [yad] etmək üçün Müdiriyyətin aktyorları tərəfindən mərhum Hüseynin sevdiyi "Nadir şah Əfşar" faciəsi mütəntən [təntənəli] surətdə mövqeyi-tamaşaya qoyulacaqdır.

Bu tamaşanın həm mənəvi və həm də maddi cəhətini nəzərə alaraq, Müdiriyyət, aktyorları ilə bərabər ümidvardır ki, möhtərəm camaatımız fövqdə məzkur [yuxarıda deyilən] məqsədə diqqət edərək həman günü işbu tamaşada isbati-vücud [iştirak] etməyə əhəmiyyət verməklə belə axırıncı dəfə olaraq mərhumun ruhunu dərxatir və şad edərlər. Bununilə əlavə olunur ki, bu tamaşada "Nadir şah" rolunu ifa edən məşhur artist Abbas Mirzə Şərifov mərhum Hüseynin öz səliqəsi ilə tikdirdiyi Nadir şah libasında çıxacaqdır.

Biletlər indidən cəmi aktyorların iştirakı ilə əldə və teatrın kassasında satılmaqdadır. Bu məqsədə ianə olunarsa, idarəmizdə (Qubernski küçədə nömrə 43) kamali-məmnuniyyətlə qəbul edilib ianə sahibinin verdiyi paranın qədəri və ismi qəzetələr vasitəsilə göstəriləcəkdir.

Tamaşa başlanacaqdır axşam saat 8-in yarısında.

*Müdir: Zülfüqar bəy Hacıbəyli*

## ŞƏKİLƏRİN NƏZƏRİ-DİQQƏTİNƏ!

Həmin may ayının 16-da Parlaman dairəsində "Əhrar" fraksiyasının salonunda səhər saat 9-da Şəki Həmvətənlər Cəmiyyətinin ümumi iclası olacaqdır. Bilümum [bütün] şəkililərin təşrif gətirmələrini rica edəriz.

*Müvəqqəti Komissiya*
*8772*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*12 mayıs*

*(keçən nömrədən mabəd)*

General Miln[in] elanı haqqında Sosialist fraksiyası tərəfindən hökumətə verilmiş olan suala Rəisi-vükəla [Baş nazir] həzrətlərinin cavabı münasibətilə Əhməd Cövdət bəy söz alaraq şu nitqi irad edir [söyləyir]:

**Əhməd Cövdət [Pepinov]** - Əfəndilər! Əlbəttə ki, bizim fraksiyamız hökumətə bu sualı verərkən bundan bir məqsəd vardı və təbii, əhəmiyyəti olmasaydı, bu sualı da verməzdi. Məəttəssüf [təəssüf ki], əhəmiyyəti vardır. Azərbaycanın camaat vəkilləri məmləkətdə nə kimi əhvalat cərəyan edərsə bilməlidir, ta ki bizim vasitəmiz ilə də camaat vəziyyəti anlasın. Burada Rəisi-vükəla buyurdular ki, elanın əhəmiyyəti qalmamışdır. Üç ay irəli İstanbulda çap olunmuşdur və texnik cəhətdən buraya gec gəlib çıxmışdır. Kaş öylə olaydı, əhəmiyyətsiz olaydı. Lakin zənn etməyiriz ki, əllərində bütün dəryalar və simsız teleqramlar bulunduğu halda ingilis dövləti üçün texnik cəhət kağızların gec gəlməsinə bais olsun. Hərgah həqiqətən də bu elannamənin əhəmiyyəti olmasaydı, İngilis Komandanlığı onu yapışdırmazdı. Madam ki, vurulmuşdur, onda, əhəmiyyəti də vardır demək. Əgər Rəisi-vükəlanın buyurduğu kimi bu elan tətilə qarşı olsaydı, bu da həqiqətlə düz olmasın gərək, çünki biləks [əksinə], bu tədbir bəlkə daha da tətilin artmasına səbəb oldu. Və bu da əgər yalnız tətil üçün olmuş olsaydı, yalnız Bakıda vurulardı, daha Zaqafqaziyanın başqa yerlərində yapışdırılmazdı. Fəqət, məlumatımıza görə, Tiflis istisna olaraq, Zaqafqaziyanın qeyri şəhərində də vurulmuşdur. Bu vaxta kimi ingilislər bu elannamələri saxlayıb indi isə yapışdırıblar.

Deməli ki, bir əhəmiyyəti vardır. Buna görə bizim də bu məsələyə əhəmiyyət verməyimiz lazımdır.

Elannaməyə keçmədən əvvəl ona aid bir neçə kəlmə danışmaq istəyirəm. Müharibə bir tərəfin məğlubiyyəti ilə qurtarandan sonra zənn olunurdu ki, qalib, məğlub və bitərəf dövlətlərin nümayəndələrindən ibarət Sülh Konfransı qurulacaqdır. Bir çoxları Sülh Konfransı qurulacaq da, o konfransda mübahisəli məsələlər də adilanə surətdə həll ediləcəkdir; bir çoxları Sülh Konfransından məzlum və məhkum millətlərin azadlığı və daha bir çox şeylər gözləyirdilər. Bütün cahan və bəşəriyyət gözləyirdi ki, bu qanlı müharibədən sonra qurulacaq Sülh Konfransı yeni yaşama əsasları düzəldib, dünya da yeni bir həyat dövrəsinə girəcəkdir. Lakin qəzetə oxuyub təqib edənlər bilirlər ki, neçə aydan bəri davam edən Sülh Konfransı bu şeylərə oxşayan bir şey ortaya çıxara bilmir. Bu Sülh Konfransı millətlər konfransı deyil, qalib və məğlubların Sülh Konfransı deyil, ancaq qaliblərin konfransıdır. Orada sülh şəraiti ancaq məğlub millətlərə təklif və diktə etmək üçün çıxarılır.

Bu günlərdə almanların nümayəndəsini oraya çağırıblar və onlara sülh şəraitini veriblər ki, 2 həftəyə ya qəbul və ya rədd etsinlər. Bir vaxt vardı ki, Vilson[un] 14 maddələrindən çox dəm vurulurdu. İndi isə onlar da həyata tətbiq olunmayır. Onun əvəzində isə, beş qalib dövlətlərin təklifləri ancaq ortaya qoyulub tətbiq olunur.

Bilirsiniz ki, millətlərin bəqası adında bir təşkilat düzəltmək fikri var idi. İndi aşkar olur ki, o da beş qalib dövlətin birliyinə dönübdür. Və teleqrafların gətirdiyi xəbərlər də aydın göstərir ki, Sülh Konfransı dünyada yeni əsaslar və təbəddülata [dəyişikliyə] meydan verməyib, yaşadıqca köhnə imperializm və burjuaznı əsaslarını daha da möhkəmləndirmək və rahatlandırmaq istəyir. Yeni ölkələr qəsb edilir, yeni mandatlar paylanır. Türkiyə vilayətlərindən Suriyanın mandatını birisinə, Fələstin birinə, Ərəbistan, Misir birinə, Ermənistan birinə verilibdir. Demək onlardan sonra Zaqafqaziyanın da sırası gəlmişdir. Əgər Avropa Sülh Konfransı doğrudan da dünyada yeni əsaslar qurmaq istəsəydi, o vaxt cümlə millətlərin nümayəndəsini çağırıb ədalətli bir sülh yapa biləcək konfrans təşkil edə bilərdi. Fəqət, cahan imperialistləri bunu yapa bilməzlərdi və önümüzdəki faktlar da göstərir ki, həqiqət də böylədir. İndi burada qarşımızda İngilis Komandanlığı vardır ki, beş aydır onlarla münasibətdə bulunuruz. Rəisi-vükəla doğru söylədilər ki, ingilislər əvvəl dəfə buraya gəldikləri vaxt buraxılan intibahnamələr [vərəqələr, bəyannamələr] nəzərə alınmalıdır. Doğrudur, o vaxt İngilis Komandanlığı Azərbaycan xalqının arzusunu və əzmini bilməmiş və bəzi sərsərilərin iftiralarına inanmaqda idi. Bunlara baxmayaraq, onların general-qubernatorluğu yalnız hərbi olub, ancaq Bakıya aid idi. Zaqafqaziya ilə əlaqəsi yox idi.

Biz arzu edərdik ki, bu elannamənin əhəmiyyəti olmasın və yalnız divarda qalsın. Madam ki, burada İngilis Komandanlığı vardır, onlarla hesablaşmağa məcburuz. Və bu barədə onlar haqqında bir neçə söz deməliyəm.

*(mabədi var)*

## VƏTƏN GƏNCLƏRİNƏ BİR QAÇ SÖZ

Məlumdur ki, heç bir hökumət ordusuz yaşayammaz. Hökumət kəndi mövcudiyyətini göstərmək, təbiri-axərlə [başqa sözlə], boynuna yüklənmiş ağır milli vəzifələri ifa üçün istinad edəcəyi ən mühüm amil və ən birinci qüvvət vətənin ruhu məsabəsində [yerində] bulunan ordudur. Bir millətin səhneyi-dünyada tutduğu mövqe, o millətin ordusunun müntəzəm, müstəqim və ruhu yüksək olması halları ilə mütənasibdir.

Sənələrlə rus çarizmi altında əzilərək insan dərəcəsində sayılmaya haqqımız olmasın. Biz azərbaycanlılar bu gün kəndi müqəddəratımızı, istiqlalımızı kəndi əlimizdə bulundurmaq istəyiriz. Burasından əmin olmalıdır ki, sözümüzü dinləyəcək canlı və mükəmməl qüvvəyə, yəni müntəzəm bir orduya malik olmadıqca, istədiyimizə nail olmamız pək şübhəlidir.

Bu gün, daha doğrusu, müqəddəratımız, bütün haqq və hüququmuz süngümüzün ucundan asılıdır. Bu qüyudatı mütaliədən [bu qeydləri nəzərə aldıqdan] sonra bir də mühitimizə baxalım. Nə görürüz? Əsgərlik kimi şanlı, müqəddəs vəzifədən iraz edən [qaçan, üz çevirən] və övladlarını bu yoldan qurtarmağa çalışan bir çox atalar... Bu gün hər fərdimiz boş-boğazlığa xitam verərək qışlalara [kazarmalara] girəcəyimiz yerdə, övladlarımızın böylə müqəddəs vəzifədən kənar olması üçün ətəklərlə paralar tökürüz. Bəzimiz İran pasportu alaraq İran rəiyyətiyiz deyə, bəzimiz də min dürlü dəsais [fırıldaqlar] və hiylə ilə qaçırız. Əsgərlik denilincə, hər bir fərdimiz fəlakət ocağı, ölüm ayağıdır zənn ediriz.

Övladlarımızı vətən mühafizəsi kimi müqəddəs bir vəzifədən kənar edib də əziyyət verməyəlim. Pəki! Ya qəflətən yarın əcnəbi bir əl vətənimizə təcavüzlə uzadıldıqda milli və dini yaşayışımızın nasıl olacağı[nı], hər fərdimizin vəhşi sürülər kimi ovlanacağını nə üçün düşünməyiriz?

Bu gün zaman icabatı [tələbləri] ilə bir çox islahata möhtac isək də, onlar müruri-zamanla [vaxt ötdükcə] düzələr. Fəqət bu gün vətən gənclərinə tərəttüb edən [öhdəsinə düşən] vəzifə təmiz ürək və saf vicdanla qışlalara girərək bir təkamüli-əsgəriyyə meydana gətirməkdir [hərbi təlim almaqdır]. Ətrafımıza baxalım da, kiçik, böyük millətlərdən ibrət alalım.

Məlumdur ki, hər kəsin bir ümidi olur. Millətin də milli bir ümidi olur ki, o da zaman və inqilabdır. Bu iki qüvvətin hüsula gəlməsini dərnəzər edərək [nəzərdə tutaraq] səy edərsək, istədiyimiz hər amalı, hər qayəni əldə edəcəyimiz mühəqqəqdir [şübhəsizdir].

Vətənimizin bir çox yerlərində övladlarını azad etmək uğrunda ətəklərlə para saçan bəzi atalar vardır. Ya hanı həmiyyət? Vətən namusu, vətən qeydi böyləmi çəkilir?

Orasını düşünməyiriz ki, bu gün, ümumiyyətlə, əl-ələ verərək qızıl qanlarımızı gözəl qayə uğrunda axıtmağa hazır olmazsaq, bədihidir [açıqdır] ki, ümid günəşlərimiz tülu etməyəcək [doğmayacaq] və vətənimizdə o qızıl qanların əks səmərəsi olan qızılgüllər və çiçəklər açılmayacaq. Vətən övladı da cənnəti-səadətdə deyil, guşeyi-rəzalətdə yaşayaraq əziləcəkdir. Düşünməlidir ki, bir zamanlar sətvət və şükuhlarıyla [gücləri və ehtişamlarıyla], əzəmət və qüvvətlərilə dünyanı titrədən əcdadımız ordu, əsgərlik sayəsində istədiklərini yapmağa müqtədir olaraq hakimiyyət kürsülərindən hökmran olurdular. Türk oğlu yurdunu anlamazlığa qapılaraq silahını yerə atıb süngüsünü çıxarar-çıxarmaz, əski əzəmət və qüvvət də tədricən yoğalmağa [yox olmağa, itib getməyə] başlamışdır.

Artıq qullar kimi haqqımızda müamilə [rəftar] edildiyinə xitam verdirməliyiz və mövcudiyyətimizi göstərmək üçün hər fərdimiz silaha sarılıb süngünü qucaqlamalıyız. Bu gün keçirdiyimiz vəz [vəziyyət] və əhval bizim üçün həyat və məmat mənzələsindədir [ölüm-qalım məsələsi yerindədir]. Bu gün isbati-vücud edərək [özümüzü göstərərk] cəladət [igidlik] və rəşadətimizlə əsgəri qışlalarımızı təzyin etməzsək [bəzəməzsək], irəlidə vətənimiz əcnəbi ovlağı olmaqla üfüqümüzdə qara buludlar oynayacaqdır.

Bu gün hatifi bir nida [qeybdən gələn bir səs, bir nida] bizim də acizlər, zəiflər sırasından çıxaraq tam bir istiqlala nail olmamız üçün "Silah başına!" əmrini verir. Bu qəti və layətəğəyyər [dəyişməz, möhkəm] əmrin önündə hər azərbaycanlı həmiyyət və mətanəti-fövqəladə ilə diz çökərək vətən imdadına qoşmalıdır, ta ki bu surətlə babalarımızın getdiyi izlər[l]ə gedərək tariximizin yenə əski zərrin [qızıl] səhifələrini işğal edəlim.

*Əbdürrəhim Ağakişizadə*

## TELEQRAF XƏBƏRLƏRİ

**Əfqanıstan və inqilab**

Moskva - Şura Rusiya ilə Əfqanıstan arasında bir rabitə əmələ gətirmək üçün Moskvaya gəlmiş olan Milli Hind Konqresi üzvü professor Bərəkətullanın müsahibəsi qəzetələrdə dərc edilmişdir.

1919-cu il mart ayında əfqan əmiri Həbibulla xan qətl edildikdən sonra ingilisləri görmək istəməyən Əmanulla taxta çıxmışdı. Bərəkətulla Moskvaya Əfqanıstanın fövqəladə səfiri sifəti ilə göndərilmişdir və məqsəd Əfqanıstanla bolşevik hökuməti arasında daimi əlaqə peyda etməkdir.

Məlum olduğu üzrə, Əfqanıstanla İngiltərə arasında olan xüsusi əhdnaməyə görə, Əfqanıstan İngiltərədən başqa heç bir dövlətlə siyasi və diplomasi əlaqədə buluna bilməzdi. Şimdi Əfqanıstanın bu xətti-hərəkəti ilə həman əhdnamə ləğv edilmiş olur. Əfqanıstan sərmayədar (kapitalist) bir dövlət deyildir. Şura hökumətinin cahangirlərə [imperialistlərə] qarşı mübarizə açmaq dəvətnaməsi, gizli müahidələrin [sazişlərin] elan edilməsi Əfqanıstanda artıq təsir bağışlamışdır. (Burada xəbər qarışmışdır).

- Almaniya milləti təklif edilən sülh müahidəsinə [sazişinə] heç bir halda razı olmaz. Fəqət onlar münasib vaxt bəkləyəcəklərdir ki, həman müahidəni heçə yendirsinlər. Məğlub dövlətləri şimdiki halda qurtara biləcək yeganə vasitə ümum cahan inqilabı olacaqdır.

- London - Rəsmi surətdə verilən xəbərlərə nəzərən, Arxangelsk cəbhəsində Müttəfiq qoşunların həmləsi müvəffəqiyyətli olmuşdur.

Çörçill öz nitqində bəyan eyləmişdir ki, Rusiyada olan qitəatın [hərbi hissələrin] təğyir və təbdil ediləcəyi [dəyişdiriləcəyi] barəsində Rəisi-vükəla [Baş nazir] onu inandırmışdı. Bolşevizm bütün cahanda ən dəhşətli bir şeydir. Ondan xilas olmaq yolu Almaniya üçün açıqdır. Bolşevizm qarşısına müharibə açan və bolşeviklərin qabağında möhkəm sədd olan Almaniya demokratiyası cahani-mədəniyyət ilə birləşməyə birinci qədəm qoyur.

**Eston Hökuməti**

Novoçerkassk - Müttəfiq mənbələrdən verilən xəbərlərə nəzərən, Estoniya Parisdə olan nümayəndəsi vasitəsilə Fransaya Estoniyada müstəqil dövlət elan və Milli Məclis dəvət edildiyini ixtar etmişdir [xəbər vermişdir].

- Londonda müntəşir [nəşr olunan] "Novosti mira" qəzetəsi yazır ki, mövsuq [mötəbər] mənbələrdən aldıqları məlumata görə, hal-hazırda bolşeviklərin güclü ordusu vardır. Yenə həman qəzetənin məlumatına görə, Almaniya Xariciyyə naziri Brokdorf-Rantsau, Kautski ilə bərabər bolşeviklərlə danışığa girişmək üçün Moskvaya əzimət edəcəklərdir [yola düşəcəklər].

## SÜLH ƏTRAFINDA

**Almaniyaya təqdim edilən sülh şərtnaməsi**

*(keçən nömrədən mabəd)*

1917-ci il noyabr inqilabı zamanında bağlanmış olan və Rusiya torpağına aid olan Brest-Litovsk və sair müahidənamələr [sazişlər] ləğv edilməlidirlər. Bu müahidənamə mövcibincə [əsasında], Müttəfiqlər Rusiyanın Almaniyadan təminat alması hüququnu saxlayırlar. Almaniya Yaponiyanın hər bir hüququnu və Kiao-Çaoda olan dövləti əmvalını [mal-mülkünü], Sindaodan Sankoya qədər məsafəni Yaponiyaya tərk etməlidir. İki ayın müddətində Almaniya öz ordusunu tərxis etməlidir. Almaniya ordusu 100 min nəfərə yetirilib, könüllü üsulu əsasında olmalıdır. Ərkani-hərb [Hərbi qərargah, Baş ştab] ləğv edilməli və Hərbiyyə Nəzarətində olan mülki ştab ixtisar edilməlidir. Siyahıda göstərilən miqdardan ziyadə ləvazimi-hərbi hazır edilməməlidir. Boğucu qazlar və yandırıcı əczalar [dərmanlar, məhlullar], tanklar və zirehli avtomobillər emalı qadağan edilir. Almaniyanın qüvveyi-bəhriyyəsi [donanması] 6 zirehli, 6 yüngül kruvazer [kreyser], 12 müxrib gəmi [destroyer] və 12 torpedodan ziyadə olmamalıdır. Qalan hərbi gəmilər Müttəfiqlərə təslim edilməlidir. Bəhri ştab [Donanma qərargahı] 50 min nəfərdən ziyadə olmamalıdır. Almaniya bütün təhtəlbəhrləri [sualtı gəmiləri] qaytarmalıdır. Yeni təhtəlbəhrlər inşası və əldə edilməsi qadağan edilir. Bəhri ştab cəm edilməsi uzun müddətlə könüllü üsulu əsasında olmalıdır. Almaniyanın hərbi və bəhri hava flotu olmamalıdır. Yalnız 100 hidroplan saxlaya bilər, bunlar da oktyabrın 1-nə qədər minaları axtarıb tapmalıdırlar. Qeysəri-məğlubun [məğlub kayzerin] təslimi tələb ediləcəkdir. Beş düvəli-müəzzəmənin [beş böyük dövlətin] birər nümayəndələrindən ibarət olan Məhkəmeyi-Alidə [Ali Məhkəmədə] qeysər mühakimə ediləcəkdir. Həmin məhkəmə müharibə zamanında cinayət yapanları da mühakimə edəcəkdir. Almaniya 7 maddə ilə qrajdanların zərərlərini ödəməlidir. Almaniya öz müttəfiqlərindən zəbt etdiyi şeyləri tamamilə qaytarmalıdır. Xəsarəti iadə edən [zərərləri kompensasiya edən] Beynəlmüttəfiq [Müttəfiqlərarası] Komissiya Almaniya tərəfindən xəsarəti ödəmək üçün verəcəyi məbləği təyin etməlidir. Bu məbləğ 30 il müddətində verilməlidir. Komissiya Almaniyada vergi üsulunu təyin və aşkar edənə qədər Almaniya 1000 lirə verməlidir. Komissiya baş qərargahı Parisdə olacaqdır. Müttəfiqlərin ticarət və balıq gəmilərinə toxunan zərəri son tonna qədər verməlidir. İki ay müddətində Almaniya 1600 tondan böyük olan ümum gəmilərini, 1000-dən 1600 ton arasında gəmilərin nisfini [yarsını] və balıq gəmilərinin dörddən birisini Müttəfiqlərə verməlidir. Beş il müddətində Almaniya Müttəfiqlərdən ötrü hər il 200 min ton ticarət gəmiləri inşa etməlidir. Almaniya öz iqtisadi qüvvələrini xarab olan yerlərin abadlığı üçün vagüzar etməlidir [verməlidir]. Buna görə də öz makinalarını verib, abadlıq üçün lazımi material hazırlamalıdır. On il müddətində Almaniya Fransada kömür ehtiyacatını rəf etməlidir [aradan qaldırmalıdır]. Bundan əlavə, Fransaya ixtiyar verməlidir ki, hər il 7 milyon ton Almaniyadan kömür alsın. Böylə haqq Belçika və İtaliyaya dəxi verilməlidir. Elba, Oder, Neman və Tuna [Dunay] nəhrləri beynəlmiləl elan edilməlidirlər. Süveyş kanalı sərbəst olmalıdır. 15 il müddətində təminatdan ötrü Reyndən qərbə olan yerlər və istehkamlar Müttəfiqlər əlində olmalıdır. Hərgah sülh şəraitinə tamamilə əməl edilərsə, beş-on ildən sonra istila müddəti əskilə bilər. Almaniya Brest-Litovsk və Bükreş [Buxarest] müahidənamələrinin ləğv edilməsini təsdiq etməlidir.

**Almaniya sosialistlərinin bütün cahan sosialistlərinə xitabnaməsi**

Berlində müntəşir [nəşr edilən] "Forverts" qəzetəsində Almaniya sosialistləri bütün cahan sosialistlərinə işbu xitabnamə ilə müraciət etmişlərdir:

*"Versal Sülh Əhdnaməsinin layihəsi sülh tərəfdarlarına ən ağır təsir eylədi. Versal diktəsi ilə təklif edilən və cəbrən bizə qəbul etdirilən sülh əhdnaməsi milli müdafiədə sosialist firqələrinin əxz etdikləri [tutduqları] mövqedə haqlı olduqlarını isbat edir. Biz həmişə bilirdik ki, Etilaf [Antanta] dövlətləri sülh təlqin etdikləri təqdirdə Almaniyanı nə kimi xətrələr [təhlükələr] gözləyir. Ona görə də var qüvvə və vasitələrlə bu əhvalın qarşısını saxlamaq istədik. Başqa yerlərin sosialistləri! Şimdi siz bir xətti-hərəkətimizi düşünürmüsünüz? Bizə təlqin edilən sülh Almaniya Cümhuriyyətinin qəlbgahına mühlik [öldürücü] bir zərbə təşkil edir. Sərmayədar Fransa, İngiltərə və Amerika hökumətlərinin planı ilə sosialist Almaniya üçün qəbulu qeyri-mümkün hal törədirlər. Eyni zamanda beynəlmiləl sosializmə mühlik zərbə endirilir. Biz Almaniya sosialistləri bütün müharibə zamanında sülh tərəfdarı olmuşuq. Bizim arzumuz millətlərin sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamaları olmuşdur. Tainki bu yol ilə yeni müharibə bir dəxi təkrar edilməsin. Etilaf [Antanta] dövlətləri bütün müharibə zamanında bütün cahana bildirirdilər ki, onlar qeysər və Almaniya zabitanı [zabitləri] qarşısına müharibə edirlər, Almaniya milləti qarşısına müharibə et[mə]mişlərdir. Fəqət Versal müahidəsi büsbütün Almaniya millətinin əleyhinə tərtib verilmişdir. Hərgah iqtisadi və mali təzyiqat vücuda gələrsə – necə ki belə də zənn edilir – o zaman Almaniya əmələləri qulama dönərək ancaq sair yerlərin sərmayədarlarına xidmət etməlidirlər. Almaniya milləti müharibədən yetişmiş xəsarətləri ödəmək istəyir. Noyabrda xəl edilmiş [taxtdan endirilmiş] hökmranının əmri ilə beynəlmiləl qanundan kənar olaraq yetirilən xəsarətləri əda etməyi [kompensasiya etməyi] arzu edir. Almaniya milləti istəyir ki, Belçikanı abad etmək xərcini öhdəsinə götürsün. Almanlar Şimali Fransanın abad və ümranını [rifahını] öhdəsinə götürməyə razıdırlar. Bunun üçün də, əlbəttə, Almaniyada iqtisadi işlərdə bir intizam olmalıdır. Fəqət Versal müahidəsi Almaniyanın iqtisadiyyatı üçün edamdır. Həman şəraiti qəbul etmək imkan xaricində olduğundan, onun keçməsinə Almaniya sosialistləri mümaniət [maneçilik] göstərəcəkdirlər. Eyni zamanda nifrət mənbəyi [olan] dayanmaz 4 il müharibədən dolayı, əsasən, sarsılmış olan Avropa asudə olmaz. Versalda hazır edilən sülh maddələrinin hər biri Vilsonun 14 maddəli müahidəsini gülünc hala qoyur. Almaniya millətinin istiqlaliyyətə haqqı olmaz. Dansiq, Mets və sair əsil Almaniya oblastları Almaniya Cümhuriyyətindən qoparılıb, o yerlərin əhalisi cəbrən əcnəbi boyunduruğu altına salınır. Saar hövzəsinin məharətlə, andırmaqsızın ilhaq edilməsinə də əməl etmək qabil deyildir. Hal-hazırda Almaniyanı parçalayıb doğrayan müstəbid Etilaf nümayəndələri qarşısında mütəvəffa [vəfat etmiş] Bismark aciz bir şəxs idi. Etilaf dövlətləri bu sülh təklifi ilə bizə Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] girməmizi təklif edirlər. Cəmiyyəti-Əqvamda da bunlar hökmran olub, Almaniya millətinin əleyhinə gedənlər də Cəmiyyəti-Əqvamda bunlar olacaqlardır. Hər bir ədalətdən kənar olan bu sülh müahidəsi möhkəm və mətin sülh verəmməz. Bu sülh müahidəsi ancaq nifrət törədər. Bu müahidə irticapərəstlərin milli təşviqatını artırar. Camaatın sosializmə varmasına əngəl törədər. Berndə sülhün ümumi məramnaməsi barəsində bitərəf dövlətlərin sosialistləri Etilaf dövlətləri ilə Mərkəzi Avropa dövlətləri arasında bir saziş əmələ gətirmişdilər. Onlar Vilson notasının təbdil edilməsinə [dəyişdirilməsinə] qarşı etiraz edirdilər. Saar və Dansiq məsələlərinin həllini o surətlə arzu edirdilər ki, bir daha Almaniyanı müharibəyə sövq etməsin. Etilaf dövlətləri möhkəm və mətin sülhün təmin edilməsinə çalışmayıb, yalnız süngülərinə ümidvar olaraq cəbrən fikirlərini yeritmək istəyirlər.*

*Şimdi beynəlmiləl sosializm səsini öylə çıxararmı ki, qalib cərgəsində özlərini hiss edən hökmranların qulaqlarına o səs yetişsin? Biz zənn edirik, səsini ucaldar.*

*Almaniya milləti məhv olmaq ərəfəsindədir. Bundan əlavə, xəritəyə Avropa müqəddəratı qoyulmuşdur. Bütün məmləkətlərdə camaat dəhşətli faciələri keçirməlidir. Yalnız bir alman milləti tamamilə məhv olmaz. Bu hal sair millətlərə keçəcəkdir. Ona görə, bütün cahan demokratiyası, təcavüzkaranə sülhün qarşısına çıxınız. Zira bu təcavüzkaranə sülh Avropaya sülh və müsalimət [əmin-amanlıq, asayiş] verməyəcəyi kimi, sosialist məmləkətlərə də dəhşətli zərbə endirəcəkdir."*

**Almanların notası**

Mayın 9-da Versalda Almaniya Xariciyyə naziri Brokdorf-Rantsau Sülh Konfransı sədri Klemansoya bu məzmunda bir nota təqdim eyləmişdir:

*"Cənab rəis, Almaniya sülh nümayəndələri özlərinə təqdim edilən sülh şərtnaməsinə aşina oldular. Heyət etiraf edir ki, müahidənin baş maddələri əvvəlcə vəd edilən ədalətli sülh əsaslarına müvafiq deyildirlər. Heyət gözləyirdi ki, Almaniya millətinə və bütün insaniyyətə verilmiş olan vədlər bir xülyadan ibarət olub qalacaqdır. Həman müahidədə öylə tələblər vardır ki, heç bir millət onu qəbul edəmməz. Bundan əlavə, bizim mütəxəssislərin rəyinə görə, tələblərin bəzilərinə əməl etmək əbədən mümkün olmaz. Almaniya sülh heyəti müahidəni müzakirə edəcək, sonra Etilaf dövlətlərinə öz rəy və mülahizatını bildirəcəkdir."*

## QƏZETƏLƏRDƏN

**Hacı-Tərxandan axırıncı xəbərlər**

Bir həftə bundan irəli Hacı-Tərxandan [Həştərxandan] Petrovska, ordan da Bakıya gələn iki nəfər balıqçı Hacı-Tərxan əhvalı haqqında böylə məlumat verirlər:

Burjuaziya bilaistisna [istisnasız] çoxdan həlak olmuşdur. Bunların arasında bir çox keşiş, dava vəkili, müəllimlər və qeyrilər vardır. Bu yaxınlarda çörək və balıq paylarının artırılmasını tələb edən fəhlələrdən 3 minə qədər asılıb güllələnmişdir. Kizlyar səmtində pərakəndə edilən 12-ci Ordu əsgərlərindən sağ qalanları səpmə yatalaq və qara çiçək azarını şəhərə gətirmişlər. Uşağı olan arvadlardan başqa qalan arvadların hamısı 16 yaşından 40 yaşına qədər naxoşlara baxmaqdan ötrü cəm edilmişlərdir. Çörəyin girvənkəsi 40 manat olduğu halda, fəhlələr gündə 31 manat muzd alırlar. Zaqafqaziya haqqında cürbəcür yalan xəbərlər buraxırlar, o cümlədən guya Azərbaycan fəhlələri ayda 120 manat məvacib alıb özləri də ingilis süngüsünün gücü ilə işləyirlər. Hacı-Tərxanda bu xəbərlərə inanmayırlar, çünki kənardan doğru xəbərlər alırlar. Bolşevik komissarlarının bir tək fikri Bakını alıb neftlə bərabər Bakıda olan ərzaq şeylərini çəkib aparmaqdır. Çünki bolşeviklərin ərzaq şeylərinə artıq ehtiyacı vardır. Bolşevik idarələrində və Qırmızı orduda xidmət etməyən Hacı-Tərxan əhalisinin arzusu bir növlə Hacı-Tərxan cəlladlarının əlindən qurtarmaqdır. Buna görə ingilis aeroplanları Hacı-Tərxan üzərində uçduqda, bombalardan gözlənən təhlükəyə baxmayaraq, şadlıqla qarşılanmışlardır.

**Rusiyada**

Bolşeviklər səfərbərlikdə hər növ vasitələrə əl aparırlarsa da, yenə müvəffəq olmayırlar. Bolşeviklərin cəbhəyə gedən alayları 500-dən artıq olmayır. Bunun da nisfi [yarısı] yolda qaçır.

**Petroqradın işğalı**

"Çernomorski qazeta"da mayın 4-ü tarixi ilə yazılır: Petroqrad könüllülər tərəfindən işğal edildi. Bolşevik komissarları həpsi edam edilmişlərdir. Pokrovski və Kutelov şayiata görə, Torqovını işğal etmişlərdir. Təfsilat sabahkı nömrədə.

**Samaranın işğalı**

Yekaterinodar - OSVAQ qəzetəsinin məlumatına nəzərən admiral Kolçak tərəfindən Samara işğal edilmişdir.

* Moskva - Hərbi İşlər komissarı bəyan edir ki, Qırmızı qoşunlar Romaniya qoşunları və Don hövzəsində Denikin qoşunları qarşısına həmləyə başlamışdır.

**Leninin nitqi**

Stokholmdan xəbər verirlər ki, Leninin nitqi bütün şəhərdə yapışdırılmışdır. Bu nitqdə Lenin deyir ki, bolşeviklər işin yarısına qədər öz işlərini görmüşlərdir. O cümlədən burjuaziyaya qalib gəlmişlərdir. Lakin işin çətin nisfi [yarısı] hələ indi başlayır. Cahan inqilabı bolşeviklərin imperializm üzərinə qalib gəlmələrindən asılıdır.

## NƏZARƏTLƏTDƏ [NAZİRLİKLƏRDƏ]

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin məruzəsi nəticəsi olaraq hökumət tərəfindən Qarabağ general-qubernatoruna əmr verilmişdir ki, təcili surətdə qaçqınları öz yerlərində sakin etmək üçün lazımi tədabir ittixaz edilsin [tədbirlər görülsün].

- Zaqafqaziya cümhuriyyətlərinin Tiflisdəki konqresində iştirak üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən nazir müavini Rüstəm xan Xoyski cənabları bu günlərdə Tiflisə ezam ediləcəkdir.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Zəngəzur qaçqınları haqqında geniş bir məruzə tərtib verərək Vükəla Şurasına [Nazirlər Kabinetinə] pişnihad [təqdim] etmişdir. Məruzədə təcili surətdə qaçqınlara yardım edəcək vəsait göstərilmişdir. Xüsusi bir komisyon təşkil edilərək geniş vəkalət və böyük məbləğlə mücəhhəz [təchiz] edilməlidir. Nəzarət məbləği 15 milyon 750 min manat göstərmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti işsizlərin fəna əhvalını nəzərə alaraq müavinət vəsaiti tapmaq məqsədilə nisanın [aprelin] 26-da Kəsbkarlar [Həmkarlar] İttifaqı Şurasına müraciətən, işsizlər əhvalına dair məlumat vermək üçün bir nəfər nümayəndə göndərilməsini rica etmişdi. Şura Nəzarətin [Nazirliyin] kağızını cavabsız buraxmışdır. Buna baxmayaraq, Nəzarət ikinci dəfə, heç olmasa məlumat verməyi və müavinət vəsaiti göstərilməsini rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Ticarət və Sənaye Nəzarəti ilə etilafa [razılığa] gəlmişdir ki, Ağdamdakı ərzaq anbarından xəstə qaçqınlar üçün qəhvə qayrılmaq üçün 500 pud ağ arpa buraxılsın.

- Yaxın Şərqdə Amerika Müavinət Cəmiyyəti ancaq ermənilərə müavinət göstərdiyi üçün Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti həman Cəmiyyətə müraciətən rica etmişdir ki, Yevlax şose yolundakı darüleytamı [yetimxananı] da öz ixtiyarına alsın. Oradakı 146 ətfaldan [uşaqdan] 120 nəfəri ermənidir.

- Müavinət üçün müraciət edən işə yararlar iş tapmaq arzusunda olduğu, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti bütün milli təşkilatlara müraciətən işə yararların siyahısı təqdimini rica etmişdir. Həman məqsədlə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti milli təşkilatlardan emalatxanalar və başqa zəhmət müəssisələri güşadı [açılması] haqqında məlumat istəmişdir.

- Ətfalın [uşaqların] fəna halda olduğunu nəzəri-etibara alaraq Ümuri-Xeyriyyə və Nafiə Nəzarətində xüsusi bir qanun layihəsi tərtib verilməkdədir ki, ətfal əvəzində valideyni və yaxud qəyyumları cavabdəhəndə [cavabdeh] olacaqdırlar.

- Bir çox qaçqınlar işə yarar olduqları halda, iş yoxluğundan dövlət xərci ilə dolanmaqdadırlar. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti dövlət xəzinəsi məxaricatını azaltmaq və qaçqınları işə alışdırmaq məqsədilə bir çox emalatxana açmaq təsəvvüründədir.

**"Müsavat" firqəsindən Məsai Nəzarətinə böylə bir ərizə verilmişdir:**

Məsai Nəzarəti hüzuri-alilərinə!

Aşağıda adları yazılan adamları Sabunçuda Putayevin mədənində qulluqdan xaric ediblər:

Makar Avakimov – maslyonşik [yağlayıcı], Armenak Puryans – tartalşik [dartaycı], Artun Aqriyev – tartalşik, Qazarşah Nəzərov – tartalşik, Sergey Ambarsumov – tartalşik, Məhəmmədhüseyn Baxşı oğlu – tartalşik, Artun Məliksitov, İsak Ter-Mkırtıçov, Kiqor Qiqoqiyov, Alumili Ustinov.

Məsai Nəzarəti-cəliləsi hüzuri-alilərindən istirham və rica olunur, bunların geri qəbul edilmələri haqqında sərəncam buyursunlar. Fəhlələr bu barədə fabrika inspektoruna da [fabrik müfəttişinə də] ərizə veriblər.

## MÜSAHİBƏ

**- 1 -**

Bu günlərdə mühərrirlərimizdən birisi Ticarət, Sənaye və Ərzaq Nəzarətində məsuliyyətli bir mövqe tutan bir zat ilə müsahibədə bulunmuşdur. Ticarət, Sənaye və Ərzaq Nəzarətinin əhvalı, ümumiyyətlə, bu surətdədir: Ticarət və Sənaye Nəzarəti hal-hazırda üç məsələ qarşısında bulunur:

1) İki Nəzarətin birləşməsi münasibətilə məmurlar heyətini əskiltmək;

2) Sabiq Nəzarətlərin nöqsanlarını düzəltmək;

3) Əhalini ərzaq və birinci zəruri şeylərdən təmin etmək və məmləkətin ticarət işlərini təhərə salmaq.

Birinci məsələni Nəzarət böylə həll edir ki, lüzumundan artıq nə qədər xidmətçi varsa, əzl [işdən kənar] edir. Bu məqsədlə 200-dən ziyadə xidmətçi qulluğundan çıxarılır. Şübhəsizdir ki, bu üzdən xəzineyi-dövlət ildə milyonlarca iləri olacaqdır. Həm də bu iş pək asandır. İkinci məsələyə gəlincə, burası bir qədər müşküldür, zira sabiq Nəzarətlər o qədər xətalar işləmiş, o qədər nöqsan kəşf edilmişdir ki, bunları təmizləmək, Nəzarət fəaliyyətini düz yoluna salmaq üçün vaxt və ciddən çalışmaq lazım gələcəkdir. Məsələn, sabiq Nəzarətdə Səlimov Hidayət nam [adlı] bir kontrolyor var imiş. Fəqət bu adam rəsmi surətdə təyin edilməmişdir. Anlaşılır ki, hökumətdən maaş dəxi al[m]ırmış. Bu nə üçün imiş? Vəzifəsi nə imiş, dövlət məmuru imişmi, yoxsa nə imiş? Məmur isə nə üçün maaşsız və təyinsiz qalmış? Deyilsə, nə kontrolbazlıqdır?

İştə, suallar!

Digər tərəfdən, sabiq Ticarət və Sənaye Nəzarətində bir çox sui-istemal və istifadələr kəşf edilmişdir. Məsələn, bir çox müqavilənamələr əqd edilmiş, fəqət əməl edən yoxdur. Mümkün də olmayacaqdır. Çünki çox adamlarla müqavilə əqd edilib neft icazəsi verilmişdir ki, müqavilənamədə ancaq familyaları var. Amma adları, adresləri, yerləri, nə iş sahibi olduqları əsla məlum deyildir. Şübhəsiz ki, böylə adamlar müqavilənaməyə əməl etməyəcəklər və onlardan neustoyka [öhdəliyin yerinə yetirilməməsi müqabilində nəzərdə tutulan cərimə] almaq da mümkün olmayacaqdır.

Bundan əlavə, bəzi adamlara icazə verilibdir əcnəbi məmləkətlərə neft aparsın, bu şərtlə ki, müqabilində Azərbaycana qənd gətirsinlər. Bu adamlar neft və cövhəri aparmışlar, amma qənd gətirməmişlərdir. İndi də gəlib Nəzarətə təklif edirlər ki, qənd əvəzinə üç ay bundan sonra pudu 75 manatdan buğda gətirsinlər.

Əlbəttə, Nəzarət buna razı olmamışdır və ola bilməz də. Zira Nəzarət nümayəndələri Cavad qəzasından təzə taxılı 45 manata danışmışdır və alacaqdır və şübhəsizdir ki, 1-2 ayadək təzə taxıl çıxacaq və pudu 20-30 manatadək yenəcəkdir.

Təəccüb burasıdır ki, sabiq Nəzarət bu adamlara nə üçün və hangi təminatla icazə vermişdir.

Bununla bərabər, hökumət məmurlarının özlərinin də sui-istifadə və ehtikarı [möhtəkirlik əməli] kəşf edilməkdədir. Məsələn, Gürcüstan sərhədinə yaxın mövqiflərdən [stansiyalardan] birisində yeni Nəzarət kontrolları [Nazirlik müfəttişləri] bir qədər mal tutmuşlardır. Kağızlardan anlaşılmışdır ki, bu mal guya 100 pud saqqız imiş və göndərən mühafizə naçalniki Səfərov imiş. Mal icazəsiz göndərildiyindən, tutub gömrükxanaya göndərmişlərdir. Məlum olmuşdur ki, göndərilən 100 pud saqqız deyil, 116 pud 30 girvənkə parafin imiş.

Şimdi Nəzarət ən böyük bir məsələ qarşısında bulunur. Əhaliyə mümkün olan qədər ərzaq və sair zəruri şeylər vermək və Azərbaycanla sair məmləkətlər arasında ticarət münasibatı hasil etmək. Bu məsələdə Nəzarət bir çox müşkülata uğrayır.

Məsələn, əhaliyə ərzaq vermək.

Şübhəsizdir ki, camaata ucuz qiymətlə ərzaq şeyləri verə bilmək üçün Nəzarət iki mühüm təşkilata malik olmalıdır. Bunlardan birisi nə yerdən lazım və mümkün isə mal alıb Azərbaycana gətirməli, digəri isə Nəzarət tərəfindən vasitə olaraq ərzaq şeylərini əhaliyə yetirməlidir.

Almaq məsələsinə gəlincə, bu vaxtadək bu xüsusda öylə gözə görünən bir iş görülməmişdir. Böylə bir təşkilat, bir aparat müntəzəm surətdə təşkil edilməmişdir. Bu ya o şəxslərlə bağlanan müqavilənamələr dəxi yuxarıda zikr olunduğu vəchlə, gözlənən və istənən nəticəni verməmişdir. Fəqət bununla bərabər, Nəzarətin yeni heyəti bu xüsusda ciddi tədbirlər görməkdə və ən yaxın zamanda böyük nəticələr əldə edə biləcəyinə əmin olmaqdadır.

O ki qaldı şeyləri paylamaq məsələsinə, burada daha artıq müşkülat çıxır. Bu da möhtəkirlərin xəyanəti və camaatın avamlığından nəşət edir [irəli gəlir]. Böylə ki, məlum olduğu üzrə sabiq nazirlər dövründə Ərzaq Nəzarəti camaatın öz "vəkillərinə" mal buraxırdı ki, xalqa paylasınlar, "vəkillər" isə malları camaata verməyib satırdılar. Bu xəyanəti gördükdən sonra yeni Nəzarət daha öylə adamlara şey buraxmaq istəməyib, camaatın halını nəzərə alaraq qərar vermişdir ki, məsuliyyətli bir müəssisə vasitəsilə paylasın. Bu məqsədlə "Kəndçilər İttifaqı" adı ilə məruf [tanınan] cəmiyyəti yaxın çəkərək Nəzarətdə ona yer vermiş və əhaliyə ərzaq şeylərini həman cəmiyyət vasitəsilə paylamağa başlamışdır.

Amma xainlər, möhtəkirlər bu işdən narazı qaldıqlarından, fitnəyə [əl atmış], başlamışlardır min dürlü fitnə çıxarmağa. Məsələn, cəmiyyəti xalqın nəzərindən salmaq üçün həman adamlar camaat arasında səs salmışlar ki, guya hökumət bu şeyləri camaata pulsuz paylamaq üçün buraxmışdır. Lakin cəmiyyət üzvləri pulsuz verməyib, camaata satır və hasil olan məbləği öz ciblərinə qoyurlar.

Halbuki bizim Nəzarətdən aldığımız məlumata görə, hökumət o şeyləri pulsuz buraxmayır və əlbəttə, buraxmaz da. Ancaq o cəmiyyətin əli ilə buraxır ki, şeylər gedib camaatın əlinə çatsınlar, həm də ucuz çatsınlar.

Ona görədir ki, camaat bu fitnəçilərin sözünə qulaq asmayaraq nə qədər mal vüsul olmuşsa [çatmışsa], pulunu verməlidirlər ki, Nəzarət dəxi həman pul ilə yenidən mal alıb paylaya bilsin. Əgər böylə olsa, Nəzarət camaata hər şey alıb verəcəkdir. Əhali öz ehtiyacını həman Kəndçilər İttifaqı vasitəsilə bildirərsə, hökumət həmişə onların hər bir ehtiyacını ödəməyə çalışacaqdır.

Fəqət əhalinin ehtiyacı yalnız ərzaq şeylərinə deyil, əlbisəyə, zər'i mala [bitkilərdən hazırlanan sənaye mallarına] dəxi böyük ehtiyacı vardır. Nəzarət bunu da nəzərə alaraq qərar vermişdir, Tağıyev fabrikasının mallarını özü təhvil alaraq ucuz qiymətlə camaata satdırsın.

Amma burada da fabrika tərəfindən böyük müşkülat çıxarılır. Böylə ki, aldığımız məlumata görə, fabrika malları aşağıda göstərilən qiymətlə buraxmağa razı olurmuş: bez 11 manat 20 qəpik, kətan 13 manat, lankord [pambıq parça növü] 13 manat, döşəkağı 25 manat, bomazı 13 manat, ərəbi 35 manat, kripton 15 manat, raqoja [qalın kətan parça] 45 manat, zayit 35 manat, dəstmal (?) – 8 manat.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 16 may (Cümə günü) tarixli 182-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Fabrika malları Nəzarətə bu qiymətlə buraxmaq istəyir. Şübhəsiz ki, Nəzarət dəxi malı bu fiyatla [qiymətlə] alacaq olarsa, əhaliyə satdırdıqda xərcini və bəlkə bir faiz mənfəət dəxi üstünə gəlməli olacaqdır. Halbuki müxtəlif vasitələrlə vəsiqə ala bilmiş olan xoşbəxtlər elə hal-hazırda bazarda bu qiymətlə mal sata bilirlər.

Digər tərəfdən, hamıya məlumdur ki, Azərbaycan pambığının birinci növünün bir pudundan 170, ikinci növündən 150 arşın mənsucat [toxunma mal] hasil olur. Fabrika pambığın pudunu almışdır 80-120 manata. Bu hesaba baxıldıqda, fabrikanın Nəzarətdən tələb etdiyi qiymət insanı bir növ heyrətdə buraxır. Əcəba, fabrika hangi hesabla böylə qiymət tələb edir? Yəqin ki, hökumət bu şeyləri camaata ucuz satdırmaq üçün aldığından, buna heç vaxt razı olammaz. Əlbəttə, fabrika gərək mənfəət götürsün. Fəqət mənfəətin də bir həddi-hesabı olar, nəinki bu qədər. Ona görədir ki, Nəzarət bu işi mütəxəssislərdən ibarət bir komissiyaya vermək istəyir.

Bu məsələdə fabrikanın nə qədər kəmfürsətlik etdiyini təsvir üçün məsələni bir qədər daha açayım.

Məlumdur ki, hökumətimiz Azərbaycanda hasil olan ümum xammalların, o cümlədən pambığın əcnəbi məmləkətlərə aparılmasını mən [qadağan] etmişdir. Bu surətlə pambıq məhsulu tamamilə Azərbaycanın daxilində qalır. Vətənimizdə sair fabrika olmadığından, Tağıyev fabrikası meydanda özünü tək görüb rəqabət çıxaran olmayacağından əmin olaraq, pambığı ucuz qiymətə alır. Bu surətlə, deməli, Tağıyev fabrikası bir tərəfdən xammal ixracının məni [qadağan edilməsi] haqqındakı qanundan bilisti-fadə [istifadə etməklə] xammalı ucuz alır, digər tərəfdən də digər rəqib bulunmadığından öz mallarını mümkün qədər baha satmağa çalışır ki, bu vəchlə öz vəziyyətindən ikitərəfli istifadə, daha doğrusu, sui-istifadə edir. Lakin hökumət camaatın hamisi olduğundan, şübhəsiz ki, əhalinin mənafeyini müdafiə etməlidir. Odur ki, heç vaxt hökumət bu qiymətlərə razı ola bilməz və olmamalıdır. Ümidvarız ki, Ticarət və Sənaye Nəzarəti bu məsələdə camaatın mənafeyini ciddi və qəti surətdə müdafiə edəcəkdir.

Fabrikadan söz düşmüşkən bir məsələdən daha bəhs edəyim.

Ticarət və Sənaye Nəzarətindən aldığımız məlumata görə, bu günlərdə fabrikanın idarə məmur və xidmətçiləri (administrasiyası) Nəzarətə bir ərizə verərək, fabrikadan öz ailələrinin ehtiyacı üçün bəzi mallar almağa izin və vəsiqə istəmişlərdir. Fəqət təəccüb burasıdır ki, Nəzarətə verilmiş olan siyahıya baxılarsa, görərsiniz ki, hər adam 800 arşından ziyadə parça istəyir ki, bu da orta hesabla 15 min, 50 min manata qədər pul edir. Fabrika qulluqçularının kim olduğunu bilməyiriz. Ancaq buna da təəccüb etməmək olmaz ki, hangi qulluqçu öz evinə birdən-birə 15 min manatlıqdan ziyadə zər'i mal ala bilər.

Görəsən, heç Tağıyev özü 15 min manatlıq birdən-birə ağ alırmı?!

## TÜRKÜSTANIN SİYASİ ƏHVALI HAQQINDA BƏYANAT

Sülh Konfransına gedən türküstanlı bir əfəndinin bəyanatına görə, Türküstanda siyasi əhval aşağıdakı surətlə imiş:

Türküstan şimdi də bolşeviklər əlində olub, Şuralar hökuməti tərəfindən idarə olunmaqdadır. Məhəlli şuraların Moskva ilə münasibətləri fəqət [sadəcə] telsiz teleqraf vasitəsilədir. Bundan iki ay müqəddəm [qabaq] bolşeviklər tərəfindən Ufa və Orenburq şəhərləri zəbt edildikdən sonra daxili Rusiya ilə münasibət başlanması ümid edilmişsə də, rus kazaklarının Daşkənd və Samara dəmir yolunun əksəri yerlərinin xarab edilməkləri cəhəti ilə bu məqsədə erişmək müvəffəq olunammamışdır. Çünki məzkur [deyilən] yollar islah edilib tamam oluncaya qədər Kolçak orduları tərəfindən Ufa və Ginnil istasyonları alınmış və türküstanlı bolşeviklərə daxili Rusiya ilə "iqtisadi cəhətdən çox əhəmiyyəti haiz olan münasibət" hasil etməyə imkan verməmişdir.

Türküstan şuralarının siyasəti təbii olaraq zaman və həyat istədikcə sağlaşmış və onun nəticəsi olaraq ümumi və rəsmi idarələrə müsəlman gəncləri dəxi qəbul olunmuşdur.

Keçən ildəki kimi qəhətlik bu il yoxdur. Çünki yerli əhali pambıq yerinə çöl, qır və sulaq yerlərə buğdanı əkib kəndi həyatlarını nisbətən təmin eyləmişlərdir.

Binaənileyh [ona görə], Türküstanda bu sənə keçən sənədəki kimi dəhşətli qırğınlar dəxi olmamışdır. Çünki əhalinin geniş təbəqələri Şuralar hökumətindən narazı olurlarsa da, üsyana məcbur edilməyə böyük səbəblər olmamışdır.

Mart ayında vaqe olmuş üsyan rus partiyaları və baxüsus [xüsusilə] menşeviklər tərəfindən yapılıb, bir gün yarım müddətində Daşkənddə idarə məqsədilə rus firqələri əlində qalmış, o zaman əski Daşkənddə iş başında olan gənc müsəlmanlar öz ixtiyarları ilə idarəni millətçi müsəlmanlara tapşırmışlar ki, onlar əski Daşkəndi afətdən [bəlalardan] xilas etsinlər və bitərəflik saxlayıb bolşevik və menşevik qoşunları arasında vaqe olan mübarizədə iştirak eyləməsinlər. Sonuncular isə əski Daşkənddə təzə bir idarə düzəldirmişlər, şəhərbaşı intixab etmişlər [seçmişlər] və müsəlmanlardan ibarət milisiya yığmışlar. Gün yarım sonra əmələ gəlmiş dəhşətli qırğınlara əski daşkəndlilərdən aşağıda məzkur [deyilən] təşəbbüslər sayəsində cəmi 30 müsəlman həbs edilib, 3-4 nəfər adam öldürülmüşlərdir. Halbuki yeni Daşkənddə kəsilən 5 min canın nisfi [yarısı] müsəlmandır.

Əski daşkəndlilərin tərəfeyn [iki tərəf] mübarizə edən zaman bitərəf olmaları bolşeviklərə xeyirxahlıqdan deyil, bəlkə idarənin bir düşmən əlindən ikinci düşmən əlinə keçməsini istəmədiklərindən ibarət idi.

Şimdi Türküstan dəxi bolşeviklər əlindədir. Burada bolşeviklərin qüvvətləri çox olmayıb, xaricdən müsəlmanlara azacıq yardım olduqda onları məğlub edib bütün Türküstan idarəsini müsəlmanlar əlinə almaq mümkündür.

Türklərin Bakıya gəldikləri zaman Türküstan əhalisini pək güldürmüşdür. Lakin təqdirin bir cilvəsi bu xəyalın vücuda gəlməsinə mane olubdur.

Sonki vaxtlarda Türküstan müsəlmanlarının əfkari-ümumiyyəsi [ictimai fikri] bolşeviklərə qarşı olduğu kimi, "Yedinaya Rossiya"nın [vahid Rusiyanın] cüzü olmaq fikrindən dəxi uzaqdır. Ümum əhalinin tutduğu yol ingilis oriyantasyonu üzərində istiqlaliyyət kəsb eyləməkdir [qazanmaqdır]. Türküstanın iqtisadi işləri tamamən bolşeviklər əlinə keçmiş, böyük firmalar, banklar, ticarət və iqtisadi müəssisələr milliləşdirilmişdir. Xəbər var ki, ssuda [istiqraz; pul vəsaiti] yoxdur. Bütün ssuda envai [müxtəlif] komitələrə, həm də spekulyatorlara keçibdir.

Maarif işlərinə gəldikdə, bolşeviklər o babda çox gözəl işlər yapırlar. Məsələn, Daşkənd və qeyri Türküstan şəhərlərində ən yaxşı binaları məktəblərə çevirmişlər və qayət çox məktəblər və darülmüəlliminlər [seminariyalar] açmışlardır.

Orta Asiyada olan müsəlman məmləkətlərini birləşdirib bir federasiya düzəltmək fikri ilə meydana çıxan bir komisyon vardır. O heyətdə iranlılar və əfqanlılar da iştirak edirdi. İşbu heyət Xivə, Buxara hökumətində[n] və Fərqanədə[n] sonra Daşkəndə gəlmişdir. Daşkənd soveti bu heyəti qayət mehman-pərvəranə surətdə qəbul eyləmiş və Trotskinin ricası üzərinə məzkur [deyilən] heyətin rəisi Moskvada daxi olmuşdur. Məzkur heyətin məqsədini uzaqlaşdıran bir şey varsa, o da Buxara hökumətinin Orta Asiya İttifaqına girməyə razı olmaması olmuşdur.

**Buxara**

Keçən il Daşkənddə olan sovetlər yardımı ilə Buxarada əski hökumət düşürülüb yeni hökumət – Sovetlər meydana çıxarılmış idi və bu yeni hökumət içində müsəlman gəncləri dəxi var idi. Lakin bolşeviklər tez zaman əmir tərəfdarlarının təcavüzü altında Buxaranı buraxmağa məcbur olmuşlardı. Madam ki, bolşeviklər özlərinin hökumət sürən müddətlərində çox həlakət yapıb öldürmüşlər, şu hal buxaralılara ağır-ağır xatirələr buraxmışdır. O bolşeviklərin arasında 200-ə qədər gənc müsəlmanların olması buxaralıların təəssüblərini o dərəcədə qabartmışdır ki, şimdi buxaralılar bütün tərəqqipərvər adamları tövqif [həbs] edirlər və heç bir yeni təşkilatı və ya islahatı qəbul eyləməyi istəməyirlər. Məgər bu təəssübdən bir yaxşı nəticə dəxi doğubdur ki, buxaralılar keçən il içində 25-30 minə qərib [yaxın] əsgər toplamışlar. Onlar nizamlı əsgərlərə qarşı mübarizə eyləmək dərəcəsində təlim edirmişlərdir.

Lakin, təəssüf ki, əhval və zaman müsaid olduğu halda Buxarada bir qüvvətli hökumət təşkil etmək çarəsini görməyirlər.

**Xivə**

Xivəni Türküstana qoşmaq üçün bolşeviklər tərəfindən sövq edilən əsgər birinci müsadimədə [toqquşmada] məğlub olduqdan sonra, yenidən xivəlilərə qarşı xəttül-hərəkətdə bulunmuşlar. Binaəni-leyh [ona görə] Xivənin əhvalı şayani-məmnuniyyət [məmnuniyyətverici] bir haldadır.

**Əfqanıstan**

Əfqanıstan əmiri öldürüldükdən sonra əsgərlər və xalq arasında niza [mübahisə; qovğa] qopmuşdur ki, bir tərəf əsgərlər və bəzi qaratörədilər [qaragüruh], öldürülən əmirin uluğ [böyük] oğlunun, ikinci tərəfdə xalq və bəzi əsgərlər əmirin kiçik gənc oğlunun Əfqanıstan əmiri olmasını istəyirlər. İşbu zəmində bir neçə mərtəbə qanlı vuruşmalar dəxi olubdur.

Kiçik şahzadəni müdafiə edən tərəf qalib gəlib ehtimal taxta gətirilmişdir.

* * *

Müsafir əfəndi məzkur xəbərləri rəvayət etdikdən sonra deyir ki:

Türküstan və ümumən Orta Asiya müsəlmanları bolşevik anarxiyasından qayət dərəcədə bizar olubdurlar və onun nəticəsi ilədir ki, ingilislərə məhəbbət edirlər.

Əgər azacıq yenə xaricdən müsəlman qüvvəti yardım göstərsəydi, bütün Türküstanı və Orta Asiyanı birləşdirib Azərbaycan kimi istiqlallı bir islam məmləkəti meydana gətirmək mümkün olardı. Çünki müsəlmanlarda qulluqdan azad olmaq, özlərinə istiqlaliyyət kəsb etmək [qazanmaq] fikri geniş meydan alır. Xüsusən ona Türküstanda zəmin dəxi çox yaxşıdır. Məsələn, Fərqanə vilayətində bir fədai keçən il 180 nəfərdən ibarət bir firqə düzəldirmiş idi. Bu il isə bu firqənin hesabı 25 min dərəcəsindədir. Bu hal göstərir ki, nə dərəcə türküstanlılar təşkilata müstəiddirlər [istedadları var]. Məzkur fədailər firqəsi bu gün də hökumət müəssisələrini, dəmir yolları və sairəni talan eyləməkdədir. Xüsusi mülkə əl uzatmayırlar, bəlkə müsəlman sövdəgərlərə yardım göstərirlər. Xüsusi adamların şəxsi hüququnu saxlayırlar. Əgər bu firqə içində təcrübəli zabitlər olsa və birər üsul üzrə islah edilsə, şübhə yox ki, ondan çox xeyirli işlər yapmaq mümkün olar.

*Sad. Tə.*

## İZÇİLİK

**- 2 -**

Baden-Pauel gəncliyin tərbiyəsi üçün vəhşi millətlərin üsulundan istifadə etmək istəyir:

*"Bu gün ən vəhşi və ibtidai bir qövm hesab edilən zuluslarda 17-18 yaşına gəlmiş bir cavan, vətəndaşlar sırasına keçmək üçün Avropada olduğu kimi papiros çəkməklə işə başlamaz. O müşkül bir imtahan və özünün vətəndaşlığa layiq olub-olmadığını isbat etmək məcburiyyətindədir. Böylə bir cavan bütün paltarlarını üstündən atar, bədənini bir növ rəng ilə boyar, əlinə bir mizraq və bir qalxan alar və köydən dişarıya vəhşi heyvanların yaşadığı meşəyə, insanların uğramadığı səhralara gedər. Bu cavan vücudunun rəngi tökülüncəyə qədər özbaşına gəzəcək, çörəyini özü tapacaq, vəhşi heyvanlardan, vəhşi təbiətdən həyatını saxlayacaqdır. Vücudundakı rəngin tökülməsi üçün ən azdan iki ay lazımdır. Bu vaxt içində onu köy civarında görərlərsə, öldürərlər. Bu iki aylıq orman həyatından sonra köyə salamat dönərsə, o artıq bir qəhrəman vətəndaş hesab edilir və böyük şənliklərlə qarşılanır. İngilis gəncliyinin də böylə bir imtahanda müvəffəq olmasını səmimi arzu edərəm."*

Mədəniyyət tarixində bu növ tərbiyəyə biz köhnə zamanda spartalılarda təsadüf ediriz.

Məlumdur ki, Sparta Cümhuriyyəti vətən uşaqlarının ana və ataya deyil, bəlkə bütün məmləkətə aid olduğunu qəbul edərək tərbiyələrini də öz öhdəsinə götürmüşdü. Hökumət hamı uşaqları kazarmalarda böyüdür və bunları artıq dərəcədə cəfaya, məşəqqətə alışdırırdı. Əzası [bədən üzvləri] nöqsan, ağlı tamam olmayan uşaqlar tədavisi mümkün olmazsa, öldürülürdü. Kazarmalarda tərbiyə görən uşaqlar bütün həyatınca yataq üzü, sıcaq aş görə bilməzlərdi. İştə bu məşəqqətli tərbiyə sayəsində balaca Sparta Cümhuriyyəti o zaman pək qüvvətli olan hamı qonşularını məğlub etdi və Ağ dənizdə [Aralıq dənizində] hökmran oldu.

Onların qonşusu Atina [Afina] Cümhuriyyəti isə aristokrat bir üsulu qəbul etmişdi. Mükəlləf [dəbdəbəli] saraylarda yaşayırlar, zamanın şairləri, ədibləri, alimləri gəncliyi Sparta üsuluna zidd bir tərzdə tərbiyə edirlərdi. Gənclər orada biləks [əksinə] nazik, kübar və xəyalpərvər olurdu. Həyatın maddi mübarizələrinə qarşı qeydsiz qalır, zənginlik, elm Atinada daha çox, pək çox olduğu halda, fəqir, demokrat Sparta Atinanı məğlub etdi.

General Baden-Pauel izçilik əsasında spartalıları düşünməklə bərabər, izçilərin bir qışla (kazarma) tərbiyəsi görmələrinə, bu təşkilatın əsgəri bir şəkil almasına bütün qüvvəti ilə müxalifdir. O, əsgərlikdəki bir başla hərəkət edən insan kütləsi yerinə, hər şəxsin ayrı-ayrı düşünər, mühakimə və sonra hərəkət edər şüurlu (разумный) birər fərd olmasını istəyir.

İngilislərin fərdi təkamülləri daha qüvvətli olduğu üçün generalın məqsədi onlarda tamamən hasil oldu. Yəni izçilik yüz minlərlə uşaqlardan mürəkkəb [ibarət] əzim [böyük] bir ordu olduğu halda, hər izçinin fərdi şüuru əsla qiymətdən düşmədi, əksinə olaraq qiymətləndi, təkəmmül etdi.

Halbuki Germaniyada izçilik almanların əsgəri tərbiyəsindən mütəəssir oldu və izçilərin fərdi qiymətləri ingilislər dərəcəsində artmadı. Binaənileyh [ona görə], biz dəxi izçi təşkilatının əsgərliyə heç bir əlaqəsi və rabitəsi olmadığını mütləq surətdə qəbul edəcəyiz.*

Öylə iman edirdim ki, uzun zaman məhkum millət halında yaşayaraq milli və fərdi səciyyələri uyuşuq bir halda qalmış Azərbaycan türklərinin irəli getməsinə, ondakı qiymətli əxlaqların və duyğuların açılmasına izçiliyin böyük köməyi olacaqdır və istiqbalın xeyirxah, vəzifəşünas, fədakar və cəsur, qanuna müti, vətənpərvər, vəlhasil bütün mənası ilə "ehtiram edər və ehtiram görər" Azərbaycan türkü bu sayədə yetişəcəkdir.

İzçilik ingiliscə "Scout"un tərcüməsidir. Avropa dillərinin hamısına bu kəlmə daxil olmuşdur. Türkcədə "kəşşaf" [kəşfiyyatçı], "pişdar" [qabaqda gedən] və "izçi" deyə üç kəlmə ilə tərcümə olunmuşdur. Bunların içində izçilik türkcə kəlmə olmasından və mənası da əsgəri istilahlardan [terminlərdən] (pişdar əsgəri bir təbirdir, авангард deməkdir) uzaq bulunmasından digərlərinə tərcih edilə bilər.

İzçilik vəhşi məmləkətlərdəki hüdud gözətçilərinin* həyatlarını və hərəkətlərini təqliddən ibarətdir. İzçi (Scout) səhrada, meşədə gəzər, gəzərkən ətrafını tanı[ya]r, kiçik hadisələri belə görər, daima diqqətli və oyanıq bir insan deməkdir. Binaənileyh [ona görə] izçilər meşələrdə yaşamağı, özlərinə balaca evlər yapmağı, xörəklərini qayırmağı, ulduzlarla yollarını bulmağı, hər növ vəhşi və əhli heyvanların izlərini tanımağı, uca ağacların təpəsinə bir qaç dəqiqədə çıxmağı, qayalara dırmanmağı, vəlhasil icabında [lazım gəldikdə] Robinzon Kruzo kimi başqalarına möhtac olmadan özbaşına yaşaya bilməyi biləcəklərdir.

Bunları öyrənə bilmək üçün nə zövqlü bir həyat keçirmək lazımdır? Cümlənin məlumu olan Robinzon hekayəsini oxurkən bizim də öylə bir macəra keçirməkliyimizi nə qədər arzu edərdik.

Hələ məşhur fənni mühərrir [elmi fantastika yazıçısı] Jül Vernin "İki il məktəb tətili" hekayəsi bütün uşaqların pərəstideyi-qəlbidir [ürəkdən sevdikləridir].

Hal-hazırda Avropada izçilik ədəbiyyatı pək çoxdur. Həman hər tərəfdə izçi jurnalları çıxır və yüz minlərcə nüsxə satılır.

Filhəqiqə [doğrudan da], açıq havada yaşamaq, vücudun hər əzasını mütənasibən qüvvətləndirəcək təbii idmanlarla məşğul olmaq, səbət yapmaq, balıq ağı [toru] qayırmaq, bəsit bir stol əmələ gətirmək, bir izi təqib edib sahibini bulmaq kimi uşaqların da xoşuna gələcək işlər onların özlərinə etimadı, səbat və əzmlərini artdırır. Təbiəti yalnız kitab səhifələrində deyil, əsil kəndisindən oxumaları və qanmaları, görmək, görmək nəticəsində görülməyənləri bilmək, diqqətləri artmaq və bir-biri ilə doğruya çox yaxın qiyas [müqayisə] etmək kimi səciyyələrini yüksəldir və nəşəli, nikbin, cəsur və doğru düşünür bir hala gətirir. Və hər şeyə, hər ehtimala qarşı "hazır!" olur. Bu hazır olmaq siyasi deyil, pək təbii, həyat mübarizəsinə hazır olmaq deməkdir. Həyat mübarizəsində tamamilə hazır olan bir izçi siyasi və vətəni vəzifələrində də hazırdır. Və hazır olan mütləqa qalib və müzəffər olar.

General Baden-Pauel iyirminci əsrin izçilərinə "son əsr şovalyeləri" deyir. Avropada feodalizma zamanında şovalyelər vardı. Bunlar qəhrəmanlıq göstərə bilmək üçün fürsət ararlardı və diyar-diyar gəzərlərdi. O zamanın şovalyeləri dindar, zəifə və fəqirə qarşı mərhəmətli, zalıma mərhəmətsizlərdi. İndiki zamanın izçiləri dəxi özgələrin imdadına qoşar, xeyir işləməyi bilər, sadiq və vədlərini unutmaz, cəmiyyətin işini şəxsi faydasına fəda edər uşaq şovalyelərdir.

Avropada və Amerikada izçilər böyük yanğınların söndürülməsinə, yer tərpənməsi kimi afətlərdən qəzaya uğrayan yerlərdə əhaliyə kömək etməyə, dənizə düşən bir adamı qurtarmağa müvəffəq olurlar və bu xeyir işlərində izçilik tarixinə şanlı, ibrətli səhifələr əlavə edirlər.*

Məmafih [bununla belə], izçilik müxalifləri də yox deyildir. Generalın fikirləri bir çox pedaqoqlar tərəfindən tənqid edilmişdir. Bu tənqidlərin ümumi xətləri şunlardır:

*"Uşaqların taborlar və alaylar təşkil etmələri, gözəl və yeknəsaq paltarlar geymələri, bir-iki bəsit əl işi öyrənmələri, Amerika vəhşilərini röyalarında görəcək dərəcədə səyyahi və həyəcanlı hekayələrə alışdırılmaları, meşələrdə sərsəriyanə dolanmaları müvəqqəti bir zaman üçün bəlkə faydalı olar. Lakin insanın özündəki xassələrin, səciyyələrin tamamilə inkişaf edə bilmələrinə yardım etməz. Bundan başqa, izçilik tərbiyəsi uşaqları "mən hər şeyi bilirəm" etimadı ilə bilmədiyi halda yalançı bir qürur naxoşluğuna düçar edər. Böylə bir tərbiyənin insanları macərapərəst, avantürist yapması pək mümkündür, ilaxır..."*

Pedaqoqların şu tənqidləri doğrumudur, doğru deyilmidir, burasını hələlik qəti surətdə təyin etmək mühaldır [çətindir]. Bu tərbiyə ilə böyümüş bir nəsil yetişməli, bunların həyat meydanındakı güzarişləri [gedişatları] layiqli surətdə tədqiq olunmalı və sonra qərar verilməlidir. Pək fəlsəfi və radikal nöqteyi-nəzərlə baxarsaq, bütün tərbiyə üsullarında xətalar, nöqsanlar görəriz, lakin onların yerlərinə qonulacaq üsulların xətasız və nöqsansız olacağını bizə kim təmin edər?

Şurasını unutmayalım ki, izçilik uşaqların bütün həyatlarını məşğul etməyir. Onlar yenə məktəblərində oxuyurlar, öz külfət ocaqlarında ailə tərbiyəsini alırlar. Boş zamanlarında küçələrdə məqsədsiz və məntiqsiz oyunlarla məşğul olacaqlarına, daha məqsədli və cəmiyyətli bir surətdə oyun oynayarlar. İzçi olmayan sinif dəxi "Şerlok Holms", "Nat Pinkerton" hekayələri ilə zəhərlənməyirmi?

Məmafih, bir damcısı bir həyatı qurtaran dəvaların belə bir neçə damcısı mövtə [ölümə] səbəb olur. İzçiliyin də ifratı bəlkə müzirrdir [zərərlidir]. Fəqət hal-hazırdakı ən faydalı mənəvi və maddi bir idmandır.

*Tofiq Nurəddin Ağayev*

* İzçilər taborlar, alaylar təşkil edirlər. Həttə böyük manevralar dəxi yapırlar. 1911 sənəsi iyul ayının dördüncü günü ingilis kralı Georq 30 min izçinin keçid rəsmində bulundu. Fəqət bu keçid rəsmi taborların hərəkəti, əsgərlikdə olduğu kimi rrap... rrap... deyildi, bəlkə bir arada bulunan insanların qeyri-müntəzəm bir yığın halında görünməmək üçün alacaqları təbii vəziyyətdən ibarət idi.

* Bunlar öz qəbilələrinin oturduqları meşə guşələrini özgə düşmən qəbilələrdən, vəhşi heyvanlardan mühafizə üçün meşələrdə gecə-gündüz bəklərlər. Ən qaranlıq vaxtlarda dəxi gözləri görər, ən kiçik səsləri qulaqları eşidər, cəsur və çevik adamlardır. Əllərində bir qamış olduğu halda ən vəhşi heyvanları belə məğlub edərlər.

* 1912-ci ildə ingilis qəzetəsi "Deyli meyl" tərəfindən Trinqtonda bir təyyarə müsabiqəsi tərtib edilmişdi. Təyyarəçi Bomon hərəkət edəcəyi zaman vücudunda uyuşuqluq hasil oldu. Bir doktor istədi. Doktora hacət qalmadan, o məhəllin [yerin] izçilərindən masaj bilənlər təyyarəçinin ətrafını sararaq vücu-dunu ovdular və vücudundakı naxoşluğu gedərdilər.

## İRAN İŞLƏRİ

**Doktor Həşmətin edamı**

Dünən Rəştdən Bakıya varid olanların [gələnlərin] dediyinə görə, bu günlərdə Cəngəldə Kiçik xanın birinci müavinlərindən olan məşhur doktor Həşmət hökumət qoşunları komandanı polkovnik Staroselskinin əmri mövcibincə [əsasında] edam edilmişdir. Məlum olduğu üzrə, doktor Həşmət neçə gün əqdəm [qabaq] öz dəstəsi ilə hökumət qoşununa təslim olmuşdu.

## HİNDİSTANDA

Bu axır vaxt Hindistanda böyük iğtişaşlar vaqe olmuşdur. Bu nizamsızlıqların səbəbi İngiltərə məlumatına görə böylədir:

Müharibənin əvvəlinci iki ilində Almaniyadan məvacib alan anarxist müşəvviqlər [təşviqatçılar] inqilab qaldırmaqdan ötrü ələlümdə Amerikadan Hindistana gəlmişlərdi. Bunlar bir o qədər də müvəffəqiyyətə nail ola bilməmişlərdir. Bu müşəvviqlərin qabağını alıb tədbirlər görməkdən ötrü London Ali Məhkəməsinin sədri başda olmaq üzrə Hindistana xüsusi bir komissiya gəlmişdir. Komissiya qərar qoymuşdu ki, mübəlliğləri [təbliğatçıları] tutub həbs etmək haqqı hökumətə vagüzar edilsin [verilsin]. Bu tədbirin əhaliyə dəxli olmayıb, ancaq siyasi qatil və anarxistlər haqqında tətbiq edilsin. Bu qanun mart ayında qəbul olunmuşdu. Bu qanunun nəşrinə mane olan siyasi xadimlər aprelin 1-ci gününü təzə qanun əleyhinə protesto olmaqdan ötrü ümumi oruc elan etmişlərdir. Mübəlliğlər və anarxistlər nizamsızlıq qaldırmaqdan ötrü bu işdən istifadə edib zorla dükanları qapatmağa, qatarlarda evlərinə övdət edən [qayıdan] hindu əsgərləri tutub saxlamağa başlamışlar. Qərar üzrə əvvəlcə Ravlidə, sonra Bombeydə, Əhmədabadda və Pəncabın başqa yerlərində üsyan qalxmışdır. Bu qarışıqlıq əsnasında bir neçə adam qətl edilmişdir. Bu münasibətlə ümumi tətil elan edənlər bu hadisəyə təəssüflər edib, asayişi saxlamaq üçün əhaliyə müraciət etmişlərdir. Lakin onların bu müraciəti təsirsiz qalmışdır. Hindistandan alınan axırıncı xəbərlərdə asayiş bərpa edilmiş olduğu bildirilir.

## BAKI XƏBƏRLƏRİ

Mayın 11-də Bakıya gətirilən ərzaq: buğda 244 pud, un 1541 pud, kartof 709 pud, arpa 2100 pud. Mayısın 12-də gətirilən ərzaq: buğda 9389 pud, un 549 pud, kartof 45 pud, arpa 1866 pud, saman 150 pud.

**Hərbi müstəntiq**

Bu günlərdə Azərbaycan Hərbi məhkəməsinin müstəntiqi Bakıya varid olub [gəlib], kəndi vəzifəsini ifaya şüru etmişdir [başlamışdır].

**Ticarət məktəbində**

Bu il Bakı Ticarət məktəbini 3 nəfər müsəlman mütəallimləri [şagirdləri] – Balaağa Ağayev, Bala Cəbiyev və Kərim Zeynalov ikmal edib [məktəbi bitirib] şəhadətnamə almışlardır.

**Dəmiryol xidmətçilərinin qərarı**

Srağagün Bakı mövqifi [stansiyası] dəmiryol müsəlman əmələlərinin ümumi iclası vaqe olub, bir çox müzakirədən sonra zeyldəki [aşağıdakı] məsələlər həll edilmişdir: 1) Neçə gün bundan sonra Ramazan ayı daxil olduğunu nəzərə alaraq, müsəlman əmələləri cümə günləri bayram və tətil etməlidirlər; 2) Dəmiryol xidmətçiləri üçün Bakıda bir dənə kitabxana açılsın və 3) Çörəkçi ilə kooperativ dükanlarına xüsusi nazirlər [müfəttişlər] təyin edilsin.

**Həbs edilənlərə dair**

Məsai [Əmək] naziri Əmələ Konfransı heyəti-rəyasətinə məlum etmişdir ki, onun tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, tətili-ümumi vaxtında həbs edilən əmələ və onların nümayəndələri bu günlərdə azad ediləcəkdirlər. İcazəsiz olaraq silah və qeyri şeylər saxlamaqda müttəhim edilənlər isə ümumi qanun üzrə mühakimə edilməkdən ötrü məhkəməyə cəlb edilməlidirlər.

**Fəhlə həyatından**

- Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın heyəti-rəyasəti tərəfindən tətil vaxtı rus əmələləri əvəzinə işləmiş olan müsəlman əmələlərinin qulluqdan çıxarılmaması təhti-qərara alınmışdır.

- Bibiheybətdə mədən dairəsində işləyən müsəlman əmələlərinin ümumi iclası vaqe olub, hökumətdən müştərək müqavilənin hangi maddələri qəbul edilib və edilmədiyi haqqında sual və tacirlərin, dükançıların və qeyrilərinin iştahasına hədd qoyulması ilə bahalığın önünü[n] alınması arzu olunması təhti-qərara alınmışdır.

## ZƏHMƏTKEŞ ZİYALILAR İTTİFAQINDA

Mayısın 5-də Ziyalılar İttifaqının növbəti iclası vaqe olaraq, ibtida [əvvəla] 28 nisan [aprel] tarixli iclasın bəratülqövlü [protokolu] oxunaraq əxzi-əsgər [hərbi çağırış] məsələsinin yenidən müzakirəyə qoyulması lazım bilindi.

Yetimlər yurdu maddəsi haqqında Əli bəy məlumat verdi ki, Mərkəzi Ev Komitəsi sədri ilə görüşüb qonuşmuşdur. Sədrin izahatından belə görünür ki, Mərkəzi Ev Komitəsinin cümlə üzvləri, o cümlədən yetimlər yurduna təyin olunmuş doktor və başqası, Ziyalılar İttifaqı ilə bərabər işləmək təmmənasındadırlar və Komitə tərəfindən heç kəs "İttifaqın üzvləri yetimlər yurdu işinə qarışa bilməz" söyləməyibdir. İdarə bu izahat ilə iktifalandı [kifayətləndi]. Əlavə Teymur bəy söylədi ki, Mərkəzi Evlər Komitəsi 5 min rublə paraya buraxdığı çuştlar həpsi çox az vaxtda tələf olmuşdur və çocuqlar hal-hazırda ayaqyalın gəzirlər. İdarə qərar qoydu ki, Mərkəzi Ev Komitəsinə intixab olunmuş [seçilmiş] üzvlər Komitənin iclasında bu barədə sorğu versinlər. Xorasan nümayəndəsinə dair maddə oxunduqda Ağa əfəndi [Axundzadə] məlumat verdi ki, bu barədə Xariciyyə naziri ilə ərizəçilər kəndiləri görüşmüşdür və özləri bu təşəbbüsatdadırlar.

Çiçək xəstəliyi haqqında Əli bəy və Zivər bəy xəbər verdilər ki, maya [peyvənd mayası] və başqa ləvazimat təyin olan vaxtda dərdəst edilmədiyi [əldə edilmədiyi] üçün məsələ ləngə düşdü və ümid var ki, cümə axşamı bu şeylər cümləsi ələ gəlsin. İdarə qərar qoydu ki, üzvlər cümə axşamı yenidən toplanıb bu işə şüru etsinlər [başlasınlar].

Bəratülqövl [protokol] qurtardıqdan sonra günlük məramnamədəki məsələlərin müzakirəsinə şüru edildi.

Günlük məramnamə:

1) Əxzi-Əsgər [Hərbi çağırış] İdarəsi haqqında;
2) Müəllimlərin maaşları haqqında;
3) İdarələrdə lisan haqqında;
4) Maliyyə heyətinin məruzəsi;
5) Müsri [yoluxucu] cild [dəri] xəstəliyi haqqında;
6) Səhiyyə heyətinin qeyri-fəal olduğu haqqında;
7) Daxil olmuş məktublar;
8) Hilali-Əhmər [Qırmızı Aypara] Cəmiyyəti təşkili;
9) Bez haqqında;
10) Salyan qışlaqları məsələsi.

Əvvəlinci məsələ müzakirəyə qoyulduqda, Sadıq Hüseynzadə söylədi ki, Əxzi-Əsgər İdarəsinə müntəxəb [seçilmiş] üzvlər haqqında valinin müavini ilə görüşmüşdür. Orada o cavab almışdır ki, İttifaqın üzvlərini Əxzi-Əsgər İdarəsinə qəbul etməyə qanunən ixtiyar yoxdur. Lazımdır ki, bu məsələ qanun layihəsi surətində Parlamandan keçirilsin. Bu məlumat keçmiş iclaslarda danışılan sözlərlə müvafiq gəlmədiyi üçün üzvlərin hər biri tərəfindən prostesto edildi.

Ziyalılar İttifaqı valinin bu hərəkətini protesto edir və yenə üç üzvünün İdarəyə daxil olmasını vacib bilib israrla təmənna etməkdədir.

2) Hazırda olan müəllimlər; hökumət tərəfindən kanuni-əvvəldən [dekabrdan] bu zamana kimi onların maaşı xüsusunda layihə təxirə salınmışdır və müəllimlər hal-hazırda təşrini-sanidə [noyabrda] təyin olunmuş maaşı alaraq ziyadə aclıq və məşəqqətlə həyat etməkdədirlər. Bu xüsus da müəllimlər arasında bir çox danışıqlara bais olmuşdur deyə İttifaqdan bu barədə yardım təmənna etdilər. İdarə qərar qoydu ki, Rəisi-vükəlaya [Baş nazirə] rəsmi bir məşruhə [izahat] yazılsın və bu məşruhəni Camo bəy [Hacınski] və Əliməhəmməd, rəisin hüzuruna təqdim etsinlər və müəllimlərin halı xüsusunda ona məlumat versinlər.

(İdarədən: Müəllimlərin məvacibi artırılmaq haqqındakı qanun Parlamanda qəbul edilmişdir.)

3) Dəftərxanalarda və idarələrdə bu zamana kimi plakatlar cümləsi rus dilində yazılmışdır və bir az yerlərdə türkcə plakatlar varsa da, onlar çox bisavad yazılmışdır, – söyləyib, Əliməhəmməd nümunə üçün bir plakat təqdim etdi: "Kansalarda pristav üçüncü uçastok Bakı verilir saat 12-dən 1-ə qədər gündüz praznik günlərindən başqa." Bu səbəbə rusca bilməyənlər idarələrdə qapı-qapı gəzib axırda öz işini həll eyləməmiş qayıdırlar.

İdarə qərar qoydu ki, dəftərxanalarda türkcə də plakatlar asılmaq lüzumu haqqında hökumətə bir məktub yazılsın və mətbuat heyəti idarələr milliləşmək haqqında müfəssəl bir layihə təqdim etsin.

4) Maliyyə heyəti tərəfindən Ağa Axundzadə istiqraz müəssisələri haqqında müfəssəl bir layihə oxuyub, layihənin qəbul olunmasını təklif etdi. İdarə bu layihəni qəbul edib çapa verilməsinə qərar qoydu. Əlavə, Maliyyə Nəzarətində hal-hazırda həştad nəfər məmurdan ancaq 10 nəfəri müsəlman olduğunu və bu 10 nəfərin ancaq iki nəfəri mühüm vəzifə başında durmasını ərz etdi. Bunlardan masiva [başqa], bu Nəzarət idarəsinə yenə müsəlman müraciət etmişsə də, onlar qəbul olmayıbdır və qəbul olanlar cümləsi Denikin adamıdır. İdarə qərar qoydu ki, əhalinin, məqamiaidənin [aidiyyətli qurumun] diqqətini bu işə cəlb etmək üçün qəzetədə çap olunsun.

Salisən [üçüncüsü], maliyyə heyəti tərəfindən heyətlərə müraciətən Ağa əfəndi [Axundzadə] təklif etdi ki, hər heyətə nə miqdarda para lazım isə maliyyə heyətinə yazıb məlum etsin.

5) Əli bəy əhali arasında şiddətli gicişmə (qotur) xəstəliyi olduğunu və bu mərəzə bais, küçələrdə yiyəsiz gəzən qotur itlər olduğunu söylədi. İdarə qərar qoydu ki, bu itləri tələf eyləmək xüsusunda Bələdiyyə İdarəsinə bir kağız yazılsın.

6) Ağa əfəndi [Axundzadə] tələbə İsmayıl Axundzadə tərəfindən əhaliyə hifzi-səhhət yardımı haqqında bir məruzə oxuyub, səhiyyə heyətinin bu hala kimi heç bir iş görəmmədiyini söylədi. İdarə qərar qoydu ki, bu məruzə səhiyyə heyətinin sədrinə verilsin və sədri çaharşənbə gününə təyin olunmuş iclasa dəvət edib heyətin fəaliyyəti barəsində izahat istənilsin.

7) Camo bəy [Hacınski] "Müsavat" tərəfindən gəlmiş məşruhəni [izahatı] oxudu. Bu məşruhədə firqə "istiqlaliyyəti-Azərbaycan" iclasına üç nümayəndə tələb edir. İdarə bu iclasa [Axundzadə] Ağa əfəndini, [Hüseynzadə] Sadıq əfəndini və [Alxasov] Kərim bəyi intixab etdi [seçdi].

Və 2) Dava vəkili [Murtuza bəy] Palavandovun üzvlüyə daxil olmaq xüsusunda ərizəsi oxundu, ərizə qəbula keçdi.

8) İttifaq üzvü [Heydər bəy] Şahtaxtınski tərəfindən Azərbaycanda bir Hilali-Əhmər Cəmiyyəti təşkil etmək haqqındakı təklifi bilmüzakirə [müzakirə etməklə], İdarə qərar qoydu ki, bu məsələ səhiyyə heyətinə mühəvvəl olunsun [tapşırılsın] və səhiyyə heyəti bu xüsusda bir məruzə təqdim etsin.

## AZƏRBAYCANDA

**Quldur dəstəsi**

Quba uyezd naçalniki [qəza rəisi] qubernatora məlum etmişdir ki, Novruz Pirmurad oğlu ilə Nəsrulla Şıxbaba oğlu 28 nəfərdən ibarət bir quldur dəstəsi təşkil edib dinc əhalini qətl-qarət etdiyindən, bu günlərdə onun tərəfindən ittixaz edilmiş olan [görülən] tədbirlər nəticəsində dəstə pərakəndə edilməklə bərabər, quldurlardan bir çoxu tövqif [tutulmuş] və həbs edilmişlərdir.

**İran sərhədini mühafizə**

Bakı qubernatoru Cavad uyezd naçalnikinə məlum etmişdir ki, Cavad uyezdi dairəsində İran sərhədini Şahsevənlərdən mühafizə etmək üçün Daxiliyyə Nəzarəti tərəfindən 200 nəfərdən ibarət bir qoşun dəstəsi təşkil edilir və bu günlərdə məhəllinə [yerinə] göndəriləcəkdir. Dəstənin maddi cəhəti və ləvazimatı Nəzarət tərəfindən təmin olunacaqdır.

**Muğan camaatının ricası haqqında**

Daxiliyyə Nəzarəti Bakı qubernatoruna məlum etmişdir ki, Muğan camaatının cavanların əsgərliyə dəvəti iyul ayının 1-nə kimi təxir edilməsi xüsusunda verdikləri ərizə qəbul edilməyir. Sərhədi Şahsevənlərdən mühafizə etmək məsələsi hökumət tərəfindən ciddi surətdə müzakirə və bu barədə lazımi tədbirlər ittixaz edilmişdir.

**Vergilərin istənilməsi**

Qubernator qalabəyidən rica etmişdir ki, Sayad Xızı camaatından bu vaxta qədər təxirə uğramış olan iki ilin vergisi alınsın.

## GÜRCÜSTANDA

**İtaliya əsgəri heyəti**

Tiflisdə nəşr olunan "K. S." qəzetəsinin mühərriri Tiflisə varid olan [gələn] İtaliya heyəti üzvü, sabiqdə Tiflisdə olan İtaliya konsulu Valeri tərəfindən qəbul edilib uzun müsahibədə bulunmuşdur. Heyət başında polkovnik Qabba, ərkani-hərb naçalniki [qərargah rəisi] Mekelidir. Heyət 18 nəfər müxtəlif məsələlərdə mütəxəssis olan zabitdən ibarətdir. Bu heyət Parisdən İtaliya sülh nümayəndələri tərəfindən Zaqafqaziyaya göndərilmişlərdir. Heyətin məqsədi Zaqafqaziyanın siyasi, iqtisadi, maliyyə və qeyri əhvalını nəzərdən keçirməkdir. Heyət öz vəzifəsi ifasından sonra öz işlərinin nəticəsini İtaliya sülh nümayəndələrinə məruzədə bulunmaqdan ötrü Parisə övdət edəcəkdir [qayıdacaqdır]. Heyəti 50 nəfərlik bir saldat dəstəsi müşayiət etməkdədir. Heyət aprelin 22-də Parisdən, 26-da isə Romadan azim olmuşdur [yola düşmüşdür].

**Zaqafqaziya Darülfünunu**

Mayın 11-də Zaqafqaziya Darülfünunu [Universiteti] şurasının iclası olmuşdur. İclasda xəbər verilmişdir ki, erməni hökuməti Zaqafqaziya Darülfünununun 1 milyon manat təxsisat [vəsait ayrılması] haqqındakı istidasını [xahişini] rədd etmişdir. Çünki Ermənistan hökuməti İrəvanda darülfünun açmağı qərara alıb, bunun üçün də 5 milyon manat para buraxmışdır.

## İZHARİ-TƏŞƏKKÜR

Mart inqilabından sonra kəndlərimizdə olan məktəblər və bunların əsbabi-tədrisiyyəsi [tədris vasitələri] avam camaat tərəfindən məhv olmaq dərəcəsinə gəldiyindən, bu sənə məktəblərin güşad olunması [açılması] imkan xaricində idi. Cavad qəzasının Xıllı nahiyəsi müdiri Mirzə Məhərrəm Lələyev cənabları bu məktəblərin intizamı və güşad olunması xüsusunda artıq dərəcədə səy və kuşiş edərək [çalışaraq], məktəbləri güşad etməyə müvəffəq olmuşdur. O cümlədən bizim Süleymankənd məktəbini də min gunə [min cür] cidd-cəhdlə güşad etdirib, balalarımızın tərbiyəsinə bais olmuşdur. Bu xüsusda mümaileyh [adı çəkilən] Mirzə Məhərrəm Lələyev həzrətlərinə səmimi təşəkkür ediriz.

*Süleymankənd məktəbi müəllimi:*
*Mirzə Məhəmməd Zeynalzadə*

**Pianino**

Təzə və bir qədər köhnə, məşhur rus və əcnəbi fabrika pianinoları, çoxlu miqdarda notalar satılır. Adres: Birjevaya küçə, Adamovun evində nömrə 19, mənzil nömrə 7.

*8778*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri və sifilis naxoşluqlarını qəbul edir. 606 və 914 müalicəsi. Naxoşları hər gün qəbul edir saat 4-dən 7-yədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə.

*8776*

**Diş həkimi**
**E. S. Karşteynbaumun**

Diş müalicəxanası və süni diş laboratoriyası. Adres: Sisyanovski (Ləzginski) və Çadrovı küçələrin küncündə nömrə 41. Telefon 22-07. Qəbul edir səhər saat 6-dan 8-ədək; səhər saat 11-dən 2-yədək; axşam saat 4-dən 8-ədək. Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır.

*8779*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. "606" və "914" müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*

**Diş həkimi M. B. Şternin**

Vorontsovski küçə, nömrə 22, Karantinni küçənin küncündə. Süni dişlər qayırır. Qızıl ənglər və damaqlar qayırır. Dişləri ağrısız çəkir.

*8757*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

Doktor M. M. Kərimov göz naxoşlarını və diş həkimi A. Əmirov naxoşları qəbul edirlər saat 4-dən 7-yədək. Ünvan: Suraxanski və Spasski küçələrin [küncündə] 102 nömrəli evdə. Telefon nömrə 40-91.

*8754*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Zəhmət (məsai) bürosu**

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik [tövsiyə] edir. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Sülh ətrafında***

"Qeysəri-məğlub": 1888-1918-ci illərdə hakimiyyətdə olan Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

***Qəzetələrdən***

"OSVAQ" (Osvedomitelnoye Aqentstvo: Məlumat Agentliyi): Rusiyada Vətəndaş müharibəsi illərində Könüllü ordunun və Cənubi Rusiya Silahlı Qüvvələrinin məlumat və propaqanda orqanı olmuşdur.

***Nəzarətlərdə***

"Yaxın Şərqdə Amerika Müavinət Cəmiyyəti": Əsası 1915-ci ildə "Erməni və suriyalılara yardım üzrə Amerika Komitəsi" [American Committee for Armenian and Syrian Relief] kimi qoyulmuş, sonrakı dövrlərdə Yaxın Şərqə yardım üzrə Amerika Komitəsi [American Committee for Relief in the Near East] və Yaxın Şərq Fondu [Near East Foundation] adıyla fəaliyyətini davam etdirmişdir.

***Müsahibə***

"həm də ucuz çatsınlar": qəzetdə "çatsınlar" yerinə "satsınlar" getmişdir.

"dəstmal (?)": sual işarəsi (?) qəzetdə getmişdir.

***Türküstanın siyasi əhvalı haqqında bəyanat***

"Əfqanıstan əmiri öldürüldükdən sonra...": Əfqanıstan əmiri Həbibulla xanın 20 fevral 1919-cu ildə suiqəsd nəticəsində öldürülməsindən sonra, kiçik qardaşı Nəsrulla xan 21-28 fevral tarixlərində əmir olmuşdur. Daha sonra Həbibulla xanın kiçik oğlu Əmənulla xan taxta keçmiş və 1926-cı ilə qədər Əfqanıstan əmiri, 1926-1929-cu illərdə isə Əfqanıstan şahı olmuşdur. Həbibulla xanın böyük oğlu İnayətulla xan isə 1929-cu ildə 3 gün müddətində Əfqanıstan şahı olmuşdur.

***İzçilik***

"İzçilik ingiliscə "Scout"un tərcüməsidir.": qəzetdə "Scout" sözü latın hərfləriylə yığılmışdır.

"İzçi (Scout) səhrada, meşədə gəzər": qəzetdə "Scout" sözü latın hərfləriylə yığılmışdır.

"Şerlok Holms": ingilis yazıçısı Artur Konan Doylun məşhur detektiv qəhrəmanı.

"Nat Pinkerton": XX əsrin əvvəllərində məchul alman müəllifi tərəfindən yaradılan və Avropada məşhur olan detektiv qəhrəmanı.

***Zəhmətkeş Ziyalılar İttifaqında***

"Salyan qışlaqları məsələsi": qəzetdə "Salyan" yerinə "Süleyman" getmişdir.

***Gürcüstanda***

"K. S.": 1914-1919-cu illərdə Tiflisdə rus dilində nəşr edilən gündəlik qəzet olan "Kavkazskoye slovo" nəzərdə tutulur.

***İzhari-təşəkkür***

"Süleymankənd": indiki Salyan rayonunun Çuxanlı kəndi.




# Novruz bayramı rənglər dünyasında

**Azərbaycan xalqının tarixində zəngin adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən Novruz bayramının özünəməxsus yeri var. Novruz yeni gün, təzə il deməkdir, hamımızın intizarla gözlədiyimiz baharın ilk günüdür. "Novruz" halallıq, təmizlik, müdriklik və kamillik bayramıdır. Novruz gəlişi ilə, atdığı ilk qədəmləri ilə evlərə, ailələrə sevinc, şadlıq gətirir. Novruzun gəlişi ilə təbiət oyanır, torpaq canlanır, ağaclar tumurcuqlanıb çiçəkləyir, dağ-dərələr, meşələr yaşıllığa bürünür. Sözün həqiqi mənasında, həyat yenidən başlayır. İnsanlar çox haqlı olaraq bu fəsli gözəllik və xoş ovqat fəsli adlandırırlar.**



Novruz bayramının adət-ənənələri elmi əsərlərlə yanaşı, ədəbiyyatımızda, filmlərimizdə də bədii surətdə əks olunmuşdur. Bütün bunlar isə tamaşaçılar və oxucular tərəfindən zaman-zaman böyük maraqla qarşılanmışdır. Novruz bayramı mövzusu təsviri sənətdən də yan keçməmişdir. Bu bayramın insanlarda yaratdığı nikbin ovqat rəssamlarımızın yaradıcılığında geniş yer tutmuşdur. Ötən əsrin altmışıncı illərində Novruzun ümumxalq bayramı kimi qeyd olunması rəssamlarımızın bu mövzuya marağını daha da artırmışdır. Bayramın ayrı-ayrı epizodlarını özündə əks etdirən dəyərli əsərlər yaranmışdır.



Azərbaycanın satirik qrafikasının əsasını qoymuş, adı sənətsevənlərin dilindən düşməyən görkəmli rəssam Əzim Əzimzadə bayramlar mövzusuna müraciət edən ilk sənət adamlarından olmuşdur. O, ötən əsrin 30-cu illərindən başlayaraq "Kos-kosa", "Qurban bayramı" , "Kasıb evində toy", "Varlı evində Ramazan" , "Od çərşənbəsi" , "Kasıb evində Ramazan süfrəsi" və sair rəsm əsərləri çəkmişdir. Rəssamın araya-ərsəyə gətirdiyi bu və ya digər əsərlərində adət-ənənələrimiz, el şənliklərimiz, milli bayramlarımız maraqlı epizodlarla əks olunmuşdur. Ə.Əzimzadə bayram mövzusunda çəkdiyi rəsmlərdə hadisələri nikbin boyalarla təsvir etmiş, adət-ənənələri, milli koloriti, ən əsası isə zəngin olan folkloru qoruyub saxlamağı bacarmışdı.

Çəkdiyi əsərləri ilə xalqın böyük sevgisini qazanmış istedadlı, bənzərsiz mənzərə ustalarımızdan olan Səttar Bəhlulzadə milli bayramlar, adət-ənənələrimiz mövzusunda bir-birindən maraqlı və dəyərli əsərlər çəkmişdir. "Bahar nəğməsi", "Xonça" (etüd), "Torpağın arzusu", "Azərbaycan nağılı" və bu kimi əsərlərində təbiətin çoşqun sevincini böyük sənətkarlıqla təsvir etmişdir.

Görkəmli sənət adamı Elmira Şahtaxtinskaya çəkdiyi "Novruz bayramı



ərəfəsində", "Qutablar" adlı əsərlərində Azərbaycan xalqının ən qədim adət-ənənələrini böyük məharətlə yaradıb. Rəssamın Novruz bayramına hazırlıq mərhələsində qadınların səmənilərin əhatəsində milli şirniyyat növləri - paxlava, şəkərbura, digər əsərində isə milli ornamentli kilim üzərində əyləşmiş üç qadının Azərbaycan mətbəxinin ləziz nemətlərindən hesab olunan qutab hazırladıqları an çox böyük ustalıqla təsvir edilib. Adlarını çəkdiyimiz bu əsərlərdə bayram səhnəsi bütün çalarları ilə diqqətləri cəlb edir.

Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi Elbəy Rzaquliyev İçərişəhərdə dünyaya göz açıb, Abşeronda böyüyüb. Rəssam yaddaşına hopmuş nostalji xatirələri, təbiətin füsunkar mənzərələrini, iştirakçısı olduğu hadisələri böyük bacarıqla əsərlərinə köçürüb. Xatirələrini, arzularını rənglərin dili ilə ifadə edib. Görkəmli rəssamın milli bayramımıza həsr etdiyi "Novruz bayramı" kompozisiyasında Xəzər dənizinin fonunda, İçərişəhərdə Novruz bayramı şənlikləri təsvir olunub. Milli geyimdə olan gözəl qızların rəqs etməsi, əllərində çalğı alətləri tutmuş musiqiçilər, kəndirbazın oyunu, tablonun sağ tərəfində yellənən milli ornamentli xalça nümunəsinin təsviri əsərin bədii ifadəliyini daha da artırır, baxanlarda əsl bayram ovqatı yaradır.

Tanınmış rəssamlar Xalidə Səfərova, Ələkbər Rzaquliyev, Nəcəfqulu İsmayılov, Sara Namitokova-Manafova, Arif Ələsgərov və başqaları Novruz bayramı mövzusunda bir-birindən maraqlı əsərlər ərsəyə gətiriblər. Bu əsərlərdə Novruz adət-ənənələri, el şənlikləri, milli bayramlar öz əksini çox parlaq şəkildə tapıb.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Nur şəhəri Mingəçevirə bayram nuru çiləndi

**Səməd Vurğun meydanında Novruzun atributları olan Səməni və bayram tonqalının ətrafında uşaqların əylənməsini görmək lazım idi. Bu mənzərə meydanın ətrafındakı tumurcuqlanan ağaclarla üst-üstə düşürdü.**



Belə bir ovqatla başlayan tədbirdə şəhər rəhbərliyi, rəsmiləri, ictimaiyyətin nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər iştirak edirdilər. Mədəniyyət işçilərinin təqdim etdiyi mahnı sovqatı, Uşaq Gənclər İnkişaf Mərkəzi şagirdlərinin rəngarəng rəqsləri, idmançıların yarışmaları, Novruzun özəlliyi olan Dədə Qorduqun Bahar qızla birgə səhnəyə gəlişi, Keçəl və Kosanın məzhəkələri, yumurta döyüşdürülməsi milli-mənəvi dəyərlərimizi nümayiş etdirirdi.

Çıxış edən şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov sakinlərə bayram təbriklərini çatdıraraq bildirdi ki, Novruzun gəlişi hər kəsin qəlbində xoş hisslər oyadır: "Fərəhli haldır ki, builki Novruz bayramı əlamətdar günlərdə, müqəddəs Ramazan ayı ilə eyni vaxtda həyatımıza qədəm qoyur. Ulu babalarımızdan bizə yadigar qalmış Novruz xalqımızın ən qədim adət-ənənələrini özündə əks etdirir. Mənəvi dəyərlərimizi özündə yaşadan Novruz insanlar arasında birliyin, mehribanlığın möhkəmləndirilməsi deməkdir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü sayəsində Novruz bayramının 2009-cu ildə UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edildiyini deyən İ.İsmayılov 2010-cu ildən BMT Baş Assambleyasının qərarına əsasən, mart ayının 21-nin "Beynəlxalq Novruz günü" elan edilməsini xatırlatdı. ŞİH-in başçısı daha sonra dedi: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın ərazi bütövlüyünün, suverenliyimizin bərpa olunması sevinc hissimizi ikiqat artırır. Azad olunmuş ərazilərimizdə, Qarabağ iqtisadi rayonunda böyük quruculuq işləri uğurla həyata keçirilir, keçmiş məcburi köçkünlərin yurd yerlərinə qayıtması üçün hər cür şərait yaradılır. Xüsusilə xalqımızın ən yaralı yerlərindən olan Xocalının bərpası və yenidən qurulması, oranın sakinlərinin uzun illərdən sonra qayıdışı fərəh doğurur. Prezidentin iştirakı ilə həyata keçirilən tədbirlər xalqımız tərəfindən rəğbətlə qarşılanır. Bu zəfəri bizə yaşadan Ali Baş Komandanımıza və milli ordumuzun hər bir əsgər və zabitinə hörmət və ehtiramımızı bildirməklə, onları Novruz bayramı münasibətilə mingəçevirlilər adından ürəkdən təbrik edirəm".

Novruzun gəlişi münasibətilə hər bir şəhər sakinini də təbrik edən İ.İsmayılov bildirdi ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində Mingəçevir günbəgün gözəlləşir, abadlaşır: "Ötən illərdə olduğu kimi, bu il də şəhərimizdə geniş quruculuq işləri həyata keçirilir. Yaşayış binalarında əsaslı təmir işləri aparılır, nümunəvi məhəllələr salınır, insanların mənalı istirahəti, gənclərin, uşaqların əylənməsi üçün idman meydançaları yaradılır, yeni istirahət məskənlərinin, xiyabanların yaradılmasına hazırlıq işləri görülür".

Tədbir şən musiqi nömrələri ilə axşam qaş qaralanacan davam etdi.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# KOB evləri sahibkarların ən çox üz tutduqları ünvana çevrilir

## Müraciətlərin artması bu cür mərkəzlərin coğrafiyasının genişləndirilməsini şərtləndirir

Mühəndislərin bir sözü var: "İşləyirsə, əl dəymə". Amma biznesdə bu qayda işləmir. Çünki yaxşı işləyən daha yaxşı işləyə bilər. Bu prinsip sahibkarlara çox tanışdır, onlar rəqabətə adətən bundan istifadə edərək girirlər. Rəqabət isə sahibkarlara malik olduqları ilə kifayətlənməyə imkan vermir.

İş adamları deyirlər ki, biznes çayın axarına qarşı üzmək kimidir. Üzmürsənsə, çay səni götürüb aparacaq. Deməli, çayın axarına qarşı üzmək biznesi inkişaf etdirmək, rəqabətə tab gətirmək deməkdir. Və bu mühitdə formalaşan biznes güclənir, inkişaf edir.

İdmançılar yarışda medal uğrunda, biznesdə isə sahibkarlar mənfəət üçün mübarizə aparırlar. Mənfəət biznesin inkişafı üçün ən vacib şərtdir. Mənfəətin hesabına əməkhaqları verilir, vergilər və sosial ödənişlər köçürülür, yeni avadanlıqlar alınır, ən son texnologiyalar tətbiq edilir, istehsal genişləndirilir və s. Həm də bu səbəbdən Azərbaycanda sahibkarlığın inkişafı üçün biznes və investisiya mühiti davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik bazası təkmilləşdirilir. Məhz bunlardan istifadə edib "axara qarşı üzməyi" bacaranlar bu gün iqtisadiyyatın davamlı və tarazlı yüksəlişinin təmin edilməsində, regionların sosial-iqtisadi inkişafında böyük rol oynayırlar.




Dünyanın hər yerində iqtisadi inkişafın lokomotivi kiçik və orta sahibkarlıq qəbul edilir. Kiçik və orta sahibkarlar iqtisadi fəallığın və məşğulluğun təminatında, ən əsası orta təbəqənin formalaşmasında həlledici söz sahibi hesab olunurlar. O üzdən kiçik və orta sahibkarlığın inkişafı ilə bağlı Azərbaycanın da siyasəti sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsinin və onlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəlmiş özəl sektora dövlət maliyyə köməyi mexanizmi yaradılmışdır. Bu sırada Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) sahibkarlar və biznesə yeni başlayanlar üçün dövlət və biznes xidmətlərinin mərkəzləşdirilmiş qaydada təqdim edildiyi vahid məkandır. Həmin məkana KOBİA strukturunda fəaliyyət göstərən kiçik və orta biznes evləri (KOB evləri) də demək olar. Biznesə göstərilən dövlət xidmətlərinin yaxşılaşdırılmasına, bu xidmətlərə asan və rahat çıxışın təmin olunmasına, dövlət-sahibkar münasibətlərinin daha çevik və şəffaf mexanizmlərlə həyata keçirilməsinə xidmət edən KOB evlərinin fəaliyyəti artıq bir neçə ildir ki, iş adamlarına xidmət sahəsində əhəmiyyətli dönüş yaradıb.

Hazırda Yevlax, Xaçmaz və Bakıda olmaqla 3 KOB evi fəaliyyət göstərir. İlk KOB evi 2020-ci ilin fevral ayından Xaçmaz şəhərində, ikincisi isə 2021-ci ilin aprelindən Yevlax şəhərində sahibkarların istifadəsindədir. Sayca 3-cü olan Bakı KOB evi isə 2023-cü ilin yanvarında Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Qeyd edək ki, aparılan islahatların əsas istiqamətlərindən biri vətəndaşlara göstərilən dövlət xidmətlərinin daha keyfiyyətli həyata keçirilməsi, onların daha əlçatan olması, habelə bu sahədə şəffaflığın və operativliyin təmin edilməsidir. KOB evlərinin yaradılması da məhz bu məqsədi daşıyır. İş adamları biznes fəaliyyəti üçün zəruri olan sahibkarlıq fəaliyyətinin qeydiyyatı, lisenziya, icazə və digər lazımi sənədlər, biznes-planın hazırlanması, güzəştli maliyyə vəsaitlərinə çıxış, vergi, gömrük, kommunal, bank, sığorta, notarius və digər xidmətlər üçün KOB evlərinə müraciət edirlər. Bütün bunlar isə rahatlıqdan savayı, vaxta və xərclərə qənaət deməkdir.

KOBİA-nın məlumatına görə, bu il martın 3-dən etibarən Bakı KOB evində daha bir xidmət fəaliyyətə başlayıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində Dövlət Dəniz və Liman Agentliyi (DDLA) tərəfindən təqdim edilən xüsusi hazırlıq şəhadətnamələrinin kurslarda iştirak etmədən yenilənməsi ilə bağlı müraciətlərin qəbulu artıq Bakı KOB evində həyata keçiriləcək. Qeyd edək ki, KOB evlərində 50-yə yaxın dövlət və özəl qurum tərəfindən sahibkarlıq fəaliyyəti üçün zəruri olan 400-dən çox dövlət-biznes ("G2B") və zəruri biznes ("B2B") xidmətləri göstərilir. Üstəlik, KOB evlərində sahibkarlara göstərilən xidmətlərin əhatə dairəsi getdikcə genişlənir. Məhz bu səbəbdən KOB evlərinə sahibkarlar tərəfindən edilən müraciətlərin sayında davamlı artım müşahidə olunur. Təkcə 2024-cü ildə KOB evlərində sahibkarlara 371 mindən çox xidmət göstərilib. Göstərilmiş xidmətlərin 288 min 255-i Bakı, 61 min 326-sı Yevlax, 21 min 723-ü Xaçmaz KOB evlərinin payına düşüb. Xidmətlərin 350 minə yaxını dövlət, 21 mindən çoxu isə biznes qurumları tərəfindən olub.

KOB evlərinə olan maraq onun sayının artırılmasını tələb edir. Bu səbəbdən hazırda Gəncədə KOB evinin yaradılması istiqamətində zəruri işlər görülür. Ölkənin digər şəhər və rayonlarında, o cümlədən Qarabağ və Şərqi Zəngəzurda da KOB evlərinin yaradılması nəzərdə tutulur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan Daşqın Behbudov Göyçayda dəfn edilib





**Birinci Qarabağ müharibəsində itkin düşmüş sayılan Behbudov Daşqın Nəsrəddin oğlunun meyitinin qalıqları Göyçay rayonuna gətirilib. O, İmişli şəhər məzarlığında naməlum şəhid kimi dəfn olunmuşdu.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, şəhidin nəşi bu gün rayonun Mırtı kəndində ailəsinə təhvil verilib və vida mərasimi keçirilib. Vida mərasimində kənd sakinləri, şəhidin ailə üzvləri, qazilər, eləcə də rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Cənazə namazı qılındıqdan sonra şəhidin nəşi Mırtı kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Dövlət himni ifa olunub, yaylım atəşi açılıb.

Qeyd edək ki, Behbudov Daşqın Nəsrəddin oğlu 1994-cü ildə Füzuli rayonunun Şükürbəyli kəndi ərazisində gedən döyüşlərdə itkin düşmüş sayılırdı.

# İtkin şəhid Atakişi Atayev Keşlə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb









**Birinici Qarabağ müharibəsinin itkin şəhidi Atakişi Qəhrəman oğlu Atayev paytaxtın Nizami rayonunun Keşlə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub.**

AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb. İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin sədaları altında torpağa tapşırılıb.

Tabuta bükülmüş Azərbaycanın üçrəngli bayrağı şəhidin yaxınlarına təqdim edilib.

Qeyd edək ki, 1960-cı il oktyabrın 2-də Bakıda dünyaya gələn Atakişi Atayev 1992-ci il iyunun 27-də Xocalı rayonunun Naxçıvanlı kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşmüşdü.

### 33 ildən sonra qardaşımızı adına layiq şəkildə dəfn etdik

AZƏRTAC-ın müxbiri ilə həmsöhbət olan şəhidin kiçik qardaşı Fəxrəddin onunla ən son danışığını belə xatırlayıb: "Qardaşımla sonuncu dəfə mən danışmışam. Onları üçaylıq təlimə cəlb etmişdilər. Təlim bitəndən sonra evə zəng edib dedi ki, artıq cəbhəyə gedirik".

F.Atayevin sözlərinə görə, qardaşı mexanika-riyaziyyat fakültəsini bitirib, hərbi xidmət dövründə isə tankçı olub: "Onun fikri hərbidə qalmaq idi. Ermənilərin ölkəmizə qarşı ərazi iddiaları başlayanda 31 yaşında ordu sıralarına çağırıldı. Aeroportları qoruyan "Şılka" adlandırılan hərbi maşın var, dördlüləli tankdır. Atakişi Azərbaycanda həmin tankı idarə edən nadir mütəxəssislərdən idi. Ona görə də qardaşımı döyüşlərə çağırdılar. Son döyüş yeri əvvəl Ağdamın, indi isə Xocalının inzibati ərazi bölgüsünə daxil olan Naxçıvanlı, Şelli ərazisi olub. Döyüş yoldaşları onun sadəcə başından qəlpə yarası aldığını deyirlər. Sonradan iz itirildiyinə görə tapa bilmədik. Sən demə, onu Goranboyda naməlum əsgər kimi dəfn ediblər. Torpaqlarımız işğaldan azad edildikdən sonra qardaşımızdan xəbər alacağımıza ümidləndik. Şükürlər olsun ki, uzun illərdən sonra qardaşımızdan xəbər ala bildik. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bizə zəng etdilər, DNT analizi aparıldı və naməlum əsgərin qardaşımız Atakişi olduğu məlum oldu. 33 ildən sonra biz qardaşımızı adına layiq şəkildə dəfn etdik".

Şəhidin bacısı Şəlalə Atayeva isə qardaşının çox məharətli, bacarıqlı olduğunu, təhsil aldığı, işlədiyi dövrlərdə onun yalnız xoş sədalarını eşitdiklərini bildirib. "Atakişi çox mehriban, mərhəmətli, hər kəsə yardım əli uzadan bir insan idi. Ermənilərin ölkəmizə qarşı hərbi təcavüzü başlayanda dedi ki, mən evdə otura bilmərəm. Ana-bacılarımızın qeyrətini çəkmək bizim borcumuzdur. Bütün şəhidlər kimi onun da ruhunda paklıq, simasında nur var idi.

Anamız onun yolunu 22 il gözlədi. On bir il əvvəl dünyasını dəyişəndə dedi ki, oğlumun yanına gedirəm. Atakişinin nəşinin tapılma xəbəri gələndə elə birinci anamızın məzarı üzərinə gedib ona xəbər verdik. Artıq ziyarət etməyə bir məzarımız, dərdləşməyə bir məkanımız var", - deyə Şəlalə Atayeva bildirib.

### Baş leytenant: "Mən əmimlə fəxr edirəm"

Əmisi şəhid olanda yaşının az olduğunu qeyd edən Daxili Qoşunların Hərbi İnstitutunda tağım komandiri, baş leytenant Elşən Atayev deyib: "Əmimi yaxşı xatırlamasam da, yaddaşımda qalanlar və ailə üzvlərimin danışdıqları əsasında hər zaman onu xəyallarımda canlandırmağa çalışmışam. Mən əmimlə fəxr edirəm. Qalib Ordunun hərbçisi olaraq bu gün Birinci Qarabağ müharibəsinin qəhrəmanlarından birinin fotosunu daşımaq böyük qürurdur".

Şəhidin həyat yoldaşı Gülnarə Atayeva isə Atakişi Atayevin nəşinin qalıqlarının tapılması xəbərinin onu həyəcanlandırdığını deyib. "O, çox yaxşı insan idi. Müharibə başlayanda tez-tez cəbhəyə getməli olduğunu deyirdi. Onun bir sözü vardı: düşmənin evimizin içinə kimi gəlməsini gözləməməliyik. Atakişi şəhid olanda qızımız 8 aylıq idi. Ondan mənə yeganə yadigar olan qızımız da illər əvvəl 16 yaşında dünyasını dəyişdi. İndi onlar haqq dünyasında qovuşublar", - deyə G.Atakişiyeva qeyd edib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Bundan böyük xoşbəxtlik ola bilməz
İlham Əliyev suveren və bütöv Azərbaycanın işğaldan azad olunmuş ərazilərində növbəti bayram tonqalını alovlandırdı
Bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir
Birinci vitse-prezident Mehriban Əliyeva Ağdərədən paylaşım edib
Ən təhlükəsiz ölkə
USAID, "Azadlıq Radiosu" və "Amerikanın səsi" haqq etdikləri taleyi yaşayırlar
azerbaijan-news.az

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



**Azercell abunəçilərinin nəzərinə!**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 02.04.2025-ci il gecə saatları ərzində VoLTE xidmətlərin istifadəsində və əməliyyatların həyata keçməsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bu istiqamətdə tam normal əsaslarla fəaliyyət göstərilməsi imkanı təmin ediləcəkdir.


# Külək əsəcək, bəzi yerlərdə arabir yağıntı olacaq



**Martın 20-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gecə və axşam bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir.**

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 6-8° isti, gündüz 9-13° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 767 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-9° isti, gündüz 9-14° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 13-18° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, axşam bəzi yerlərdə sulu qar, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 8-13° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7° isti, bəzi dağlıq ərazilərdə 2°-dək şaxta, gündüz 7-11° isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-8°, gündüz 8-13° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9°, gündüz 9-12° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-6° isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 5-9°, gündüz 9-14° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 10-14° isti, dağlarda gecə 5-8°, gündüz 8-10° isti olacağı proqnozlaşdırılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, professor Vahid Novruzova əmisi

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Azər Əmiraslanov, Azər Badamov, Əli Məsimli, Heydər Əsədov, Tahir Mirkişili, Məşhur Məmmədov, Aydın Hüseynov, Vüqar Bayramov, Əlibala Məhərrəmzadə, Rövşən Muradov, Müşfiq Cəfərov və Zaur Şükürov Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elşən Hacızadə, Əskər Aslanov, Faiq Hüseynov və digər iş yoldaşları Ülkər Mirbağırlıya əzizi

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3520
Sifariş 610

Qiyməti 60 qəpik